Xalqın qəzeti!

# Xalq qəzeti

№ 238 (30932) 7 noyabr 2025-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# NATO Azərbaycanla tərəfdaşlığa yüksək dəyər və önəm verir

## Prezident İlham Əliyev NATO nümayəndə heyətini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 6-da NATO nümayəndə heyətini qəbul edib.**

Nümayəndə heyətinə Türkiyə, Yunanıstan, Macarıstan, Monteneqro, Niderland, Şimali Makedoniya, Norveç, Slovakiya, Sloveniya, İsveç, Çex, Portuqaliya, İspaniyanın NATO-dakı daimi nümayəndələri, həmçinin ABŞ və Fransanın NATO-dakı daimi nümayəndələrinin müavinləri daxildir.

NATO nümayəndə heyətinin Prezident İlham Əliyev tərəfindən qəbul olunmasının əhəmiyyətini vurğulayan Türkiyənin alyansdakı daimi nümayəndəsi Basat Öztürk dövlətimizin başçısının NATO mənzil-qərargahına səfərlərini məmnunluqla xatırladı.

O, Azərbaycanın hazırkı inkişafının təməlinin ulu öndər Heydər Əliyev tərəfindən qoyulduğunu deyərək, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin bütün sahələrdə daha da gücləndiyini vurğuladı.

Qonaqlar Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması istiqamətində Vaşinqtonda əldə edilmiş nailiyyətlər münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdılar.

Təbriklərə görə təşəkkürünü bildirən dövlətimizin başçısı bu məsələdə ABŞ Prezidenti Donald Trampın xüsusi rolunu qeyd etdi və əldə olunmuş razılaşmaların regionun inkişafı üçün geniş imkanlar açdığını dedi.

Prezident İlham Əliyev də öz növbəsində NATO mənzil-qərargahına səfərlərini xatırladaraq qeyd etdi ki, Əfqanıstandakı əməliyyatlara dəstək Azərbaycan–NATO əməkdaşlığının vacib hissəsi olsa da, ölkəmizlə alyans arasında regional inkişaf, enerji təhlükəsizliyi və digər istiqamətlər üzrə əməkdaşlıq da gündəmdədir.

Dövlətimizin başçısı Azərbaycan Ordusunun NATO standartlarına uyğunlaşdırıldığını və bu çərçivədə Türkiyə ordusu ilə sıx əməkdaşlığı vurğuladı. Bu xüsusda ölkəmizlə alyans arasında əlaqələrin genişləndirilməsinin roluna toxundu.

Prezident İlham Əliyev Azərbaycanın ötən əsrin əvvəllərində müstəqilliyini qazandıqdan bəri əsas məqsədimizə çatdığımızı - torpaqlarımızın işğaldan azad olunduğunu vurğulayaraq qeyd etdi ki, ordumuzun müasirləşdirilməsi prosesi bundan sonra da davam edəcək.

Dövlətimizin başçısı NATO nümayəndə heyətinin ölkəmizə səfərinin uğurlu olacağına ümidvarlığını bildirdi.

Söhbət zamanı Azərbaycanın NATO-nun dəyərli tərəfdaşı olduğu vurğulandı, Silahlı Qüvvələrimizin Əfqanıstanda "Qətiyyətli dəstək" əməliyyatlarındakı xidmətləri, bu xüsusda ölkəmizin regional nəqliyyat və logistika mərkəzi kimi töhfələri yüksək qiymətləndirildi, sülhməramlılarımızın Əfqanıstanı sonuncu tərk edən hərbi qulluqçular olduğu qeyd edildi.

Azərbaycanın alyans üzvləri ilə sıx dostluq və strateji tərəfdaşlıq əlaqələrinə toxunuldu, NATO-nun "Sülh naminə tərəfdaşlıq" Proqramı çərçivəsində ölkəmizin 1994-cü ildən alyansın proqramlarında fəal iştirak etdiyi bildirildi.

Görüşdə Azərbaycan–NATO əməkdaşlığının perspektivləri müzakirə olundu, regional və qlobal məsələlərə dair fikir mübadiləsi aparıldı.

***AZƏRTAC***

# Sülhə aparan "çörək yolu"

*Azərbaycan üzərindən Ermənistana daşınan buğda qonşuluğa xeyir-dua mesajıdır*



**Azərbaycan dəmir yolları vasitəsilə daşınan Rusiya buğdasının ilk partiyası Ermənistana çatıb. Bu barədə Ermənistanın iqtisadiyyat naziri Gevorq Papoyan bildirib. Onun sözlərinə görə, ümumi çəkisi 1048 ton 800 kiloqram olan taxıl yüklü 15 vaqon noyabrın 5-də axşam "Ayrum" stansiyasına gətirilib.**

"Bu, adətən Yuxarı Lars vasitəsilə çatdırılan Rusiya buğdasıdır. Siz oradakı çətinlikləri – növbələri, eləcə də nəqliyyat əlaqəsinə əhəmiyyətli maneələri bilirsiniz. Bu dəfə yük Rusiya ərazisindən keçməklə Azərbaycana dəmir yolu ilə çatdırıldı. Hazırda Ermənistanla Azərbaycan arasında birbaşa dəmir yolu əlaqəsi olmadığı üçün qatar Gürcüstana, oradan isə Ermənistana daxil oldu. Beləliklə, bu gün tarixi gündür. Demək olar ki, 35 ildən sonra ilk dəfə olaraq yük Azərbaycan ərazisindən dəmir yolu ilə Ermənistana çatdırılıb", – deyə nazir vurğulayıb.

*(ardı 5-ci səhifədə)*

# İrəvan nikbindir, Ankara isə təmkinli...



Səhifə ⇨ 5

# Yeniyetmələr niyə çılğınlaşırlar?



Səhifə ⇨ 15

# Azərbaycan, Ermənistan, Gürcüstan + ABŞ



Səhifə ⇨ 6

# Cənubi Qafqazda dəhliz narahatlığı

*Son sözü logistik tələblərin çevik cavablandırılması deyəcək*



**Geosiyasətdə heç bir status-kvo əbədi deyil. Dünənin qaçılmaz hesab edilən reallıqları bu günün cəsarətli addımları ilə köhnəlmiş xatirəyə çevrilə bilər. Cənubi Qafqazda 30 illik münaqişənin sona çatması ilə başlayan yerdəyişmələr regionun iqtisadi damarlarını, nəqliyyat və ticarət yollarını kökündən dəyişdirir. Uzun illər Şərqlə Qərb arasında yeganə etibarlı quru körpüsü rolunu oynayaraq özünəməxsus tranzit monopoliyasından faydalanan Gürcüstan indi imtiyazlı mövqeyinin sarsıla biləcəyi yeni və narahatedici proseslə üz-üzədir.**

*(ardı 6-cı səhifədə)*

# Sahibkarlığa maliyyə dəstəyi



Səhifə ⇨ 9

# Neft Daşları – dünyada ilk polad neftçilər adası

**Noyabrın 7-si dünya dəniz neft sənayesinin beşiyi sayılan "Neft daşları" yatağının istismara verilməsinin 76-cı ili tamam olur. 1949-cu ilin soyuq payız günlərinin birində Xəzərin coşqun dalğalarını ram edən qəhrəman Azərbaycan neftçilərinin gərgin əməyi öz bəhrəsini verdi. Həmin dövr üçün əsl möcüzəyə bərabər ilk dəniz quyusu fontan vurdu, "Qara daşlar"ın köksünü dəlib çıxan "qara qızıl" çətin dəniz şəraitində gecə-gündüz yorulmaq bilmədən çalışan neftçilərin üzünü ağartdı. Bununla da dünyada ilk dəfə açıq dənizdə neftçıxarmanın əsası qoyuldu.**

*(ardı 9-cu səhifədə)*




# Gəncənin yeraltı dünyası



Səhifə ⇨ 14

# Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 31 may tarixli 97 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin investisiya əməliyyatlarının aparılması Qaydası”nda dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 31 may tarixli 97 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 5, maddə 965 (Cild I); 2025, № 8, maddə 762) ilə təsdiq edilmiş “İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin investisiya əməliyyatlarının aparılması Qaydası”nın 3.4-cü bəndindən “, “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq satınalma müqaviləsi bağlanmış və” sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 6 noyabr 2025-ci il**

# “Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikasının 2024-cü il 16 dekabr tarixli 93-VIIQ nömrəli Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 27 dekabr tarixli 268 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1**. “Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikasının 2024-cü il 16 dekabr tarixli 93-VIIQ nömrəli Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 27 dekabr tarixli 268 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 12 (II kitab), maddə 1374) 1-ci hissəsindəki cədvəldə aşağıdakı dəyişikliklər edilsin:

1.10.6-cı yarımbənd üzrə:

1.1.1. 1.10.6.1-ci abzasda hər iki halda “1 384 537.0” rəqəmləri “563 681.0” rəqəmləri ilə əvəz edilsin;

1.1.2. aşağıdakı məzmunda 1.10.6.2-ci abzas əlavə edilsin:

| | | | | |
|---|---|---|---|---|
| 1.10.6.2 | Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində “Balıqçılıq və Akvakultura Mərkəzi” publik hüquqi şəxs | 820 856.0 | 820 856.0 | |

1.2. 1.11.1-ci yarımbənd üzrə:

1.11.1.4-cü abzasda hər iki halda “16 850 726.0” rəqəmləri “16 568 470.0” rəqəmləri ilə əvəz edilsin;

aşağıdakı məzmunda 1.11.1.4-1-ci abzas əlavə edilsin:

| | | | | |
|---|---|---|---|---|
| 1.11.1.4-1 | Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində “Balıqçılıq və Akvakultura Mərkəzi” publik hüquqi şəxs | 282 256.0 | 282 256.0 | |

Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 6 noyabr 2025-ci il**

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri, cənab Prezident!**

Zəfər Günü münasibətilə Sizə və dost Azərbaycan xalqına təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan şərəf və qürur duyur, ölkənizin davamlı tərəqqisi və rifahı naminə ən səmimi arzularımı yetirirəm.

Bu əlamətdar gün Azərbaycan xalqı üçün böyük əhəmiyyət daşıyır, milli məqsədlərinizə çatmaq yolunda nümayiş etdirilən gücü, əzmkarlığı və birliyi bir daha yada salır.

Ölkənizin inkişafını və uğurlarını, eləcə də regionda sabitliyin və rifahın qorunması naminə göstərdiyiniz səyləri xüsusi diqqətlə izləyirik.

Əminəm ki, Serbska Respublikası, Bosniya və Herseqovina və Azərbaycan xalqları arasında dostluq münasibətləri ortaq mənafeyimizə uyğun olaraq qarşılıqlı anlaşma və hörmət ruhunda bundan sonra da inkişaf edəcəkdir.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm. Sizə cansağlığı və uğurlar, Azərbaycan xalqına isə sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***Jelka TSVİYANOVİÇ***
***Bosniya və Herseqovinanın***
***Rəyasət Heyətinin üzvü***

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri!**

Zəfər Gününün beşinci ildönümü münasibətilə Sizə, Azərbaycan Hökumətinə və dost Azərbaycan xalqına Bosniya və Herseqovinanın vətəndaşları adından və şəxsən öz adımdan təbriklərimi çatdırıram.

Bu əlamətdar bayram Azərbaycan xalqının milli məqsədlərinə çatmaq, ölkənin suverenliyini, ərazi bütövlüyünü təmin etmək yolunda cəsarətinin, qətiyyətinin və birliyinin rəmzidir.

Bosniya və Herseqovina ölkələrimizin inkişaf etdirdiyi dostluq münasibətlərinə və əməkdaşlığına dəyər verir. İkitərəfli əlaqələrin xalqlarımızın rifahı naminə qarşılıqlı hörmət və anlaşma əsasında daha da inkişaf edəcəyinə inanıram.

Sizə bir daha səmimi təbriklərimi çatdırır, dərin ehtiramımı ifadə edir, Azərbaycan Respublikasına və onun xalqına isə sülh, tərəqqi və rifah arzulayıram.

***Jelko KOMŞİÇ,***
***Bosniya və Herseqovinanın***
***Rəyasət Heyətinin Sədri***

# “Antiinhisar və istehlak bazarına nəzarət sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 27 avqust tarixli 190 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişiklik edilməsi və Fərmanının ləğv edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Antiinhisar və istehlak bazarına nəzarət sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 27 avqust tarixli 190 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

1. “Maliyyə-sənaye qrupları haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 14 sentyabr tarixli 490 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 2, maddə 102 (Cild I) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.2-ci bənddə “İqtisadiyyat Nazirliyi” sözləri “Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi” sözləri ilə əvəz edilsin;

1.2. 2.4-cü bənddə “Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi” sözləri “Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi” sözləri ilə əvəz edilsin.

2. “Xidməti və mülki silah haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 21 fevral tarixli 679 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 3, maddə 163 (Cild I) 2-ci hissəsinin yeddinci və səkkizinci abzaslarında “İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi” sözləri “Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi” sözləri ilə əvəz edilsin.

3. “Əhalinin radiasiya təhlükəsizliyi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 19 avqust tarixli 758 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 8, maddə 508 (Cild I) 2.7-ci bəndində “İqtisadiyyat Nazirliyi” sözləri “Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi” sözləri ilə əvəz edilsin.

4. “Tullantılar haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 26 oktyabr tarixli 3 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 10, maddə 611 (Cild I); 2025, № 6, maddə 541) 2.2-ci bəndinə ikinci halda “Nazirliyi” sözündən sonra “, Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi” sözləri əlavə edilsin.

5. Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli 23 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 11, maddə 665 (Cild I) ilə təsdiq edilmiş “İnformasiyanı mühafizə vasitələrinin sertifikatlaşdırılması haqqında Əsasnamə”nin 3-cü hissəsinin onuncu abzasında “İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə” sözləri “Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinə” sözləri ilə əvəz edilsin.

6. “Yol hərəkəti haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli 24 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 11, maddə 666 (Cild I); 2024, № 3, maddə 260, № 7, maddə 815, № 8, maddələr 937, 947, № 10, maddə 1138; 2025, № 6, maddə 542) 2.21-ci bəndində “İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi” sözləri “Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi” sözləri ilə əvəz edilsin.

7. “Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 616 (Cild I); 2024, № 5 (I kitab), maddə 513, № 6 (I kitab), maddələr 653, 661, № 8, maddə 947, № 12 (I kitab), maddə 1289, (II kitab), maddə 1375; 2025, № 4 (I kitab), maddələr 331, 334, № 5, maddə 461, № 6, maddə 541, № 8, maddə 747) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

7.1. 1.12-2-ci bənddə “Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi” sözləri “Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi” sözləri ilə əvəz edilsin;

7.2. 1.14-cü bənddə “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi qismində Dövlət Vergi Xidməti və Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti” sözləri “Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi” sözləri ilə əvəz edilsin.

8. “Torpaqların münbitliyi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsinə dair əlavə tədbirlər barədə” Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 23 oktyabr tarixli 979 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 10, maddə 584 (Cild I); 2025, № 6, maddə 541) 1.2-ci bəndinə üçüncü halda “Nazirliyi” sözündən sonra “, Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi” sözləri əlavə olunsun və həmin bənddə “öz səlahiyyətləri daxilində” sözləri “fəaliyyət istiqamətlərinə uyğun olaraq” sözləri ilə əvəz edilsin.

9. “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 aprel tarixli 48 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 4, maddə 228 (Cild I); 2024, № 7, maddə 789, № 12 (I kitab), maddə 1292; 2025, № 5, maddə 454, № 7, maddə 650) 2.9-2-ci bəndində “Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi” sözləri “Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi” sözləri ilə əvəz edilsin.

10. Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 3 iyun tarixli 248 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 6, maddə 485 (Cild I); 2024, № 2, maddə 145, № 3, maddə 262, № 7, maddə 826; 2025, № 1, maddə 30, № 5, maddə 541) ilə təsdiq edilmiş “Dövlət sirrinə aid edilən məlumatların Siyahısı”nın IV hissəsinin “Dövlət sirrinə aid edilən məlumatlar barədə sərəncam vermək səlahiyyətinə malik olan Azərbaycan Respublikasının dövlət hakimiyyəti orqanları” sütununda aşağıdakı dəyişikliklər edilsin:

10.1. 14-cü bəndə “DİN” akronimindən sonra “, Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi (bundan sonra – Agentlik)” sözləri əlavə edilsin;

10.2. 18-ci bənddə “İqtisadiyyat Nazirliyi” sözləri “Agentlik” sözü ilə əvəz edilsin.

11. “Telekommunikasiya haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 9 avqust tarixli 277 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 709 (Cild I) 2.5-ci bəndində “İqtisadiyyat Nazirliyi” sözləri “Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi” sözləri ilə, “öz səlahiyyətləri daxilində” sözləri “fəaliyyət istiqamətlərinə uyğun olaraq” sözləri ilə əvəz edilsin.

12. “Qiymətli metallar və qiymətli daşlar haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 22 noyabr tarixli 317 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 11, maddə 1012 (Cild I) 2.3-cü bəndində “və Azərbaycan Respublikasının Nazirlər Kabineti” sözləri “, Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi” sözləri ilə əvəz edilsin.

13. “İnzibati icraat haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 28 dekabr tarixli 345 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 12, maddə 1114 (Cild I) 2.4-cü bəndində “Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi” sözləri “Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi” sözləri ilə əvəz edilsin.

14. “Qiymətli metallar və qiymətli daşlar haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar bəzi tədbirlər barədə” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 19 mart tarixli 555 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 3, maddə 234 (Cild I) 1.2-ci bəndində “öz səlahiyyətləri daxilində” sözləri “fəaliyyət istiqamətlərinə uyğun olaraq” sözləri ilə, “Maliyyə Nazirliyi” sözləri “Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi” sözləri ilə əvəz edilsin.

15. “Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanından irəli gələn məsələlər barədə” Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 5 mart tarixli 717 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 3, maddə 167 (Cild I) 3-cü hissəsi ləğv edilsin.

16. “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 25 dekabr tarixli 203 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 12, maddə 991 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

16.1. 3-cü hissədə “İqtisadiyyat Nazirliyinə” sözləri “Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinə” sözləri ilə əvəz edilsin;

16.2. 4-cü hissədə “İqtisadiyyat Nazirliyi” sözləri “Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi” sözləri ilə, “bəndinə” sözü “hissəsinə” sözü ilə əvəz edilsin.

17. “Azərbaycan Respublikası Gömrük Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 sentyabr tarixli 499 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 9, maddə 793 (Cild I) 28.3-cü bəndinə “Agentliyi” sözündən sonra “, Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi” sözləri əlavə edilsin.

18. “2011-ci il noyabrın 29-da Bakı şəhərində imzalanmış “Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi və Polşanın Standartlaşdırma üzrə Komitəsi arasında standartlaşdırma sahəsində əməkdaşlıq haqqında Saziş”in təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 7 fevral tarixli 582 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 71 (Cild I) 2-ci hissəsində “İqtisadiyyat Nazirliyi” sözləri “Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi” sözləri ilə əvəz edilsin.

19. “Reklam haqqında” Azərbaycan Respublikasının 2015-ci il 15 may tarixli 1281-IVQ nömrəli Qanununun tətbiqi və “Reklam haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 noyabr tarixli 644 nömrəli Fərmanının ləğvi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 14 iyul tarixli 554 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 7, maddə 822 (Cild I); 2024, № 6 (I kitab), maddə 661; 2025, № 4 (I kitab), maddə 330) 2.5-ci bəndində “İqtisadiyyat Nazirliyi” sözləri “Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi” sözləri ilə əvəz edilsin.

20. “Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259 (Cild I); 2024, № 2, maddələr 151, 157, № 7, maddələr 806, 812, 814, 815, № 8, maddələr 937, 948, № 12 (I kitab), maddə 1294, (II kitab), maddələr 1359, 1378, 1384; 2025, № 2, maddə 127, № 3, maddə 231, № 4 (I kitab), maddələr 325, 338, № 5, maddə 463, № 6, maddələr 541, 561, № 7, maddə 649, № 8, maddələr 746, 754; Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 30 sentyabr tarixli 498 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

20.1. 4.34-1-ci və 4.41-ci bəndlərdə “Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi” sözləri “Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi” sözləri ilə əvəz edilsin;

20.2. 5-ci hissə üzrə:

20.2.1. 5.6-2-ci bənddə “və Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi” sözləri “qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi” sözləri ilə əvəz edilsin;

20.2.2. 5.42-ci bənddə “, 411-1.1 və 458-ci” sözləri “və 411-1.1-ci” sözləri ilə əvəz edilsin;

20.2.3. 5.44-cü bəndə “455-1” rəqəmlərindən sonra “, 458” rəqəmləri əlavə olunsun və həmin bənddə “Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi” sözləri “Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi” sözləri ilə əvəz edilsin;

20.2.4. 5.51-ci bənddə “Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi” sözləri “Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi” sözləri ilə əvəz edilsin;

20.2.5. 5.54-cü bənddə “Maliyyə Nazirliyi” sözləri “Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi” sözləri ilə əvəz edilsin.

21. “Antidempinq, kompensasiya və mühafizə tədbirləri haqqında” Azərbaycan Respublikasının 2016-cı il 31 may tarixli 261-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 iyul tarixli 987 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 7, maddə 1258 (Cild I) 3.2-ci bəndində “İqtisadiyyat Nazirliyi” sözləri “Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi” sözləri ilə əvəz edilsin.

22. “Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində “ABAD” publik hüquqi şəxsin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 23 sentyabr tarixli 1047 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 9, maddə 1484 (Cild I) 7-ci hissəsindən “, İqtisadiyyat Nazirliyi” sözləri çıxarılsın və həmin hissəyə ikinci halda “Nazirliyi” sözündən sonra “və Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi” sözləri əlavə edilsin.

***(ardı 3-cü səhifədə)***

# “Antiinhisar və istehlak bazarına nəzarət sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 27 avqust tarixli 190 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişiklik edilməsi və Fərmanının ləğv edilməsi barədə

## *Azərbaycan Respublikasi Prezidentinin Fərmanı*

*(əvvəli 2-ci səhifədə)*

23. “Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi ilə İranın Standartlar və Sənaye Tədqiqatları İnstitutu arasında standartlaşdırma, metrologiya, uyğunluğun qiymətləndirilməsi və akkreditasiya sahələrində Anlaşma Memorandumunun təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 4 oktyabr tarixli 1060 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 10, maddə 1619 (Cild I) 2-ci hissəsində “İqtisadiyyat Nazirliyi” sözləri “Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi” sözləri ilə əvəz edilsin.

24. “Azərbaycan Respublikası Hökuməti ilə İsrail Dövləti Hökuməti arasında standartlaşdırma, uyğunluğun qiymətləndirilməsi və metrologiya sahələrində əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1262 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 206 (Cild I) 2-ci hissəsində “İqtisadiyyat Nazirliyi” sözləri “Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi” sözləri ilə əvəz edilsin.

25. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765 (Cild I); 2024, № 4, maddə 381, № 6 (I kitab), maddə 649, № 7, maddələr 812, 814, 815, № 12 (I kitab), maddə 1294, (II kitab), maddə 1367; 2025, № 2, maddə 127, № 3, maddə 232, № 4 (I kitab), maddə 325, № 5, maddə 463, № 6, maddələr 541, 561, № 8, maddələr 756, 763; Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 30 sentyabr tarixli 498 nömrəli və 8 oktyabr tarixli 501 nömrəli fərmanları) ilə təsdiq edilmiş “Rayon (şəhər) məhkəmələrinin və hərbi məhkəmələrin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nda aşağıdakı dəyişikliklər edilsin:

25.1. 8.1-ci bənddən “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin rəisi, onun müavinləri, şöbə müdiri, onun müavinləri, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, tabeliyində olan regional bölmələrin rəhbərləri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi,” sözləri çıxarılsın;

25.2. 16.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

“16.2. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi adından – Agentliyin sədri, onun müavinləri, Aparatın rəhbəri, onun müavini, şöbə müdiri, onun müavinləri, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, tabeliyində olan regional şöbələrin və bölmələrin rəhbərləri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi.”;

25.3. 22-1.3-cü bənddə “İqtisadiyyat Nazirliyi” sözləri “Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi” sözləri ilə, “8.1-ci” sözləri “16.2-ci” sözləri ilə əvəz edilsin;

25.4. 40-cı hissə aşağıdakı redaksiyada verilsin:

“40. Məcəllənin 537.1-ci və 538-1.1–538-1.3-cü maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

40.1. Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi adından – bu Siyahının 16.2-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

40.2. Naxçıvan Muxtar Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi adından – Komitənin sədri, onun müavini, Aparatın rəhbəri, şöbə müdiri.”;

25.5. 42-ci hissədə “İqtisadiyyat Nazirliyi” sözləri “Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi” sözləri ilə, “8.1-ci” sözləri “16.2-ci” sözləri ilə əvəz edilsin;

25.6. 45-ci hissə üzrə:

25.6.1. 45.1-ci bənddə “Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi” sözləri “Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi” sözləri ilə, “40-cı hissəsində” sözləri “16.2-ci bəndində” sözləri ilə əvəz edilsin;

25.6.2. 45.2-ci bənddə “İqtisadiyyat Nazirliyi” sözləri “Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi” sözləri ilə, “8.1-ci” sözləri “16.2-ci” sözləri ilə əvəz edilsin;

25.7. 46.2-ci bənddə “Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi” sözləri “Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi” sözləri ilə, “40-cı hissəsində” sözləri “16.2-ci bəndində” sözləri ilə əvəz edilsin;

25.8. 49.1-ci və 63-1.2-ci bəndlərdə “İqtisadiyyat Nazirliyi” sözləri “Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi” sözləri ilə, “8.1-ci” sözləri “16.2-ci” sözləri ilə əvəz edilsin.

26. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1238 (Cild I); 2024, № 3, maddə 262, № 5 (I kitab), maddə 515, № 7, maddə 809, № 8, maddələr 943, 948, № 11, maddə 1199, № 12 (II kitab), maddə 1364; 2025, № 3, maddə 224, № 4 (I kitab), maddə 330, № 5, maddə 459, № 6, maddə 541, № 8, maddə 771) ilə təsdiq edilmiş “Kiçik və orta biznes evlərində mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən xidmətlərin siyahısı”nda aşağıdakı dəyişikliklər edilsin:

26.1. 4-cü hissənin “Göstərdiyi xidmətlər” sütununun 2-ci bəndinin altıncı abzası və 13-cü bəndi ləğv edilsin;

26.2. 10-cu hissə ləğv edilsin;

26.3. aşağıdakı məzmunda 20-1-ci hissə əlavə edilsin:

| | | |
|---|---|---|
| 20-1 | Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi | 1. standart nümunələrin və ya ölçmə vasitələrinin tipinin təsdiq edilməsi haqqında sertifikat, malın (xidmətin, işin), prosesin, idarəetmə sisteminin və işçi heyətin müvafiq standartla, texniki reqlamentlə və digər normativ hüquqi aktla müəyyən olunmuş tələblərə uyğunluğunu təsdiq edən uyğunluq sertifikatı və uyğunluğun təsdiqi barədə təsdiqedici sənədlərin verilməsi<br>2. qiymətli metallardan hazırlanmış zərgərlik və digər məişət məmulatlarına dövlət əyar damğasının vurulması<br>3. malın mənşə ölkəsini təsdiq edən sertifikatın verilməsi |

27. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 dekabr tarixli 413 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (I kitab), maddə 2570 (Cild I); 2024, № 8, maddə 942) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin vəsaitindən istifadə Qaydası”nın 6.1.2-ci yarımbəndində “Respublikası İqtisadiyyat Nazirliyinin” sözləri “Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin” sözləri ilə əvəz edilsin.

28. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 aprel tarixli 622 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 622 (Cild I); 2024, № 3, maddə 262, № 4, maddə 397, № 5 (I kitab), maddə 526, № 6 (I kitab), maddə 657, № 8, maddə 948, № 11, maddə 1197; 2025, № 3, maddələr 224, 232, № 5, maddə 444, № 8, maddə 658) ilə təsdiq edilmiş Əlavə 2 – “Xüsusi dövlət rabitəsi ilə təmin olunan vəzifəli şəxslərin Siyahısı”na aşağıdakı məzmunda 17-1-ci hissə əlavə edilsin:

“17-1. Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi üzrə:

17-1.1. Aparat rəhbərinin müavini;

17-1.2. Aparatda şöbə müdirləri.”.

29. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 iyul tarixli 1119 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 899 (Cild I); 2024, № 4, maddə 373, № 6 (I kitab), maddələr 654, 675, № 8, maddə 948; 2025, № 1, maddə 29, № 3, maddə 224, № 7, maddə 662) ilə təsdiq edilmiş “Dövlət büdcəsindən ayrılmış vəsait hesabına işlərin və xidmətlərin göstərilməsinə görə əlavə dəyər vergisindən azad olunan publik hüquqi şəxslərin siyahısı”nın 21-7-ci hissəsində “İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin” sözləri “Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin” sözləri ilə əvəz edilsin.

30. “Dövlət qulluqçularının əməkhaqlarının artırılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 1 mart tarixli 1610 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 3, maddə 198 (Cild I) 1.2–1.4-cü bəndlərində “və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin aparatlarında” sözləri “Aparatında” sözü ilə əvəz edilsin.

31. “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 988-VIQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 avqust tarixli 2307 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 8 (I kitab), maddə 1174 (Cild I); 2025, № 7, maddə 652) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

31.1. 1.5-ci bənddə “Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi” sözləri “Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi” sözləri ilə əvəz edilsin;

31.2. 1.8-ci bənddə “İqtisadiyyat Nazirliyi” sözləri “Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi” sözləri ilə əvəz edilsin.

32. “Kənd təsərrüfatında dövlət dəstəyinin və aqrar sahədə lizinq fəaliyyətinin təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 dekabr tarixli 413 nömrəli Fərmanında dəyişiklik edilməsi və Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin vəsaitindən istifadə ilə bağlı bəzi məsələlərin tənzimlənməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 30 noyabr tarixli 2367 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 11, maddə 1521 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

32.1. 2.1.1-ci yarımbənddə “Respublikası İqtisadiyyat Nazirliyinin” sözləri “Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin” sözləri ilə əvəz edilsin;

32.2. 3-cü hissədə “İqtisadiyyat Nazirliyi” sözləri “Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi” sözləri ilə əvəz edilsin.

33. “Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında” Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1051-VIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 23 yanvar tarixli 2451 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 1, maddə 27) aşağıdakı dəyişikliklər edilsin:

33.1. 1-ci hissə üzrə:

33.1.1. aşağıdakı məzmunda 1.1-1-ci bənd əlavə edilsin:

“1.1-1. həmin Məcəllənin 34.4-cü maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;”;

33.1.2. 1.4-cü bənd ləğv edilsin;

33.1.3. 1.5-ci bənddə “birinci halda” sözləri “hər üç halda” sözləri ilə, “Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi” sözləri “Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi” sözləri ilə əvəz edilsin;

33.2. 3-cü hissədə “İqtisadiyyat Nazirliyi” sözləri “Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi” sözləri ilə əvəz edilsin.

34. “Elektron Rəqabət İnformasiya Sisteminin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 9 iyul tarixli 133 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 7, maddə 792) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

34.1. 2.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

“2.2. ERİS-in sahibi və operatoru funksiyalarını Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi həyata keçirir;”;

34.2. 2.3-cü bənddə “İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin” sözləri “Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin” sözləri ilə əvəz edilsin.

35. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 9 aprel tarixli 2837 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 4, maddə 391 (Cild I) ilə təsdiq edilmiş “Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı”nın “6. Dövlət Proqramının icrasına dair Tədbirlər Planı” hissəsinin 6.3.7-ci yarımbəndinin “İcraçılar” sütununda “İqtisadiyyat Nazirliyi” sözləri “Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi” sözləri ilə əvəz edilsin.

36. “2013-cü il noyabrın 21-də Bakı şəhərində imzalanmış “Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında standartlaşdırma, metrologiya və sertifikatlaşdırma sahəsində əməkdaşlıq haqqında Sazişə dəyişikliklər edilməsi barədə Protokol”un təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 27 dekabr tarixli 202 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 12, maddə 1619 (Cild I) 2-ci hissəsində “İqtisadiyyat Nazirliyi” sözləri “Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi” sözləri ilə əvəz edilsin.

37. “Kənd təsərrüfatı və qida məhsulları bazarının fəaliyyətinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 16 yanvar tarixli 221 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 1, maddə 34 (Cild I); 2024, № 4, maddə 393) aşağıdakı dəyişikliklər edilsin:

37.1. 2.4-cü bəndin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz olunsun və 2.5-ci bənd ləğv edilsin;

37.2. aşağıdakı məzmunda 2-1-ci hissə əlavə edilsin:

“2-1. Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi kənd təsərrüfatı və qida məhsulları bazarında, tədarük prosesində haqsız rəqabət meyillərinin qarşısının alınması ilə bağlı tədbirləri və antiinhisar nəzarətini gücləndirsin, nəticəsi barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.”.

38. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 fevral tarixli 3660 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 2, maddə 263 (Cild I); 2024, № 12 (II kitab), maddə 1364) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında çayçılığın inkişafına dair 2018–2027-ci illər üçün Dövlət Proqramı”nın 8.1.3-cü yarımbəndinin “İcraçılar” sütununa “İqtisadiyyat” sözündən əvvəl “Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi,” sözləri əlavə edilsin.

39. “İstehlak bazarına nəzarət, standartlaşdırma, metrologiya və əqli mülkiyyət hüquqları obyektlərinin mühafizəsi sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 aprel tarixli 5 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 4, maddə 754 (Cild I) 5-ci hissəsində “İqtisadiyyat Nazirliyi” sözləri “Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi” sözləri ilə əvəz edilsin.

40. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 3 may tarixli 38 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 5, maddə 977 (Cild I); 2024, № 12 (II kitab), maddə 1364) ilə təsdiq edilmiş “2018–2025-ci illərdə Azərbaycan Respublikasında şərabçılığın inkişafına dair Dövlət Proqramı”nın 7-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

40.1. 1.5-ci bəndin “İcraçılar” sütununa ikinci halda “Nazirliyi” sözündən sonra “, Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi” sözləri əlavə edilsin;

40.2. 2.5-ci (ikinci halda), 4.3-cü (ikinci halda) və 5.4-cü (birinci halda) bəndlərin “İcraçılar” sütununa “Nazirliyi” sözündən sonra “, Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi” sözləri əlavə edilsin.

41. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 27 dekabr tarixli 852 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (II kitab), maddə 2701 (Cild I) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019–2023-cü illər üçün Dövlət Proqramı”nda aşağıdakı dəyişikliklər edilsin:

41.1. 7.2.4.3-cü abzasın “Əsas icraçı qurum” sütununda “İqtisadiyyat Nazirliyi” sözləri “Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi” sözləri ilə əvəz edilsin;

41.2. 7.2.4.4-cü abzasın “Digər icraçı qurumlar” sütununa ikinci halda “Nazirliyi” sözündən sonra “, Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi” sözləri əlavə edilsin.

42. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 aprel tarixli 1143 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 730 (Cild I); 2024, № 6 (I kitab), maddə 654) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2019–2025-ci illər üçün Dövlət Proqramı”nın “10. Tədbirlər Planı” hissəsində aşağıdakı dəyişikliklər edilsin:

42.1. 10.6.4-cü yarımbəndin “Digər icraçılar” sütununda “İqtisadiyyat Nazirliyi” sözləri “Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi” sözləri ilə əvəz edilsin;

42.2. 10.9.4-cü yarımbəndin “Digər icraçılar” sütununa ikinci halda “Nazirliyi” sözündən sonra “, Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi” sözləri əlavə edilsin.

43. “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli 2303 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 11, maddə 1372 (Cild I); 2024, № 12 (II kitab), maddə 1386) 1-ci hissəsinə “Zaur Mikayılov – Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri” abzasından sonra aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

“Elnur Bağırov – Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin sədri”.

44. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 4 aprel tarixli 3199 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 4, maddə 339 (Cild I); 2024, № 3, maddə 257, № 5 (I kitab), maddə 529, № 6 (I kitab), maddə 654, № 8, maddə 759) ilə təsdiq edilmiş “Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022–2026-cı illər üçün Milli Fəaliyyət Planı”nın “Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022─2026-cı illər üçün Milli Fəaliyyət Planı” üzrə Tədbirlər Planı”nın 2.10-cu, 2.11-ci və 2.13-cü bəndlərinin “Digər icraçılar” sütununda “İqtisadiyyat Nazirliyi” sözləri “Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi” sözləri ilə əvəz edilsin.

45. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 7, maddə 790 (Cild I); 2024, № 4, maddə 393, № 5 (I kitab), maddə 529, № 6 (I kitab), maddələr 647, 654, № 12 (II kitab), maddə 1359; 2025, № 8, maddə 749) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın 7-ci hissəsinin “2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın Tədbirlər Planı”nda aşağıdakı dəyişikliklər edilsin:

45.1. 1.1.21-ci yarımbəndin 1-ci abzasının “Əsas icraçı orqan (qurum)” sütununda “İN” akronimi “AİBNDA” akronimi ilə əvəz edilsin;

45.2. 5.2.1-ci yarımbəndin 4-cü abzasının və 5.2.5-ci yarımbəndin 1-ci abzasının “Digər icraçılar” sütununa “İN” akronimindən sonra “, AİBNDA” akronimi əlavə edilsin;

45.3. “Akronimlər və ixtisarlar” hissəsinə “VXSİDA Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi” abzasından sonra aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

“AİBNDA Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi”.

46. “Milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılmasına dair 2023–2025-ci illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 yanvar tarixli 3721 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 1, maddə 114 (Cild I); 2024, № 4, maddə 393; 2025, № 8, maddə 759) aşağıdakı dəyişikliklər edilsin:

46.1. 2-ci hissədə “İqtisadiyyat Nazirliyi” sözləri “Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi” sözləri ilə əvəz edilsin;

46.2. 3-cü hissədə “Respublikası İqtisadiyyat Nazirliyinin” sözləri “Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin” sözləri ilə əvəz edilsin;

46.3. həmin Sərəncamla təsdiq edilmiş “Milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılmasına dair 2023–2025-ci illər üçün Dövlət Proqramı”nın “8. Dövlət Proqramına dair Tədbirlər Planı” hissəsi üzrə:

46.3.1. 8.1.3-cü yarımbənd üzrə:

46.3.1.1. “Əsas icraçı orqan (qurum)” sütununda “İN” akronimi “AİBNDA” akronimi ilə əvəz edilsin;

46.3.1.2. “Digər icraçılar” sütununa “DŞAK” akronimindən sonra “İN” akronimi əlavə edilsin;

46.3.2. 8.2.1-ci və 8.2.3-cü yarımbəndlərin “Əsas icraçı orqan (qurum)” sütununda “İN” akronimi “AİBNDA” akronimi ilə əvəz edilsin;

46.3.3. 8.2.4-cü yarımbənd üzrə:

46.3.3.1. “Əsas icraçı orqan (qurum)” sütununda “İN” akronimi “AİBNDA” akronimi ilə əvəz edilsin;

46.3.3.2. “Digər icraçılar” sütununa “AQTA” akronimindən sonra “İN” akronimi əlavə edilsin;

46.3.4. 8.3.2-ci yarımbənd üzrə:

46.3.4.1. “Əsas icraçı orqan (qurum)” sütununda “İN” akronimi “AİBNDA” akronimi ilə əvəz edilsin;

46.3.4.2. “Digər icraçılar” sütununa “DŞAK” akronimindən sonra “İN” akronimi əlavə edilsin;

46.3.5. 8.4.1-ci yarımbəndin “Əsas icraçı orqan (qurum)” sütununda “İN” akronimi “AİBNDA” akronimi ilə əvəz edilsin;

46.3.6. 8.4.2-ci yarımbənd üzrə:

46.3.6.1. “Əsas icraçı orqan (qurum)” sütununda “İN” akronimi “AİBNDA” akronimi ilə əvəz edilsin;

46.3.6.2. “Digər icraçılar” sütununa “RİNN” akronimindən sonra “İN” akronimi əlavə edilsin;

46.3.7. 8.4.4-cü yarımbənd üzrə:

46.3.7.1. “Əsas icraçı orqan (qurum)” sütununda “İN” akronimi “AİBNDA” akronimi ilə əvəz edilsin;

46.3.7.2. “Digər icraçılar” sütununa “RİNN” akronimindən sonra “İN” akronimi əlavə edilsin;

46.3.7.3. “ilkin nəticələr” və “aralıq nəticələr” sütunlarında “İqtisadiyyat Nazirliyi” sözləri “Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi” sözləri ilə əvəz edilsin;

46.3.8. 8.4.5-ci yarımbənd üzrə:

46.3.8.1. “Əsas icraçı orqan (qurum)” sütununda “İN” akronimi “AİBNDA” akronimi ilə əvəz edilsin;

46.3.8.2. “Digər icraçılar” sütununa “DGK” akronimindən sonra “İN” akronimi əlavə edilsin;

46.3.8.3. “ilkin nəticələr” sütununda “Respublikası İqtisadiyyat Nazirliyinin” sözləri “Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin” sözləri ilə əvəz edilsin;

46.3.9. 8.5.1-ci, 8.6.2-ci və 8.6.4-cü yarımbəndlərin “Əsas icraçı orqan (qurum)” sütununda “İN” akronimi “AİBNDA” akronimi ilə əvəz edilsin;

46.3.10. “Akronimlər” hissəsinə “AQTA – Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi” abzasından sonra aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

“AİBNDA – Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi”.

47. “Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023–2027-ci illər üçün Strategiyası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 avqust tarixli 4060 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 8 (I kitab), maddə 1219 (Cild I) “8. Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023–2027-ci illər üçün Strategiyası”nın həyata keçirilməsi ilə bağlı Tədbirlər Planı” hissəsində aşağıdakı dəyişikliklər edilsin:

47.1. 8.7.2-ci yarımbəndin “Digər icraçılar” sütununa “İN” akronimindən sonra “, AİBNDA” akronimi əlavə edilsin;

47.2. “Akronimlər” hissəsinə “VXSİDA – Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi” abzasından sonra aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

“AİBNDA – Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi”.

48. “Dövlət satınalmalarının vahid internet portalı haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 16 aprel tarixli 647 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 646 (Cild I); 2024, № 2, maddə 148, № 6 (I kitab), maddə 654) ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 6 noyabr 2025-ci il**

# “Invest in Azerbaijan” informasiya sisteminin yaradılması və bununla əlaqədar bir sıra məsələlərin tənzimlənməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, investisiya fəaliyyətinin həyata keçirilməsi ilə bağlı investorlara göstərilən xidmətlərin rəqəmsallaşdırılmasını və “bir pəncərə” prinsipi əsasında təqdim olunmasını təmin etmək məqsədilə **qərara alıram:**

**1** “Invest in Azerbaijan” informasiya sistemi yaradılsın.

**2** “Invest in Azerbaijan” informasiya sistemi haqqında Əsasnamə” təsdiq edilsin *(əlavə olunur)*.

**3** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**4** Müəyyən edilsin ki:

4.1. “Invest in Azerbaijan” informasiya sistemi (bundan sonra – Sistem) investorlar tərəfindən elektron qaydada müraciətlərin təqdim edilməsini, habelə Azərbaycan Respublikasında investisiya fəaliyyətinin həyata keçirilməsi üçün zəruri olan bütün məlumatların, o cümlədən investisiya mühiti, investisiya layihələri, mövcud tələblər, imtiyaz və güzəştlər barədə məlumatların əldə olunmasını təmin edir;

4.2. Sistemin sahibi funksiyalarını Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, operatoru funksiyalarını isə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi – AZPROMO həyata keçirir.

**5** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

5.1. Sistemin formalaşdırılması, aparılması, fəaliyyətinin təşkili və inkişaf etdirilməsi üçün zəruri tədbirlər görsün;

5.2. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birlikdə Sistemin Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 iyun tarixli 718 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Hökumət buludu” (G-cloud) Konsepsiyası”na uyğun olaraq “Hökumət buludu”nda yerləşdirilməsi, aparılması və təkmilləşdirilməsi, habelə Sistemin “Dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestri”nə və fərdi məlumatların informasiya sistemlərinin dövlət reyestrinə daxil edilməsi üçün tədbirlər görsün.

**6.** Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, bu Fərmanın 2-ci hissəsi nəzərə alınmaqla, “Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları”nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanının tələblərindən irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etsinlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 6 noyabr 2025-ci il**

***Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 6 noyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir***

# “Invest in Azerbaijan” informasiya sistemi haqqında Əsasnamə

### 1. Ümumi müddəalar

1.1. Bu Əsasnamə “Invest in Azerbaijan” informasiya sisteminin (bundan sonra – Sistem) fəaliyyətinin hüquqi, təşkilati və texnoloji əsaslarını müəyyən edir.

1.2. Sistem rəqəmsal texnologiyalardan, o cümlədən informasiya-kommunikasiya texnologiyalarından istifadə yolu ilə investisiya fəaliyyətinin həyata keçirilməsi ilə bağlı investorlara göstərilən xidmətlərin rəqəmsallaşdırılmasını və “bir pəncərə” prinsipi əsasında göstərilməsini, digər fiziki və hüquqi şəxslərlə əlaqələrin operativliyini, səmərəliliyini, şəffaflığını, eləcə də Sistemdə saxlanılan məlumatların sistemliliyini və əlçatanlığını təmin edir.

1.3. Sistemin formalaşdırılmasının məqsədi investorlar tərəfindən elektron qaydada müraciətlərin təqdim edilməsinin, habelə Azərbaycan Respublikasında investisiya fəaliyyətinin həyata keçirilməsi üçün zəruri olan bütün məlumatların, o cümlədən investisiya mühiti, investisiya layihələri, mövcud tələblər, imtiyaz və güzəştlər barədə məlumatların əldə olunmasının təmin edilməsindən ibarətdir.

1.4. Sistemdə yaradılan, əldə edilən, toplanılan informasiya və elektron sənədlər Azərbaycan Respublikasının mülkiyyətidir.

1.5. Fərdi məlumatların Sistemdə toplanılmasının və işlənilməsinin məqsədi bu Əsasnamənin 1.2-ci bəndində qeyd olunanların təmin edilməsidir. Fərdi məlumatların Sistemdə toplanılması, işlənilməsi və mühafizəsi “Fərdi məlumatlar haqqında” Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarına uyğun olaraq həyata keçirilir.

1.6. Sistemin fəaliyyətinin təşkili, idarə olunması və təkmilləşdirilməsi ilə bağlı xərclər Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi – AZPROMO-nun (bundan sonra – AZPROMO) vəsaiti hesabına maliyyələşdirilir.

1.7. Sistem Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları”nın (bundan sonra – Qaydalar) 2.1-ci bəndində qeyd edilən prinsiplər əsasında formalaşdırılır və fəaliyyət göstərir.

1.8. Bu Əsasnamədə istifadə olunan anlayışlar “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanununda, Qaydalarda, həmçinin Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarında müəyyən edilmiş mənaları ifadə edir.

### 2. Sistemin texniki-texnoloji infrastrukturu

2.1. Sistemin texniki-texnoloji infrastrukturu aşağıdakı əsas komponentlərdən ibarətdir:

2.1.1. proqram-texniki vasitələr və proqram təminatı;

2.1.2. telekommunikasiya qurğuları və kanalları;

2.1.3. informasiya ehtiyatı və onu idarəetmə paneli;

2.1.4. ehtiyat nüsxələr;

2.1.5. istismaraqədərki formalaşma mühitləri.

2.2. Proqram-texniki vasitələr və proqram təminatı vətəndaş və biznesyönümlü həllər əsasında “Mobil Prioritetli Tərtibat” prinsipi ilə qurularaq, Sistemin funksiyalarının həyata keçirilməsini, fəaliyyətinin etibarlılığını və təhlükəsizliyini, habelə Sistemdən istifadəni və məlumat mübadiləsini təmin edir.

2.3. Sistem fəaliyyətinin etibarlılığını və təhlükəsizliyini, operativ və keyfiyyətli xidmətlər göstərilməsini, habelə məlumat mübadiləsini təmin edən dayanıqlı, mühafizəli, yüksəkötürücülü fiber-optik əsas və digər ehtiyat telekommunikasiya qurğularına və kanallarına malikdir.

2.4. Qurulma topologiyasına uyğun olaraq, Sistemin telekommunikasiya qurğuları və kanalları iki səviyyədə təşkil edilir:

2.4.1. Sistemin fəaliyyətinin təşkili üçün qurumdaxili telekommunikasiya qurğuları və kanalları – Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin struktur bölmələri tərəfindən;

2.4.2. Sistemin digər dövlət informasiya ehtiyatları və sistemləri ilə qarşılıqlı fəaliyyətinin təşkili üçün istifadə edilən telekommunikasiya qurğuları və kanalları – Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti (bundan sonra – XRİTDX) tərəfindən.

2.5. Sistemdə formalaşdırılan, Sistemə daxil edilən və ötürülən məlumatlar Sistemin informasiya ehtiyatında saxlanılır.

2.6. İdarəetmə paneli Sistemin informasiya ehtiyatının formalaşdırılmasını və idarə edilməsini, o cümlədən həmin informasiya ehtiyatından istifadəni təmin edir.

2.7. Fəaliyyətinin dayanıqlılığının və təhlükəsizliyinin təmin edilməsi məqsədilə Sistem, o cümlədən Sistemdə toplanılan məlumatların ehtiyat nüsxələri “Hökumət buludu”nda saxlanılır.

2.8. Sistemdə aparılan dəyişikliklərin yoxlanılması istismaraqədərki formalaşma mühitlərində həyata keçirilir.

### 3. Sistemin altsistemləri

3.1. Sistem aşağıdakı altsistemlərdən ibarətdir:

3.1.1. “İnvestorun bələdçisi” altsistemi;

3.1.2. “Müraciətlərlə iş” altsistemi.

3.2. “İnvestorun bələdçisi” altsistemi vasitəsilə Azərbaycan Respublikasında investisiya fəaliyyətinin həyata keçirilməsi üçün zəruri olan bütün məlumatların (vergi, gömrük, miqrasiya, əmək qanunvericiliyində, lisenziya və icazələr, həmçinin digər sahələrdə nəzərdə tutulan tələblər, habelə tətbiq edilən vergi və rüsumlar, imtiyaz və güzəştlər barədə), investisiya layihələrinin həyata keçirilə biləcəyi prioritet sahələr, davam edən investisiya layihələri, həmçinin Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və AZPROMO tərəfindən göstərilən xidmətlər barədə məlumatların təqdim edilməsi təmin olunur.

3.3. “Müraciətlərlə iş” altsistemi vasitəsilə istifadəçilərin Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə və AZPROMO-ya müraciətlərinə dair məlumatların “İnzibati icraat haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq toplanılması, cavablandırılması və sistemləşdirilməsi həyata keçirilir.

### 4. Sistemə daxil edilən və ötürülən məlumatlar

4.1. Sistemə bu Əsasnamənin 3.2-ci bəndində nəzərdə tutulmuş məlumatlar daxil edilir.

4.2. Sistemə “Elektron Hökumət İnformasiya Sistemi” (bundan sonra – EHİS) vasitəsilə ötürülən məlumatlar aşağıdakılardır:

4.2.1. istifadəçilərə dair aşağıdakı məlumatlar:

4.2.1.1. fiziki şəxs olduqda – soyadı, adı, atasının adı, qeydiyyat ünvanı, fərdi identifikasiya nömrəsi və əlaqə vasitələri;

4.2.1.2. sahibkarlıq fəaliyyətini hüquqi şəxs yaratmadan həyata keçirən fiziki şəxs olduqda – soyadı, adı, atasının adı, qeydiyyat ünvanı, fərdi identifikasiya nömrəsi, VÖEN-i, fəaliyyət növlərinin adları və kodları (əsas və əlavə), vergi ödəyicisi kimi uçota alınması haqqında digər məlumatlar və əlaqə vasitələri;

4.2.1.3. hüquqi şəxs olduqda – tam adı, VÖEN-i, fəaliyyət növlərinin adları və kodları (əsas və əlavə), vergi ödəyicisi kimi uçota alınması haqqında digər məlumatlar və əlaqə vasitələri;

4.2.1.4. əcnəbi və ya vətəndaşlığı olmayan şəxs olduqda – bu Əsasnamənin 4.2.1.1-ci və 4.2.1.2-ci abzaslarında nəzərdə tutulanlardan əlavə, müvəqqəti və ya daimi yaşama icazələri barədə məlumatlar.

4.3. Sistemin digər dövlət informasiya ehtiyatları və sistemləri ilə inteqrasiyası, habelə məlumat mübadiləsinin təşkili Qaydalara uyğun olaraq həyata keçirilir.

4.4. Sistemlə digər dövlət informasiya ehtiyatları və sistemləri arasında məlumat mübadiləsini real vaxt rejimində həyata keçirmək mümkün olmadıqda, sənədlər (məlumatlar) Sistemə aidiyyəti qurumlar tərəfindən təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təsdiq edilməklə onların elektron kabinetləri vasitəsilə daxil edilir.

4.5. Sistemdə formalaşdırılan sənədlər “Elektron imza və elektron sənəd haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş tələblərə əsasən tərtib olunur və rəsmiləşdirilir.

### 5. Sistemdən istifadə qaydası

5.1. Dövlət informasiya ehtiyatlarına və sistemlərinə malik olan qurumların Sistemdən istifadəsi onların informasiya ehtiyatları və sistemləri Qaydaların 4-cü hissəsinə və “Fərdi məlumatlar haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq EHİS-ə inteqrasiya edildikdən sonra məlumat mübadiləsinin həyata keçirilməsi yolu ilə təmin edilir.

5.2. Dövlət informasiya ehtiyatlarına və sistemlərinə malik olmayan qurumların və digər hüquqi şəxslərin Sistemdən istifadəsi onların elektron kabinetləri vasitəsilə təmin edilir. Bu halda qurumların və digər hüquqi şəxslərin rəhbər şəxsi tərəfindən Sistemdə qeydiyyatdan keçirilən və müvafiq hüquqlar verilən məsul şəxslər EHİS-in “Vahid Giriş” altsistemi vasitəsilə identikləşdirildikdən sonra avtomatik qaydada yaradılan elektron kabinetlərə daxil olaraq Sistemdən istifadə edirlər.

5.3. Fiziki şəxslər EHİS-in “Vahid Giriş” altsistemi vasitəsilə Sistemdə identikləşdirildikdən sonra avtomatik qaydada yaradılan elektron kabinetlərinə daxil olaraq Sistemdən istifadə edirlər.

5.4. Sistem vasitəsilə göstərilən elektron xidmətlərdən istifadə Sistemin rəsmi internet informasiya ehtiyatı (EHİS-ə keçid verilməklə) və EHİS vasitəsilə həyata keçirilir.

5.5. Sistem vasitəsilə təqdim edilən xidmət kanalları (portal, mobil tətbiq, virtual köməkçi və s.) istifadəçilərin Sistemin fəaliyyətində iştirakını və istifadəsini, habelə elektron xidmətlərdən yararlanmasını təmin edir. Elektron xidmətlər istifadəçi təcrübəsi və istifadəçi yönümlülüyü nəzərə alınmaqla, xidmət kanalları vasitəsilə təqdim edilir.

### 6. Sahibin vəzifələri və hüquqları

6.1. Sistemin fəaliyyətini təmin etmək üçün sahibin vəzifələri aşağıdakılardır:

6.1.1. Sistemin idarə olunmasını təşkil etmək və funksional imkanlarının artırılması istiqamətində tədbirlər görmək;

6.1.2. Sistemin dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestrinə, o cümlədən fərdi məlumatların informasiya sistemlərinin dövlət reyestrinə daxil edilməsi və dövlət qeydiyyatından keçirilməsi üçün tədbirlər görmək;

6.1.3. fərdi məlumatların Sistemdə toplanılmasının, işlənilməsinin və mühafizəsinin bu sahədə Azərbaycan Respublikasının normativ hüquqi aktlarının tələblərinə uyğunluğunun təmin edilməsi üçün tədbirlər görmək;

6.1.4. Sistemin təşkili və fəaliyyəti üzrə qiymətləndirmə aparmaq üçün Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə (bundan sonra – Nazirlik) zəruri şərait yaratmaq, o cümlədən normativ hüquqi aktların tələblərinə uyğun olmasına nəzarət etmək məqsədilə Sistemə çıxış, habelə onun texnoloji infrastrukturu ilə tanışlıq (baxış) və test etmə imkanlarını təmin etmək;

6.1.5. Sistemin informasiya təhlükəsizliyini XRİTDX və operator ilə, EHİS-in və “Hökumət buludu”nun informasiya təhlükəsizliyinə münasibətdə isə habelə Nazirliklə birlikdə təmin etmək;

6.1.6. Sistemin informasiya təhlükəsizliyi məqsədilə mövcud və yarana biləcək təhlükələr və ya baş vermiş təhlükəsizlik insidentləri aşkar edildikdə, bu barədə məlumatları dərhal XRİTDX-yə, EHİS-in və “Hökumət buludu”nun informasiya təhlükəsizliyinə münasibətdə isə həmçinin Nazirliyə təqdim etmək, habelə XRİTDX və Nazirlik tərəfindən bu barədə sorğular verildikdə həmin sorğuları dərhal, bu mümkün olmadıqda isə 24 saatdan gec olmayaraq cavablandırmaq;

6.1.7. Sistemə daxil edilmiş və (və ya) ötürülmüş məlumatların mühafizəsinin, habelə daxil edilmiş məlumatların aktuallığının, etibarlılığının, təhrifolunmazlığının, əlçatanlığının, tamlığının və konfidensiallığının təmin edilməsi ilə bağlı tədbirlər görmək;

6.1.8. Sistemə qarşı müdaxilə cəhdləri aşkar etdikdə, bu barədə məlumatları dərhal aidiyyəti hüquq mühafizə orqanına təqdim etmək;

6.1.9. Sistemin, o cümlədən onun ehtiyat nüsxələrinin “Hökumət buludu”nda saxlanılmasının və aparılmasının təmin edilməsi üçün Nazirlik və operator ilə birlikdə tədbirlər görmək;

6.1.10. elektron xidmətlərin “bir pəncərə” prinsipi əsasında EHİS vasitəsilə göstərilməsini təmin etmək;

6.1.11. EHİS-də yaradılan elektron imkanlar vasitəsilə istifadəçilərin tələbi əsasında onlar barəsində məlumatlarda aparılan düzəlişləri təsdiq və ya rədd etmək;

6.1.12. Sistemə çıxışı olan, habelə Sistemin aparılmasında iştirak edən əməkdaşlarını təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təmin etmək;

6.1.13. aidiyyəti qurumların Sistemin fəaliyyəti ilə bağlı sorğularını vaxtında və hərtərəfli cavablandırmaq, habelə qeyd edilən sorğular əsasında zəruri məlumatları (sənədləri) onlara təqdim etmək;

6.1.14. dövlət xidmətləri göstərilməsi üçün tələb edilən sənədlər barədə informasiya digər dövlət informasiya ehtiyatlarında və sistemlərində olduqda, həmin informasiyanın ilkin mənbədən əldə edilməsi üçün operator və Nazirlik ilə birlikdə tədbirlər görmək;

6.1.15. normativ hüquqi aktlarla müəyyən edilmiş hüquqlarının həyata keçirilməsi və vəzifələrinin icrası zamanı əldə etdiyi zəruri məlumatları (sənədləri) Sistemə daxil etmək;

6.1.16. Sistemdən sərbəst və maneəsiz istifadənin, habelə onun dayanıqlı və fasiləsiz fəaliyyətinin təmin olunmasına nəzarət etmək;

6.1.17. Sistemdə dəyişikliklər edilməsi üçün operatora göstərişlər vermək və onların həyata keçirilməsinə nəzarət etmək;

6.1.18. Sistemin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi işlərinin layihələrə, texniki reqlamentlərə, beynəlxalq standartlara və normativ hüquqi aktlarla müəyyən edilmiş tələblərə uyğun formada aparılmasına nəzarət etmək;

6.1.19. normativ hüquqi aktlarla müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

6.2. Sistemin fəaliyyətini təmin etmək üçün sahibin aşağıdakı hüquqları vardır:

6.2.1. Sistemin formalaşdırılması, istifadəsi və inkişaf etdirilməsi ilə bağlı beynəlxalq təcrübəni və standartları öyrənmək, bu sahədə beynəlxalq təşkilatlarla, habelə Azərbaycan Respublikasının və xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək;

6.2.2. Sistemdən istifadə və onun funksiyaları ilə bağlı maarifləndirmə və məlumatlandırma işləri aparmaq;

6.2.3. Sistemin fəaliyyətinin təmin olunması ilə bağlı zəruri məlumatları (sənədləri) əldə etmək üçün aidiyyəti qurumlara sorğu vermək və həmin qurumlardan belə məlumatları (sənədləri) almaq;

6.2.4. normativ hüquqi aktlarla müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

### 7. Operatorun vəzifələri və hüquqları

7.1. Operatorun vəzifələri aşağıdakılardır:

7.1.1. Sistemin informasiya təhlükəsizliyini XRİTDX və sahiblə, EHİS-in və “Hökumət buludu”nun informasiya təhlükəsizliyinə münasibətdə isə habelə Nazirliklə birlikdə təmin etmək;

7.1.2. Sistemin informasiya təhlükəsizliyi məqsədilə mövcud və yarana biləcək təhlükələr və ya baş vermiş təhlükəsizlik insidentləri aşkar edildikdə, bu barədə məlumatları dərhal XRİTDX-yə, EHİS-in və “Hökumət buludu”nun informasiya təhlükəsizliyinə münasibətdə isə həmçinin Nazirliyə təqdim etmək, habelə XRİTDX və Nazirlik tərəfindən bu barədə sorğular verildikdə həmin sorğuları dərhal, bu mümkün olmadıqda isə 24 saatdan gec olmayaraq cavablandırmaq;

7.1.3. Sistemə qarşı müdaxilə cəhdləri aşkar etdikdə, bu barədə məlumatları dərhal aidiyyəti hüquq mühafizə orqanına təqdim etmək;

7.1.4. Sistemin, o cümlədən onun ehtiyat nüsxələrinin “Hökumət buludu”nda saxlanılmasının və aparılmasının təmin edilməsi üçün Nazirlik və sahiblə birlikdə tədbirlər görmək;

7.1.5. Sistemin təhlükəsizliyi pozulduqda, fəaliyyətində nasazlıq yarandıqda, əsas avadanlıqlarında hər hansı qəza (xəta) baş verdiyi halda dərhal aidiyyəti dövlət orqanlarını və sahibi məlumatlandırmaq, nasazlığın və qəzanın (xətanın) qeydiyyatını aparmaq, dərhal aradan qaldırılması üçün sahibin verdiyi göstərişlərə uyğun təcili tədbirlər görmək, bu mümkün olmadıqda isə Sistemin “Hökumət buludu”nun ehtiyat Data Mərkəzində fəaliyyətini davam etdirməsi üçün Nazirliklə birlikdə zəruri tədbirlər görmək;

7.1.6. Sistemin fəaliyyətinin idarə olunması, təkmilləşdirilməsi və onun funksional imkanlarının artırılması istiqamətində sahiblə razılaşdırmaqla texniki tədbirlər görmək və bu barədə Sistemin fəaliyyətində iştirak edən aidiyyəti dövlət qurumlarını məlumatlandırmaq;

7.1.7. Sistemdən sərbəst və maneəsiz istifadəni, onun dayanıqlı və fasiləsiz fəaliyyətini təmin etmək məqsədilə Sistemin proqram kompleksinə nəzarəti həyata keçirmək və mütəmadi texniki baxışı təşkil etmək;

7.1.8. normativ hüquqi aktlarla müəyyən edilmiş hüquqlarının həyata keçirilməsi və vəzifələrinin icrası zamanı əldə etdiyi zəruri məlumatları (sənədləri) Sistemə daxil etmək;

7.1.9. Sistemi EHİS-ə inteqrasiya etmək, digər dövlət informasiya ehtiyatı və sistemi ilə məlumat mübadiləsini EHİS vasitəsilə həyata keçirmək;

7.1.10. Sistemə çıxışı olan, habelə onun aparılmasında iştirak edən əməkdaşlarını təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təmin etmək;

7.1.11. Sistemin komponentlərinin və proqram təminatının təyinatı üzrə istismarını, texniki xidmətini, təmirini və yenilənməsini təmin etmək, təkmilləşdirilməsi üzrə profilaktik iş aparmaq;

7.1.12. Nazirliyin və sahibin bu Əsasnamə ilə və digər normativ hüquqi aktlarla müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq verdikləri təkliflər əsasında Sistemdə dəyişikliklər edilməsi üçün tədbirlər görmək;

7.1.13. sahibin göstərişi ilə normativ hüquqi aktlarda edilən dəyişikliklərə əsasən proqram təminatında uyğunlaşdırmalar aparılmasını, eləcə də yeni proqram modullarının yazılmasını və sınaqlar keçirilməsini təmin etmək;

7.1.14. Sistemin formalaşdırılması, aparılması, inteqrasiyası və ya arxivləşdirilməsi ilə bağlı sənədləri və texniki məlumatları sahibə və Nazirliyə təqdim etmək;

7.1.15. Sistemin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi işlərini layihələrə, texniki reqlamentlərə, beynəlxalq standartlara və normativ hüquqi aktlarla müəyyən edilmiş tələblərə uyğun formada aparmaq;

7.1.16. Sistemdən istifadəni, habelə onlar üzərindən göstərilən elektron xidmətlərin əlçatanlığını təmin etmək üçün formalaşdırılan mobil tətbiqi elektron marketlərdə yerləşdirmək (mobil tətbiq olduğu halda);

7.1.17. aidiyyəti qurumların Sistemin fəaliyyəti ilə bağlı sorğularını vaxtında və hərtərəfli cavablandırmaq, habelə qeyd edilən sorğular əsasında zəruri məlumatları (sənədləri) onlara təqdim etmək;

7.1.18. normativ hüquqi aktlarla müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

7.2. Operatorun aşağıdakı hüquqları vardır:

7.2.1. Sistemin fəaliyyətinin təmin olunması ilə bağlı zəruri məlumatları (sənədləri) əldə etmək üçün aidiyyəti qurumlara sorğu vermək və həmin qurumlardan belə məlumatları (sənədləri) almaq;

7.2.2. Sistemin təkmilləşdirilməsi istiqamətində rəy və təkliflər vermək;

7.2.3. Sistemlə məlumat mübadiləsində iştirak edəcək digər informasiya ehtiyatları və sistemləri müəyyən edilmiş texniki və funksional tələblərə cavab vermədiyi hallarda onlarda zəruri dəyişikliklər edilməsi məqsədilə məsələ qaldırmaq;

7.2.4. Sistemin parametrlərində sahiblə razılaşdırmaqla dəyişiklik etmək və bütün mümkün parametrlər üzrə hesabatlar əldə etmək;

7.2.5. iştirakçılar və istifadəçilər Sistemin təhlükəsiz və effektiv fəaliyyətinin pozulmasına səbəb olan əməllərə yol verdikdə, Sistemə giriş imkanını sahiblə razılaşdırmaqla ləğv etmək və ya məhdudlaşdırmaq;

7.2.6. normativ hüquqi aktlarla müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

### 8. İştirakçıların vəzifələri və hüquqları

8.1. İştirakçıların vəzifələri aşağıdakılardır:

8.1.1. Sistemə çıxışı olan, habelə onun aparılmasında iştirak edən əməkdaşlarını təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təmin etmək;

8.1.2. Sistemə daxil olmağa imkan verən elektron imza vasitələrinin konfidensiallığını (məxfiliyini) təmin etmək;

8.1.3. aktual, tam və etibarlı məlumatları (sənədləri) vaxtında və dolğun şəkildə Sistemə daxil etmək (ötürmək);

8.1.4. məlumatların mühafizəsini təmin edən avadanlıq və proqram vasitələrinə müdaxilə etməmək;

8.1.5. Sistemdən, habelə Sistemdə olan məlumatlardan (sənədlərdən) yalnız xidməti məqsədlər üçün istifadə etmək;

8.1.6. Sistemdə saxlanılan məlumatlarda (sənədlərdə) aşkar edilmiş səhvlərin aradan qaldırılması məqsədilə dərhal sahibə və ya operatora məlumat vermək;

8.1.7. sahibin və ya operatorun Sistemə daxil etdiyi və iştirakçının bilavasitə fəaliyyəti ilə bağlı olan yeni məlumatları izləmək;

8.1.8. Sistemin fəaliyyətinə zərər gətirəcək, habelə onun fəaliyyətinin ləngiməsinə və ya dayanmasına səbəb ola biləcək hərəkətlərə yol verməmək;

8.1.9. məlumat mübadiləsi zamanı aşkar olunmuş çatışmazlıqların və yaranan nasazlıqların aradan qaldırılması ilə bağlı tədbirlər görmək, bu barədə sahibə və Nazirliyə məlumat vermək;

8.1.10. öz təşəbbüsü, habelə Nazirliyin və sahibin bu Əsasnamə ilə və digər normativ hüquqi aktlarla müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq verdikləri təkliflər əsasında sahibi və ya operatoru olduğu dövlət informasiya ehtiyatlarında və sistemlərində zəruri dəyişikliklər etmək.

8.2. İştirakçıların aşağıdakı hüquqları vardır:

8.2.1. Sistemin fəaliyyəti ilə bağlı zəruri məlumatları (sənədləri) əldə etmək üçün sahibə və ya operatora sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

8.2.2. Sistemin təkmilləşdirilməsi istiqamətində sahibə və ya operatora təkliflər vermək.

### 9. İstifadəçilərin hüquqları

9.1. İstifadəçilərin Sistemdən istifadə ilə bağlı aşağıdakı hüquqları vardır:

9.1.1. Sistemdəki açıq məlumatlarla tanış olmaq və onları əldə etmək;

9.1.2. qanunla müəyyən edilmiş hallar istisna olmaqla, özləri barəsində məlumatlarla tanış olmaq, onları əldə etmək və ya dəqiqləşdirilməsi üçün sahibə və ya operatora müraciət etmək;

9.1.3. elektron kabinetləri üzərindən müraciətlərini göndərmək və elektron xidmətlərdən istifadə etmək;

9.1.4. sahiblə, operatorla, iştirakçılarla və digər istifadəçilərlə qarşılıqlı əlaqəni və sənəd (məlumat) mübadiləsini elektron qaydada həyata keçirmək;

9.1.5. Sistemin fəaliyyətinin təkmilləşdirilməsinə dair təkliflər vermək;

9.1.6. Sistemdən istifadə ilə bağlı hüquqlarının pozulmasından inzibati qaydada və (və ya) məhkəməyə şikayət etmək;

9.1.7. normativ hüquqi aktlarla müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

# İrəvan nikbindir, Ankara isə təmkinli...

**2023–2025-ci illərdə Ermənistan və Türkiyə arasında diplomatik dinamika diqqət çəkir: rəsmi İrəvanın nikbin bəyanatları, Türkiyə təmsilçiləri ilə görüşlər və texniki danışıqlar normallaşmaya ümidi artırır. Ancaq bu prosesi şərtləndirən əsas faktor – Azərbaycan və Ermənistan arasında yekun, hərtərəfli sülh müqaviləsi məsələsi – hələ açıq qalır və Ankaranın mövqeyini məhdudlaşdırır. Bütün bunlar normallaşmanın sürətini və formatını müəyyən edir: iqtisadi faydalar və simvolik görüşlər yaxınlaşma üçün şərait yaradır, amma siyasi-praktik reallaşma üçün regional və təhlükəsizlik elementləri həll olunmalıdır.**



Ermənistan–Türkiyə münasibətlərinin hazırkı mərhələsində regional kontekst mürəkkəb, çoxqatlı və strateji baxımdan qarşılıqlı asılılıqlar üzərində qurulub. Prosesdə hər bir oyunçu – İrəvan, Ankara, Bakı və böyük güclər – öz maraq sisteminə uyğun hərəkət edir. Lakin bu maraqların kəsişmə nöqtəsində həm imkanlar, həm də ziddiyyətlər meydana çıxır.

Ermənistanın əsas məqsədi uzun illər davam edən regional izolyasiyadan çıxmaq, iqtisadi canlanma əldə etmək və daxili ictimaiyyətə müəyyən ümid siqnalları verməkdir. Nikol Paşinyan hökuməti başa düşür ki, Qərbə inteqrasiya, beynəlxalq legitimlik və iqtisadi dirçəliş üçün Ermənistanın bağlı sərhədlərlə yaşaması davamlı perspektiv vəd etmir. Ona görə də İrəvan diplomatik ritorikasında normallaşma xəttini daha açıq və nikbin formada təqdim edir.

Türkiyə tərəfinin yanaşması daha praqmatik və strateji hesablara söykənir. Ankara İrəvanla münasibətləri normallaşdırmağa qarşı deyil, lakin bu prosesin sürəti və dərinliyi geosiyasi koordinasiyaya bağlıdır. Türkiyə üçün əsas prioritet Cənubi Qafqazda formalaşan yeni balansda öz təsirini qorumaq, regionda "geoiqtisadi mərkəz" rolunu gücləndirmək və Azərbaycanla strateji müttəfiqliyi sarsıtmadan hərəkət etməkdir. 1993-cü ildən bağlı olan sərhədlərin açılması Türkiyənin regional siyasətində ciddi dəyişiklik anlamına gələcək. Buna görə Ankara "səbirli optimizm" xəttini tutur: yəni, diplomatik kanalları açıq saxlayır, lakin konkret addımların atılmasını Bakı ilə razılaşdırılmış çərçivəyə bağlayır.

Azərbaycan bu prosesdə real oyun qurucusudur. Ermənistan–Türkiyə münasibətlərinin istənilən mərhələsində Bakı amili həlledici xarakter daşıyır. Çünki 44 günlük müharibədən sonra yaranmış yeni reallıq regionun bütün siyasi dinamikasını dəyişib. Bakı üçün əsas məsələ Ermənistanla yekun sülh müqaviləsinin imzalanması, sərhədlərin tanınması və təhlükəsizlik zəmanətlərinin təmin olunmasıdır. Azərbaycan istəmir ki, İrəvan Türkiyə ilə əlaqələri normallaşdırmaqla bu öhdəliklərdən yayınsın və ya siyasi balans yaratmaq üçün yeni manevr meydanı qazansın. Buna görə də Azərbaycan diplomatiyası prosesə nəzarəti qorumağa, Ankaranın hər addımının Bakı ilə koordinasiyada olmasına nail olmağa çalışır. Bunlar həm də Azərbaycan–Türkiyə münasibətlərinin "bir millət, iki dövlət" doktrinasının praktik təzahürüdür.

Regiondakı digər böyük oyunçular isə prosesə müxtəlif formalarda təsir göstərməyə çalışırlar. Rusiya üçün Cənubi Qafqaz postsovet məkanının mühüm hissəsidir və Moskva burada geosiyasi balansı saxlamaq niyyətindədir. Ermənistan–Türkiyə yaxınlaşması Rusiyanın təsir dairəsini azalda biləcək potensiala malikdir, xüsusilə də əgər bu proses Qərbin vasitəçiliyi və ya Avropa platformaları üzərindən reallaşarsa. Buna görə Moskva bir tərəfdən bu yaxınlaşmaya açıq görünməyə çalışır, digər tərəfdən isə prosesin öz nəzarətindən çıxmamasına çalışır.

Avropa İttifaqı və ABŞ bu prosesdə daha çox diplomatik və iqtisadi alətlərdən istifadə edərək təşviqedici rol oynayır. Onlar Cənubi Qafqazda sülhün təmin olunmasını enerji təhlükəsizliyi və nəqliyyat bağlantıları baxımından vacib hesab edir. Avropa üçün Türkiyə–Ermənistan sərhədinin açılması, faktiki olaraq, yeni Şərq



Qapısı anlamına gəlir – Orta Dəhlizin və Qafqaz üzərindən Asiyaya çıxışın daha sabit formalaşması. ABŞ bu prosesi həm Rusiya, həm də İranın təsirinə qarşı yumşaq balans vasitəsi kimi görür. İran məsələsi xüsusi həssaslıq daşıyır. Tehran üçün Türkiyə–Ermənistan yaxınlaşması potensial olaraq regionda yeni geosiyasi enerji və nəqliyyat marşrutlarının yaranması, yəni İranın tranzit mövqeyinin zəifləməsi deməkdir. Buna görə İran bu yaxınlaşmanı diqqətlə izləyir və balanslaşdırıcı siyasət yürüdür.

İrəvanın diplomatik nikbinliyi, Ankaranın strateji səbirlə müşayiət olunan ehtiyatlı siyasəti, Bakının müəyyənedici rolu və böyük güclərin maraqlarının toqquşması bu prosesin nəticəsini formalaşdırır. Burada hər addım həm iqtisadi, həm də ideoloji nəticələr doğurur. Və məhz bu səbəbdən regionun növbəti mərhələsində normallaşma prosesinin taleyi, əslində, bütün Qafqazın geosiyasi gələcəyinin göstəricisinə çevrilir.

*

Regionda qüvvələr nisbətinin dəyişməsi fonunda Ermənistan–Türkiyə münasibətlərinin normallaşması prosesi bir sıra prioritet problemlər və siyasi məntiq zənciri ilə müəyyən olunur. Səthi görünən diplomatik jestlərin arxasında çox dərin strateji hesablama, psixoloji və təhlükəsizlik balansı dayanır. Əslində, məsələ təkcə iki ölkə arasında sərhədlərin açılması və ya diplomatik münasibətlərin qurulması ilə məhdudlaşmır. Söhbət Cənubi Qafqazda yeni güc arxitekturasının formalaşmasından gedir.

1993-cü ildə sərhədin bağlanması qərarı Ankaranın öz təşəbbüsü ilə verilmişdi və bu qərarın əsasında Qarabağ münaqişəsi dayanırdı. Deməli, sərhədin açılması da həmin kontekstdən ayrılıqda nəzərdən keçirilə bilməz. 2020-ci ildə 44 günlük müharibədən sonra regionda yaranan yeni reallıqda Türkiyə bu siyasətini dəyişməyib. Yəni, Ermənistanla münasibətlərin tam bərpası Bakı ilə sülh müqaviləsinin imzalanması, İrəvanın Azərbaycanın ərazi bütövlüyünə faktiki hörmətindən asılıdır. Bu mənada Ankara "səbirli diplomatiya" modelinə üstünlük verir: emosional addımlar atmaq əvəzinə, prosesin mərhələli şəkildə yetişməsini gözləyir. Türkiyə siyasi dairələrində hesab olunur ki, erkən normallaşma yalnız Bakının razılığı olmadan deyil, həm də Ermənistanın daxilində tam sosial dəstək qazanmadan həyata keçirilərsə, proses dayanıqsız olacaq.

Ermənistan üçün bu məsələ daha çox "zaman amili" ilə bağlıdır. İrəvan üçün hər bir addımın vaxtında və sürətlə atılması vacibdir, çünki daxili ictimaiyyətin səbir limiti tükənmək üzrədir. Müharibədən sonra iqtisadi durğunluq, əhalinin sosial narazılığı və Qərbə inteqrasiya ümidlərinin zəifləməsi Paşinyan hökumətini yeni diplomatik jestlərə sövq edir. İrəvan Türkiyə ilə sərhədin açılmasını iqtisadi nəfəs yolu və beynəlxalq aləmdə siyasi imicini möhkəmləndirən vasitə kimi görür.

Bu iki yanaşma arasındakı fərq normallaşma prosesinin ritmini müəyyən edir: İrəvan tələsir, Ankara isə gözləyir. Lakin hər iki tərəf anlayır ki, sülh və açıq sərhədlər olmadan regionda davamlı iqtisadi inkişaf və nəqliyyat inteqrasiyası mümkün deyil. Türkiyə üçün Ermənistanla əlaqələrin bərpası Orta Dəhlizin Qafqaz hissəsini tamamlayan strateji zəncirdir, Ermənistan üçün isə bu, təcriddən çıxış biletidir. Amma bu iki rasional məqsədin kəsişmə nöqtəsində bir təhlükəsizlik baryeri dayanır – Azərbaycan faktoru.

Bakı üçün bu prosesin "nəzarətli" şəkildə inkişaf etməsi həyati əhəmiyyət daşıyır. Azərbaycan regionda yaranmış yeni geosiyasi üstünlüyünü qorumaq, Qarabağ sonrası vəziyyəti hüquqi-siyasi zəminə salmaq və Ermənistanın revizionist ritorikasının tamamilə aradan qalxmasını təmin etmək niyyətindədir. Buna görə də Bakı Ankara ilə koordinasiyada, normallaşmanın bütün mərhələlərinin sülh sazişi çərçivəsində razılaşdırılmasını tələb edir.

Prosesin arxasında dərin bir siyasi məntiq dayanır: Türkiyə və Azərbaycan Cənubi Qafqazda vahid strateji xətt formalaşdırıblar və xəttin mahiyyəti "regional sabitlik yalnız ədalətli sülh üzərində qurula bilər" prinsipinə əsaslanır. Ermənistan bu reallığı qəbul etdikcə, normallaşma yolunda irəliləyir; əks halda, proses yalnız formal bəyanatlarla məhdud qalır. Eyni zamanda, burada daha incə bir balans var. Türkiyə Ermənistanla dialoqu tam dayandırmaq istəmir, çünki bu, Ankaranı beynəlxalq arenada sülh təşəbbüslərinə qapalı tərəf kimi göstərə bilər. Buna görə Ankara diplomatik kanalları açıq saxlayır, texniki səviyyədə addımlar atır.

Digər tərəfdən, normallaşma prosesində regiondakı psixoloji faktorlar – xalqlar arasında yüzillik etimadsızlıq, tarixi yaddaşın yükü və emosional travmalar – mühüm rol oynayır. Bu səbəbdən tərəflər üçün ən çətin vəzifə ictimai şüuru dəyişdirməkdir. Paşinyanın "normal qonşular kimi yaşamaq istəyirik" sözləri Ermənistan cəmiyyətini dəyişmək cəhdi, uzun illər "düşmən obrazı" üzərində qurulmuş milli narrativdən uzaqlaşdırmaq təşəbbüsüdür. Lakin bu tip transformasiyalar zaman tələb edir. Türkiyədə və Ermənistanda ictimai rəyin bir-birinə inam göstərməsi, iqtisadi əməkdaşlıq və mədəni mübadilələrin artması üçün neçə il davamlı və ardıcıl siyasət lazımdır. Əgər bu, sülh müqaviləsi ilə paralel şəkildə həyata keçirilərsə, real nəticələr mümkündür; əks halda, normallaşma yenə də siyasi ritorika səviyyəsində qalacaq.

Yekun olaraq deyə bilərik ki, normallaşma yalnız siyasi razılaşmalarla deyil, etimad, təhlükəsizlik və qarşılıqlı rasionallıq üzərində qurulmalıdır. Əgər tərəflər bu prinsiplərə əməl edə bilsələr, Ermənistan–Türkiyə münasibətləri Cənubi Qafqazda yeni diplomatik dövrün başlanğıc nöqtəsinə çevriləcək.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Sülhə aparan "çörək yolu"

*(əvvəli 1-ci səhifədə)*

Papoyan qeyd edib ki, bir neçə gün ərzində Qazaxıstan buğdası da Azərbaycan vasitəsilə Ermənistana çatdırılacaq. Hazırda Qazaxıstan buğdası Azərbaycan ərazisindədir və noyabrın 7-dək Ermənistana çatacağı gözlənilir.

Məsələyə Rusiya tərəfi də münasibətini açıqlayıb. Baş nazirin müavini Aleksey Overçuk Rusiya Federasiyası ilə Ermənistan Respublikası arasında Azərbaycan Respublikası və Gürcüstan ərazisindən dəmir yolu əlaqəsinin qurulmasını alqışlayıb. Overçuk jurnalistlərə bildirib ki, bu hadisə Cənubi Qafqazda sülhün bərqərar olmasına real, maddi töhfədir, regional sabitlik və regiondakı bütün ölkələrin iqtisadi inkişafı üçün gördükləri işlərin sübutudur: "Həmkarlarıma – Azərbaycan Baş nazirinin müavini Şahin Mustafayevə və Ermənistan Baş nazirinin müavini Mher Qriqoryana Cənubi Qafqaz regionunda nəqliyyat əlaqələrinin açılması üçün birgə səylərinə, eləcə də Gürcüstana bu marşrut üzrə daşınmaların təşkilində konstruktiv iştirakına görə təşəkkür etmək istəyirəm".

Rusiya Kənd Təsərrüfatı Nazirliyindən "RİA Novosti" agentliyinə bildirilib ki, bu istiqamətin inkişaf etdirilməsi Cənubi Qafqaz ölkələrinə ixrac həcminin artırılması üçün əlavə imkanlar açır. Nazirlik aydınlıq gətirib ki, Ermənistan il ərzində təxminən 450-500 min ton taxıl idxal edir. Bu həcmin demək olar ki, 100 faizi Rusiyadan daxil olur. Yeni marşrut Azərbaycan və Gürcüstan ərazisindən tranzit əlaqəsini təmin edir ki, bu da nəqliyyat xərclərini azaldır və təchizat dayanıqlılığını artırır.

Rusiya Nəqliyyat Nazirliyinin yaydığı açıqlamada isə ilk buğda partiyasının Ulyanovsk vilayətinin Dimitrovqrad stansiyasından vaqonlara yükləndiyi bildirilib. Qeyd edilib ki, 2026-cı il yanvar ayının sonuna qədər Azərbaycan ərazisindən keçən yeni dəmir yolu marşrutu ilə Ermənistana daha 132 vaqon buğda göndəriləcəyi bildirilib. Nazirlik bildirib ki, Azərbaycandan keçməklə Ermənistana yük tranzitinin bərpası nəticəsində yeni logistika marşrutunun fəaliyyəti mümkün olub. TASS xəbər verir ki, nazirlik, eyni zamanda, bu marşrutla digər kateqoriyalı yüklərin çatdırılmasını da nəzərdən keçirir. Rusiya Nəqliyyat Nazirliyi vurğulayıb ki, bu, 1990-cı illərdən bəri Azərbaycandan keçməklə Ermənistana ilk




dəfə yük daşınmasıdır.

Məsələyə Ermənistanın Baş naziri Nikol Paşinyan da münasibətini açıqlayıb. O, Rusiya taxılının Azərbaycan vasitəsilə Ermənistana göndərilməsini mühüm hadisə adlandırıb. Dünən jurnalistlər üçün keçirdiyi brifinqdə Paşinyan bildirib ki, ilkin olaraq birinci qatarın Qazaxıstandan gəlməsi planlaşdırılırdı: "Lakin sonradan məlum oldu ki, Azərbaycan Rusiya yükləri üçün də belə bir imkan yaradır. İndi bu marşrut üzrə Rusiyadan digər kateqoriyalı malların idxalı üçün müraciətlər formalaşır". Onun sözlərinə görə, Azərbaycan üzərindən malların Ermənistana çatdırılmasının yeni imkanı nəzərə alınmaqla, yük axınları yenidən bölüşdürülür. Baş nazir Qazaxıstan qatarı gələnə qədər Rusiyadan əlavə yüklərin göndərilməsinin mümkünlüyünü istisna etməyib: "Vəziyyət dinamik inkişaf edir – yeni müraciətlər daxil olur. Həmçinin Ermənistandan Rusiyaya, Qazaxıstana və digər ölkələrə yük axınının necə təşkil oluna biləcəyini yoxlamaq lazımdır".

N.Paşinyan Ermənistanın Marqara–Kornidzor marşrutu üzrə Türkiyə və Azərbaycan yük maşınlarının tranzitini təmin etməyə hazır olduğunu da xatırladıb.

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Bəxtiyar Hacıyev bildirib ki, həm Rusiya, həm də Qazaxıstandan Azərbaycan vasitəsilə Ermənistana yüklərin növbəti partiyalarının göndərilməsi gözlənilir.

*

Rusiyadan Ermənistana buğda daşıyan qatarın Azərbaycan ərazisindən keçərək ünvanına çatması regionda yeni reallığın formalaşdığını göstərir. Bu hadisə təkcə iqtisadi və logistik baxımdan deyil, həm də Cənubi Qafqazda sülh quruculuğu və qarşılıqlı etimad mühitinin möhkəmlənməsi istiqamətində mühüm addım kimi dəyərləndirilir. Uzun illər boyu qapalı qalan nəqliyyat əlaqələrinin mərhələli şəkildə bərpa olunması, tərəflər arasında praktiki əməkdaşlıq imkanlarının yaranması regionda sabitliyin və qarşılıqlı faydanın əsas dayağına çevrilə bilər. Bu marşrut, əslində, münaqişə sonrası dövrdə formalaşan yeni yanaşmanın – real əməkdaşlıq üzərində qurulan sülh fəlsəfəsinin təzahürüdür. Azərbaycan ərazisindən keçən bu qatar həm iqtisadi inteqrasiyanın, həm də siyasi etimadın rəmzi kimi tarixə düşür.

Xatırladaq ki, Prezident İlham Əliyev bu il oktyabrın 21-də Qazaxıstanda dövlət səfərində olarkən bəyan etmişdi ki, Azərbaycan Ermənistana yük tranziti ilə bağlı işğaldan bəri mövcud olan bütün məhdudiyyətləri aradan qaldırıb. Dövlətimizin başçısı Astanada Qazaxıstan Prezidenti Kasım–Jomart Tokayevlə mətbuata birgə bəyanatında demişdi: "Onu da qeyd etməliyəm ki, Azərbaycan Ermənistana yük tranziti ilə bağlı işğaldan bəri mövcud olan bütün məhdudiyyətləri aradan qaldırıb və ilk belə tranzit yük Qazaxıstan taxılının Ermənistana daşınması olub. Zənnimcə, bu, həm də Azərbaycan ilə Ermənistan arasında sülhün artıq kağız üzərində deyil, həm də praktikada olduğunun yaxşı göstəricisidir".



**"Cənubi Qafqaz" politoloqlar klubunun rəhbəri İlqar Vəlizadə** XQ-yə açıqlamasında bildirdi ki, Rusiyadan və Qazaxıstandan Ermənistana taxıl daşınmasının Azərbaycan ərazisindən keçməklə həyata keçirilməsi region üçün mühüm strateji hadisədir. Onun sözlərinə görə, bu proses təkcə iqtisadi baxımdan deyil, həm də siyasi, diplomatik və sülh quruculuğu aspektindən diqqətəlayiq addımdır: "Ən önəmlisi isə bu marşrutun mümkün olmasında Azərbaycan Prezidenti İlham Əliyevin uzaqgörən siyasəti və praqmatik yanaşması həlledici rol oynayıb. Məhz bu prinsipial və balanslı mövqenin nəticəsidir ki, indi Rusiya və Qazaxıstan kimi böyük iqtisadi oyunçular öz məhsullarını Ermənistan bazarına məhz Azərbaycan üzərindən çatdırmaq imkanı əldə ediblər".

Müsahibimiz bildirdi ki, əslində, bu hadisə regionda uzun illər davam edən iqtisadi blokadaların tədricən aradan qaldırılmasına doğru atılan addım kimi də dəyərləndirilə bilər: "Azərbaycanın ərazisindən keçən bu ticarət marşrutu həm region dövlətləri arasında qarşılıqlı asılılığı artırır, həm də yeni etimad mexanizmlərinin formalaşmasına təkan verir. Bu, Prezident İlham Əliyevin dəfələrlə vurğuladığı Cənubi Qafqazda əməkdaşlıq platformasının yaradılması ideyasının praktik müstəvidə təcəssümüdür. Bu reallığı diqqətə alan bir çox beynəlxalq müşahidəçilər qeyd edirlər ki, Azərbaycan bu addımı ilə yalnız öz tranzit imkanlarını genişləndirmir, həm də regionda sabitliyin və sülhün təmin olunmasına töhfə verir. Ermənistanın uzun illər ərzində özünü təcrid vəziyyətinə saldığı bir dövrdən sonra məhz Azərbaycan üzərindən bu yükün daşınması həm yeni münasibətlər formatının, həm də praqmatik siyasətin nəticəsidir".

Politoloqun sözlərinə görə, Prezident İlham Əliyevin sülh təşəbbüsləri və kommunikasiyaların açılması ilə bağlı ardıcıl mövqeyi bir daha təsdiqləyir ki, Azərbaycan müharibədən sonra revanş deyil, əməkdaşlıq və qarşılıqlı fayda yolunu seçib: "Bu siyasət təkcə region ölkələrinin deyil, həm də beynəlxalq ictimaiyyətin dəstəklədiyi bir yanaşmadır. Azərbaycan rəhbərliyinin məqsədi regional sabitliyi möhkəmləndirmək, iqtisadi əlaqələr vasitəsilə gərginlik ocaqlarını aradan qaldırmaq və Cənubi Qafqazda davamlı sülh mühitinə nail olmaqdır. Nəticə etibarilə, Rusiya və Qazaxıstandan gələn buğda yüklü qatarlara Azərbaycanın tranzit dəhlizlərini açması regionun iqtisadi xəritəsini yenidən formalaşdıran, siyasi reallıqları dəyişdirən və etimad mühitini gücləndirən tarixi addımdır".

***Səxavət HƏMİD***
***XQ***

# Azərbaycan, Ermənistan, Gürcüstan + ABŞ

## *“C3+1” formatı “C5+1”lə birlikdə hansı siyasi və iqtisadi dividendlər vəd edir?*

**Əvvəlcə onu qeyd edək ki, dünən Ağ Evdə baş tutan ABŞ – Mərkəzi Asiya Sammiti tərəflər arasında münasibətlərin tarixində bu səviyyədə ilk tədbir kimi yadda qalacaq. Ekspertlər perspektivə hesablanmış “C5+1” formatına digər aktorların da cəlb ediləcəyini proqnozlaşdırırlar. Bu zaman onların əksəriyyəti Azərbaycanın da bu platformaya gətirilməli olduğuna, bununla da yeni “C6+1” formatının yaranacağına inandıqlarını vurğulayır.**




Bu mövzuda geniş analitik məqalə dərc edən Amerikanın “The Diplomat” nəşri qeyd edir ki, Vaşinqton “C5+1” mexanizmini yeni geosiyasi reallıqlara uyğunlaşdırmaqla bağlı qərar qəbul etməlidir. Məqalədə xüsusi olaraq vurğulanır ki, Mərkəzi Asiya regionu ABŞ-ın iqtisadi və texnoloji təhlükəsizliyinin böyük ölçüdə asılı olduğu strateji faydalı qazıntı ehtiyatları sayəsində “tarixi maraq dairəsi” dövrünü yaşayır. Bu dairədə yeni iştirakçı kimi Azərbaycanın da daxil olmağa hazır göründüyünə diqqəti çəkən müəlliflər Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin artıq bu ideyanı rəsmi şəkildə dəstəklədiyini yazırlar.

On il bundan əvvəl Əfqanıstandan kənarda nişanlanma, eləcə də təhlükəsizlik vasitəsi kimi yaradılmış ABŞ – Mərkəzi Asiya – “C5+1” formatı sonradan su, enerji, iqtisadi inkişaf və kritik mineralları əhatə edən möhkəm diplomatik platformaya çevrildi. Amma bu da danılmaz faktdır ki, son on ildə Avrasiyanın geosiyasi xəritəsi kifayət qədər dəyişikliyə məruz qalıb. Rusiya – Ukrayna hərbi münaqişəsi, Çin iqtisadiyyatının transformasiyası və Orta Dəhlizin Şərq–Qərb ticarəti üçün strateji arteriya kimi meydana çıxması ABŞ üçün regionda mövcudluğu arxivacib amilə çevirib.

*

“The Diplomat” nəşri qeyd edir ki, indiki şəraitdə Vaşinqton Cənubi Qafqaz respublikalarının formata daxil edilməsi imkanlarını mütləq nəzərdən keçirməlidir. Müəlliflərin gəldiyi qənaətə görə, Ukrayna müharibəsi genişmiqyaslı dəyişikliklərin katalizatoruna çevrilib və bunun nəticəsində Mərkəzi Asiya və Cənubi Qafqaz ölkələri birbaşa ticarəti gücləndirib, nəqliyyat əlaqələrini inkişaf etdirib, Qərb bazarlarına çıxış əldə edirlər. Bu dinamikanın mərkəzində isə Orta Asiyanı Xəzər dənizi, Cənubi Qafqaz və Türkiyə vasitəsilə Avropa ilə birləşdirən çoxşaxəli, mürəkkəb dəmir yolları, limanlar və boru kəmərləri şəbəkəsi olan Orta Dəhliz dayanır. Azərbaycanın bu infrastrukturun əsas elementi olduğunu vurğulayan nəşr Bakının Ələt limanının Xəzər dənizinin qərb sahilində yeganə əsas tranzit qovşağı olduğuna diqqət çəkir. “Azərbaycanın özündə inkişaf etmiş nəqliyyat və enerji kommunikasiyaları sistemi mövcuddur ki, bunsuz Orta Dəhlizin fəaliyyəti qeyri-mümkündür” – yazan “The Diplomat” Prezident İlham Əliyevin regional sammitlərdə, enerji forumlarında fəal iştirak etdiyini, Bakının genişlənən Mərkəzi Asiya regionunun tərkib hissəsi kimi imicinin formalaşdığını önə çəkir. Amerikalı analitiklərin fikrincə, məhz buna görə Azərbaycanın “C5+1” formatına daxil olması geosiyasi reallığın qəbul edilməsi baxımından düzgün olardı: “Axı Mərkəzi Asiya ilə Qərb arasında əsas enerji və ticarət yolları Bakıdan keçir”.

Ardınca müəlliflər bu cür genişlənmənin formatın enerji və investisiya potensialını artıracağını və ona real strateji dərinlik verəcəyini qeyd edirlər. Bununla yanaşı, “The Diplomat”ın analitikləri onu da etiraf edirlər ki, Azərbaycan bu formata qoşulduqdan sonra Mərkəzi Asiyanın bəzi dövlətləri özlərinin əhəmiyyətinin azalması ehtimalından narahat ola bilərlər. Məhz bu səbəblərə görə, ABŞ-ın humanitar yardıma deyil, iqtisadi artımın və özəl investisiyaların stimullaşdırılmasına yönəlmiş siyasəti regional qarşılıqlı fəaliyyətə yanaşmaların yenidən nəzərdən keçirilməsini tələb edir. Bu kontekstdə nəşr yazır ki, Amerika bürokratik sistemində Cənubi Qafqaz və Mərkəzi Asiya hələ də ayrı-ayrı departamentlər tərəfindən idarə olunan fərqli sahələr kimi nəzərdən keçirilir. Ona görə də Vaşinqton üçün məntiqi addım Azərbaycanın mərhələli şəkildə müşahidəçi statusu və ya genişləndirilmiş “C6+1” konfiqurasiyasında tematik iştirak vasitəsilə formata cəlb edilməsi daha düzgün yanaşma ola bilər. Müəlliflər vurğulayırlar ki, əgər ABŞ həqiqətən də Orta Dəhlizin inkişafını dəstəkləməyə sadiqdirsə, onun diqqəti Gürcüstan və Ermənistana da yönəlməlidir. Gürcüstan Qara dəniz limanlarına və daha sonra Avropaya tranzit çıxışı təmin edən marşrutun son halqasıdır. Ermənistana gəlincə, Ağ Evin vasitəçiliyi ilə Azərbaycanla sülh sazişi imzaladıqdan sonra ölkə regional infrastruktur və nəqliyyat zəncirlərinə inteqrasiya etmək üçün real şans əldə edəcək.

*

Daha sonra məqalə müəllifləri Azərbaycan və bölgə ölkələri üçün olduqca vacib bir məsələyə toxunurlar. Onlar hesab edirlər ki, ABŞ-ın Cənubi Qafqazda mövcudluğunu möhkəmləndirmək və Orta Dəhlizi inkişaf etdirmək üçün Azərbaycan, Gürcüstan və Ermənistanın iştirakı ilə ayrıca “C3+1” formatını işə salmaq lazımdır: “Ermənistanı Orta Dəhliz magistralına birləşdirəcək və transxəzər yükdaşımalarının həcmini iki dəfədən çox artıracağı proqnozlaşdırılan TRIPP layihəsi xüsusi əhəmiyyət kəsb edir”.

Bu təşəbbüsün həyata keçirilməsi Azərbaycan və Ermənistan arasında sülh yolu ilə nizamlanmanı gücləndirməklə yanaşı, bütün regionun davamlı inkişafı üçün iqtisadi stimullar yaradacaq.

Beləliklə, Gürcüstan və Ermənistanın ABŞ-la tərəfdaşlığa daxil edilməsi “C5+1” və ya “C6+1” formatını təkcə Mərkəzi Asiya üçün deyil, bütün Trans–Xəzər regionu üçün qarşılıqlı fəaliyyət platformasına çevirəcək. Bu, regionun iqtisadiyyatları və enerji sistemlərinin artan qarşılıqlı asılılığının obyektiv reallığını əks etdirəcəkdi. “The Diplomat”in analitikləri belə ekspansiyaya əsas maneə kimi ABŞ-ın Cənubi Qafqazla bağlı tutarlı strategiyasının olmamasını göstərirlər. Onların fikrincə, Vaşinqtonun buradakı fəaliyyəti dağınıq və reaktivdir və çox vaxt uzunmüddətli planlaşdırmanın nəticəsi deyil, identik böhranlara cavab verən taktikaya əsaslanır. Müəlliflər haqlı olaraq yazırlar ki, geosiyasi proseslərin sürətləndiyi indiki şəraitdə belə bir mövqenin dayanıqlığı zəifləməyə doğru gedir.

Məqalə müəllifləri bir daha o fikrin üzərinə qayıdırlar ki, ABŞ-ın Cənubi Qafqazda mövcudluğunu möhkəmləndirmək və Orta Dəhlizi inkişaf etdirmək üçün Azərbaycan, Gürcüstan və Ermənistanın iştirakı ilə ayrıca “C3+1” formatını işə salması zəruridir. Bu platforma ABŞ-la dialoqun dərinləşdirilməsi, infrastruktur layihələrinin dəstəklənməsi və iqtisadi təşəbbüslərin əlaqələndirilməsi üçün alət rolunu oynaya və gələcəkdə “C5+1”i gücləndirən komponentə çevrilə bilər.

“The Diplomat”in məsələyə baxış bucağına görə, “C5+1” formatının on illik mövcud təcrübəsi münaqişələrin həlli, əlaqələrin inkişafı və enerji təhlükəsizliyinə yönəlmiş paralel qarşılıqlı fəaliyyət platformasının yaradılması üçün istifadə edilə bilər: “Lazım gələrsə, hər iki struktur səkkiz ştatı və ABŞ-ı əhatə edən vahid “C8+1” formatında da birləşdirilə bilər”.

Etiraf etmək lazımdır ki, analitik məqalə müəlliflərinin ortaya qoyduqları bu yanaşma maraqlar tarazlığını qoruyub saxlamağa, eləcə də diplomatik manevrlərdə çevikliyi təmin etməyə imkanlar yarada bilər. Ən vacibi isə birləşmiş format ABŞ-a Avrasiyada sistemli fəaliyyət göstərməyə imkan verəcək. Yəni, resurslar və enerji daşıyıcıları üzrə Mərkəzi Asiya ilə, sülh quruculuğu və regional əlaqə üzrə Qafqazla infrastruktur, ticarət və təchizat zəncirləri üzrə bütün ölkələrlə əməkdaşlıq Vaşinqtona əlavə güc, nüfuz, siyasi və iqtisadi dividendlər qazandırmağa qadirdir.

***İmran BƏDİRXANLI***
***XQ***

# Cənubi Qafqazda dəhliz narahatlığı



*(əvvəli 1-ci səhifədə)*

İrəvanda keçirilən “Orbeli Forumu - 2025” adlı beynəlxalq konfransda gürcü ekspert Nəqliyyat Dəhlizləri Tədqiqat Mərkəzinin direktoru Paata Tsaqareişvilinin səsləndirdiyi proqnozlar Tbilisinin siyasi koridorlarında həyəcan təbili kimi əks-səda doğurmaya bilməzdi. Tsaqareişvilinin Ermənistan, Azərbaycan və Türkiyə arasında yeni marşrutların, xüsusən də Zəngəzur dəhlizinin (TRIPP) açılmasından sonra Gürcüstanın tranzit yüklərinin 20 faizə qədərini itirmək riski barədəki xəbərdarlığı Cənubi Qafqazın iqtisadi coğrafiyasının yenidən yazıldığı, rəqabətin kəskinləşdiyi və köhnə iştirakçıların yeni qaydalara uyğunlaşmaq məcburiyyətində qaldığı yeni dövrün anonsudur. Sual budur: Zəngəzur dəhlizinin açılması Gürcüstan üçün həqiqətən də iqtisadi fəlakətin başlanğıcıdır, yoxsa bu yeni reallıq Tbilisini durğunluqdan çıxararaq daha çevik və rəqabətədavamlı olmağa sövq edəcək sağlam şok terapiyasıdır?

Tbilisinin narahatlığı üçün ciddi əsasların olduğu aşkar görünür. Regionda nəqliyyat əlaqələrinin açılması ilə, ilk növbədə, avtomobil yolları sürətlə fəaliyyətə başlayacaq. Bu, Türkiyədən Azərbaycana və buradan Mərkəzi Asiyaya gedən yüklərin daha qısa və az relyefli marşrutla, yəni, Zəngəzur dəhlizi vasitəsilə hərəkət etməsi üçün alternativ yaradacaq. Hazırda Türkiyədən Azərbaycana gedən yük maşınları ya uzun və çətin relyefli Gürcüstan–Rusiya (Yuxarı Lars) marşrutundan, ya da Gürcüstan ərazisindən keçən yoldan istifadə etmək məcburiyyətindədir.

Zəngəzur dəhlizi isə bu məsafəni yüzlərlə kilometr qısaldır, yanacaq və vaxta qənaət edir. Logistika isə xüsusi sahədir. Orada sentimentallığa yer yoxdur, hər şey rəqəmlər, xərclər və səmərəliliklə ölçülür. Daha ucuz və daha sürətli yol gec-tez dominant marşruta çevrilir. Tsaqareişvilinin dəmir yolu əlaqəsinin bərpasının beş-altı il çəkəcəyini proqnozlaşdırması da aldadıcı olmamalıdır. Həmin müddət logistika şirkətlərinin və yük sahiblərinin yeni marşrutları test etməsi, təchizat zəncirlərini yenidən qurması və Gürcüstan marşrutuna olan asılılıqlarını tədricən azaltması üçün kifayət qədər uzun zamandır.



İtkilərin miqyası isə həqiqətən də sarsıdıcıdır: 1,5–2 milyon ton. Bu rəqəm Gürcüstanın Orta Dəhliz üzrə daşıdığı ümumi tranzit axınının təxminən 15–20 faizinə bərabərdir. Gürcüstan ərazisindən hər il təxminən 18–20 milyon ton yük daşındığını nəzərə alsaq, həmin itki ölkənin nəqliyyat sektoruna, limanlarına, dəmir yoluna və nəticədə dövlət büdcəsinə milyardlarla dollar ziyan vura bilər. Poti və Batumi limanları, Bakı–Tbilisi–Qars dəmir yolu kimi Gürcüstanın onilliklər boyu sərmayə qoyduğu nəhəng infrastruktur əsas gəlir mənbələrindən birini itirmək riski ilə üzləşir. Bu, Gürcüstanın regional geosiyasi əhəmiyyətinin azalması deməkdir. Tranzit ölkə statusu Tbilisiyə həm də Avropa və Asiya arasında mühüm körpü rolunu oynamaqla siyasi nüfuz qazandırırdı. Bu rolun zəifləməsi Gürcüstanın beynəlxalq arenadakı mövqelərinə də mənfi təsir göstərə bilər.

Məhz bu təhlükələri görən Tsaqareişvili Gürcüstan hökumətini təcili addımlar atmağa çağırır: “Gürcüstan artıq bu gündən rəqabət qabiliyyətini qorumaq üçün addımlar atmalıdır: tarif siyasətinə yenidən baxmaq, infrastrukturun inkişafını sürətləndirmək və yükdaşıyıcıları stimullaşdırmaq zəruridir”. Bu, acı, lakin real reseptdir. Gürcüstan coğrafi mövqeyinin artıq təkbaşına bir zəmanət olmadığını anlamalı və rəqabətə hazırlaşmalıdır. Tariflərin aşağı salınması, gömrük prosedurlarının sadələşdirilməsi, limanların modernləşdirilməsi və Şərq–Qərb avtomagistralının tikintisinin sürətləndirilməsi kimi addımlar Tbilisinin əlindəki əsas alətlərdir. Xüsusilə, Anakliya dərin dəniz limanı layihəsinin taleyi həlledici əhəmiyyət kəsb edir. Əgər Gürcüstan daha böyük həcmli gəmiləri qəbul edə bilən müasir liman inşa edə bilsə, Zəngəzur dəhlizinin yaratdığı rəqabətə daha effektiv şəkildə cavab verə bilər.

Lakin məsələyə başqa prizmadan da baxmaq mümkündür. Birincisi, rəqabət həmişə inkişaf üçün stimul rolunu oynayır. Gürcüstanın tranzit monopoliyası müəyyən mənada onun arxayınlaşmasına və islahatları ləngitməsinə səbəb olmuşdu. İndi isə Zəngəzur dəhlizi kimi güclü rəqibin ortaya çıxması rəsmi Tbilisini və özəl sektoru daha səmərəli işləməyə, xidmətin keyfiyyətini artırmağa, innovasiyalar tətbiq etməyə məcbur edəcək.

İkincisi, Cənubi Qafqazda kommunikasiyaların açılması və uzunmüddətli sülhün bərqərar olması bütün regionun investisiya cəlbediciliyini artıracaq. Münaqişə riskinin ortadan qalxması regionu beynəlxalq investorlar üçün daha təhlükəsiz və proqnozlaşdırıla bilən məkana çevirəcək. Bu, turizm, kənd təsərrüfatı və istehsalat kimi digər sahələrə də yeni sərmayələrin axmasına səbəb ola bilər.

Üçüncüsü, Şərqlə Qərb arasında yük axını durmadan artır və gələcəkdə bir marşrutun bu həcmi tam qarşılamaq üçün kifayət etməyəcəyi aydındır. Belə bir şəraitdə Gürcüstan və Zəngəzur dəhlizləri bir-birini tamamlayan, fərqli növ yüklərə və fərqli istiqamətlərə xidmət edən iki paralel marşrut kimi fəaliyyət göstərə bilər. Məsələn, Gürcüstan marşrutu daha çox Qara dəniz və Avropa istiqamətinə, Zəngəzur dəhlizi isə Türkiyənin daxili bazarlarına və Aralıq dənizi limanlarına çıxış təmin edəcək. Region ölkələrinin vahid tarif siyasəti və koordinasiyalı fəaliyyəti, hər iki dəhlizin səmərəliliyini artıran mühüm aspektdir.

Gürcüstanın taleyi onun öz əlindədir. Əgər Tbilisi baş verən geosiyasi dəyişikliklərə passiv müşahidəçi kimi yanaşsa, köhnə imtiyazlarına arxayın olsa və zəruri islahatları ləngitsə ciddi iqtisadi itkilərlə üzləşəcək. Bu, “sıfır cəm” oyununda Gürcüstanın uduzması demək olardı. Ancaq əgər Tbilisi yeni reallığı çağırış kimi qəbul edərək rəqabət qabiliyyətini artırmaq üçün cəsarətli addımlar atsa, infrastrukturunu modernləşdirsə və regional əməkdaşlıq formatlarında fəal iştirak etsə yeni imkanlar qazana bilər. Ancaq bunun üçün Tbilisinin köhnə təfəkkür qəliblərindən çıxması və daha rəqabətli, daha dinamik bir oyunun fəal iştirakçısına çevrilməsi şərtdir.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Azərbaycan Prezidentinin elmə qayğısı və baxışları



## III MƏQALƏ

### 2 istiqamətdə ikisəviyyəli vəhdət

Bu mövzuda II məqalədə vurğulanmışdır ki, davamlı yeniləşmə prosesi əsasında özünün yeni inkişaf mərhələsinə qədəm qoymuş AMEA, iki səviyyədə, lakin bir-biri ilə sıx əlaqədə iki istiqamət üzrə qarşıya qoyduğu elmi məqsədlərə nail olmağa çalışır. Birinci səviyyə, ümumiyyətlə, təşkilatın struktur-funksional yeniləşməsi ilə bağlıdır. İkinci səviyyə isə elmi yaradıcılıqla beynəlxalq əlaqələrin müasir tələblərə uyğun əlaqələndirilməsidir.

Birinci istiqamət AMEA rəhbərliyinin Prezident İlham Əliyevin Azərbaycanın strateji inkişaf konsepsiyasına uyğun olaraq təşkilatın yeniləşməsinin ümumi prinsiplərini müəyyən etməsi ilə əlaqəlidir.

İkinci istiqamət isə müəyyən edilən yeniləşmə prinsiplərinin praktiki-tətbiqi aspektdə həyata keçirilməsidir.

Birinci istiqamətin əsasında Azərbaycanın strateji inkişaf konsepsiyasında müəyyən edilmiş Milli Prioritetlər dayanır. Həmin prioritetlərin ruhuna və qarşıya qoyulan hədəflərinə uyğun olaraq AMEA rəhbərliyi aşağıdakı istiqamətlər üzrə 2022-ci ilin payızından başlayaraq yeniləşmə prosesini ardıcıl olaraq aşağıdakı mexanizmlərlə həyata keçirir:

"Ölkənin strateji inkişaf konsepsiyası çərçivəsində qarşıya qoyulan məqsədlərə çevik və keyfiyyətli nail olmaq üçün AMEA-nın struktur-funksional quruluşunda islahatların aparılması;

Birinci bənddə müəyyən edilən məqsəd kontekstində AMEA-da elmi fəaliyyətin təşkilinin yeniləşməsi;

İkinci bəndin daha konkret səviyyəsi kimi qəbul edilə bilən elmi-tədqiqat institutlarında Prezident İlham Əliyevin müəyyən etdiyi strateji inkişaf konsepsiyasına uyğun mövzuların tədqiqinə üstünlüyün verilməsi;

Bütövlükdə ən müasir yanaşmalardan faydalanmaq üçün AMEA-da rəqəmsallaşdırma və elektronlaşdırma prosesinin keyfiyyətcə yeni səviyyəyə yüksəldilməsi;

Nəhayət, qarşıya qoyulan vəzifələri tam yerinə yetirmək üçün AMEA üçün uyğun beynəlxalq əməkdaşlıq mühitinin yaradılması. Vurğulanan aspektdə ölkənin ali elmi təşkilatının beynəlxalq elmi əlaqələrinin daha da genişləndirilməsi, dərinləşdirilməsi və inkişaf etdirilməsi".

### AMEA-nın yeniləşmədə prioritetləri

Vurğulanan səviyyələr və istiqamətlər AMEA rəhbərliyinin müəyyən etdiyi 7 prioritet istiqamətlərdə konkret reallaşma ifadəsini tapmışdır. Onların birincisi AMEA-nı ölkəmizin əsas Azərbaycanşünaslıq mərkəzinə çevirməyi əsas vəzifə kimi müəyyən edir. İkincisi türk dünyası üzrə tədqiqatların miqyasının genişləndirilməsi və əməkdaşlığın yeni səviyyəyə yüksəldilməsi ilə bağlıdır. Üçüncüsü rəqəmsallaşma, süni intellekt və kibertəhlükəsizliklə əlaqəlidir.

Prezident İlham Əliyevin nitqi fonunda sonrakı prioritetləri də bir daha xatırlatmaq lazım gəlir. Onlar açağıdakılardır:

"4. Geniş mənada dünya elminə inteqrasiyanı məqsədyönlü şəkildə təşkil etmək məqsədilə beynəlxalq elmi təşkilatların işində yaxından iştirak etmək, ölkəmizi yüksək səviyyədə təmsil etmək, dünya elminin ən yeni təcrübələrini Akademiyaya tətbiq etməklə yeniləşməni daha da sürətləndirmək lazımdır.

5. Akademiyanın gəncləşdirilməsinin genişləndirilməsi üçün "Gənc Akademiya" layihəsinin həyata keçirilməsinə ehtiyac vardır.

6. Azərbaycan elmində, o cümlədən də Akademiyada doktorantura təhsilinin Qərb modelinə uyğunlaşdırılmasına ehtiyac vardır. Doktorantura özünəməxsus tədris planı, fənn proqramları, kredit vahidləri, dərs sistemi olan bir təhsil səviyyəsinə çevrilməlidir.

7. AMEA-da struktur islahatlarının davam etdirilməsi yolu ilə mövcud idarəetmə strukturlarının yeniləşdirilməsinə nail olmaq yeni tarixi dövrün irəli sürdüyü tələblərdəndir".

### Prezidentin tezisləri və ilk 3 prioritet

İlk üç prioritet prizmasında Azərbaycan rəhbərinin fundamental mahiyyətli tezislərinə baxaq. İlham Əliyev nitqində vurğulamışdır: "Süni intellekt. On il bundan əvvəl bu barədə heç kim heç nə danışmırdı. Bu gün artıq bu, ölkələrin gələcək inkişafının ayrılmaz hissəsidir. Biz burada geri qalmamalıyıq. Ona görə dövlət lazımi addımları atır. Biz hər zaman əsas aparıcı xəttin, yəni, "mainstream"in, əgər belə demək mümkündürsə, arxasınca gedirik və geri qalmamalıyıq. Ona görə Azərbaycanda süni intellektin həm inkişafı, həm də həyatda, iqtisadiyyatda, texnoloji inkişafda tətbiqi bu gün reallıqdır və əlbəttə ki, biz burada Azərbaycan alimlərinin fəal iştirakını gözləyirik.

Bu istiqamətdə aparılan digər islahatlar nəticəsində əldə edilmiş uğurlar rəqəmsallaşma ilə bağlıdır. Biz rəqəmsallaşmanı ölkəmizdə geniş miqyasda tətbiq edirik və bunun faydasını görürük...

Digər vacib məsələ kibertəhlükəsizliklə bağlıdır. İndi dünyada kiberhücumlar geniş vüsət alıb. Azərbaycan da bu hücumlara bu il məruz qalmışdır və Kibertəhlükəsizlik Mərkəzinin yaradılması vaxtında atılmış addımdır. Biz beynəlxalq tərəfdaşlarla, bu sahədə böyük təcrübəyə malik olan şirkətlərlə çox geniş proqramlar üzərində işləyirik ki, özümüzü maksimum dərəcədə qoruya bilək, müdafiə edə bilək. Çünki kibertəhlükəsizlik, yəni, virtual təhlükəsizlik deyil. Bu, hər bir ölkənin fiziki təhlükəsizliyidir. Bu gün həm müharibələrin, deməli, aparılma qaydaları dəyişir, təhlükələrin mənbələri dəyişir və dünya dəyişir..".

Dövlət başçısı süni intellekt probleminə aparıcı xəttin arxasınca getmək vərdişinə son qoymaq kontekstində yanaşması tam yerində və zamanındadır. Əgər süni intellekt dünya üçün "mainstream"dırsa və o dəyişirsə, yeniləşən Azərbaycan üçün də eyni tələb keçərlidir. Bəs buna necə nail olmaq mümkündür? İlham Əliyev dəqiq adresi göstərir: ELM!

Deməli, AMEA-nın prioritet istiqamətlər sırasında süni intellekt məsələsinə xüsusi yer verməsi həm düzgün addımdır, həm də strateji baxımdan Azərbaycanın qlobal miqyasda aparıcı xəttə ("mainstream") uyğunlaşması üçün əhəmiyyətli məqamdır. Çünki süni intellektin tərəqqi üçün aparıcı olması onun müxtəlif koqnitiv və sosial aspektlərdə ciddi, dərin və geniş araşdırılması əsasında mümkündür. AMEA-nın bu strateji vizyona uyğun prioritet müəyyən etməsi vacib məqamlardan biridir.

Eyni məntiqlə rəqəmsallaşma və kibertəhlükəsizliyin prioritet tədqiqat istiqamətlərinin tərkib hissəsi olması izah edilə bilər.

### 4–7-ci prioritetlər: Prezidentin tələbləri prizmasında

Vurğuladığımız anlamda dövlət başçısının nitqində irəli sürdüyü tezislərin işığında 4-7-ci prioritetlər də çox maraqlı təsir bağışlayırlar. Çünki onlar dövlət başçısının AMEA-nın 80 illik yubiley tədbirindəki nitqində bir daha vurğuladığı çox mühüm və aktual vəzifələrin reallaşması ilə sıx bağlıdırlar. Akademiyanın rəhbərliyinin müəyyən etdiyi 4-7-ci prioritetlərin məğzi aşağıdakı kimidir: "4. Dünya elminə inteqrasiyanı məqsədyönlü şəkildə təşkil etmək; 5. Akademiyanın gəncləşdirilməsinin genişləndirilməsi üçün "Gənc Akademiya" layihəsini həyata keçirmək; 6. Elm və təhsilin müasir tələblərə uyğun inteqrasiyasına nail olmaq; 7. Mövcud idarəetmə strukturlarını yeniləşdirimək".

Bunlardan ikisi kadrların yetişdirilməsinə (5 və 6-cı prioritetlər), biri idarəetməyə (7-ci prioritet) və biri də Azərbaycan elmini dünya elminə inteqrasiya etməyə aiddir (4-cü prioritet). Dünya elminə inteqrasiyanın bazasında kadrların hazırlanması vəzifəsi dayanır. Onun da ümumi istiqamətini elm və təhsilin inteqrasiyasının müasir tələblərə uyğunlaşdırılması təşkil edir.

Həmin prosesdə kadrların gəncləşdirilməsi xüsusi yer tutur ("Gənc Akademiya" onun akademik mahiyyətli yeni institutlaşması formasıdır). Əsas kadr qaynağı isə elmlə təhsilin optimal inteqrasiyası çətiri altında doktorantura sisteminin keyfiyyətcə yeniləşmsi ilə bağlıdır.

Digər aktual məsələ kimi elmi idarəetmənin yeniləşməsini vurğulaya bilərik. Yəni kadrların hazırlanması (gəncləşdirilmə mərkəzi kimi "Gənc Akademiya"nın davamlı inkişafı+doktorantura sisteminin gücləndirilməsi) ilə yanaşı elmi idarəetmənin yeniləşməsi də dünya elminə inteqrasiyada strateji mahiyyəti olan məsələdir. Bütövlükdə idarəetmənin yeniləşməsi, məqsədyönlü şəkildə komanda fəaliyyəti göstərə biləcək strukturların hazırlanması əsasında keyfiyyətli kadr hazırlığına nail olmaq mümkündür. Yeniləşmə kursunun bu aspektinin arxiəhəmiyyətli olduğu Azərbaycan Prezidentinin sosio-humanitar sahə ilə bağlı nitqində ifadə etdiyi iki məsələnin işığında daha aydın görünür.

Birincisi, ölkə rəhbəri ifadə etmişdir: "Bu gün də bu barədə danışmaq istəyirəm ki, biz öz tariximizi tədqiq və təbliğ etməliyik. Azərbaycan vətəndaşları, Azərbaycan gəncləri bizim zəngin tariximizi bilməlidirlər. Bilməlidirlər ki, Azərbaycan xalqının tarixi, dövlətçilik tariximiz, xalqımızın qurub-yaratma qabiliyyəti çoxəsrlidir. Azərbaycan xalqı böyük coğrafiyada yaşayıb və yaşayır".

Buradan dövlət başçısı olduqca vacib olan demoqrafiyanın siyasi kontekstinə keçir. İlham Əliyev deyir: "Təkcə onu demək kifayətdir ki, bizim hüdudlarımızın o tayında hər istiqamət üzrə Azərbaycan əhalisi yaşayır. Ermənistanda da yaşayıb, amma oradan qovulub. Amma əminəm ki, yenə də yaşayacaq. Çünki biz bu gün bütün qonşu ölkələrlə sərhədlərimizin o tayında görürük ki, orada Azərbaycan əhalisi öz əzəli tarixi torpaqlarında yaşayır və yaşadıqları ölkələrdə ləyaqətli vətəndaşlar kimi yaşayırlar".

Bu fikirlərdə məharətlə demoqrafik xarakteristikanın fəlsəfi və politoloji aspektləri vəhdətdə ifadə edilmişdir. Birincisi, Azərbaycan xalqı müasir Azərbaycan Respublikasının hazırkı siyasi-coğrafi sərhədlərini aşır. Ancaq sərhədlərin o tayında yaşayan azərbaycanlılarla həyat tərzi siyasi mentaliteti, psixologiyası və sosial davranışları tam üst-üstə düşür. Konkret olaraq, Azərbaycan Respublikası dövləti və cəmiyyəti kimi sərhədin o tayında yaşayan azərbaycanlılar da sülhsevər, barışcıl, separatizmdən uzaq toplumlardır. Həm də onlar yaşadıqları ölkələrin dövlətçiliyinə zidd heç bir fəaliyyət göstərməmişlər və göstərməyəcəklər! Bu səbəbdən azərbaycanlılar hər ölkədə ləyaqətli vətəndaşlardırlar!

Prezidentin nitqindən bu bağlılıqda bir fraqment: "Azərbaycanlılar heç vaxt separatizm xəstəliyinə düçar olmamışlar. Bizim xalqımız yaşadığı ölkələrin dövlətçiliyinə töhfə verib və bu gün heç bir ölkədə azərbaycanlılar heç bir dövlət üçün, heç bir başqa xalq üçün problem yaratmır və yaratmayacaq".

Bu əsasda Azərbaycan rəhbəri çox prinsipial bir qənaətə gəlir və onu aşağıdakı kimi formulə edir: "Ona görə azərbaycanlıların indiki Ermənistana qayıtması Ermənistan xalqını və dövlətini qorxutmamalıdır".

Bütün bunların fonunda dövlət başçısı Azərbaycan alimləri qarşısına dövlətçilik baxımında böyük əhəmiyyəti olan iki vəzifə qoyur. Onlardan biri tarixin dərin fəlsəfi, politoloji, kulturoloji, antropoloji və s. öyrənilməsi əsasında Böyük Qayıdışın adekvat elmi obrazını yaratmaqla bağlıdır. Digəri isə ana dilimizin dövlət dili kimi şəffaflığını, cəmiyyətdəki statusunu və funksionallaşmasını ciddi yeni fəlsəfi–elmi əsaslarla tədqiq etmək bazasında, onun linqvistik, kommunikativ və təsir faktoru olaraq yeni səviyyəyə yüksəltməyin nəzəri-metodoloji obrazını yaratmaqdan ibarətdir.

Hər iki vəzifə elmi baxımdan çox əhəmiyyətlidir və onların AMEA-nın yeniləşmə kursu çərçivəsində yerinə yetirilməsi tamamilə mümkündür! Lakin məsələnin bu tərəfi ayrıca təhlil edilməlidir! Bununla bağlı, xüsusi məqalələr silsiləsi nəzərdə tuturuq.

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

# Azərbaycan–NATO: əməkdaşlıq hədəfləri



**Noyabrın 6-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə səfərdə olan NATO nümayəndə heyəti ilə görüşüb.**

Nümayəndə heyətinə Türkiyə, Yunanıstan, Macarıstan, Monteneqro, Niderland, Şimali Makedoniya, Norveç, Slovakiya, Sloveniya, İsveç, Çex, Portuqaliya, İspaniyanın NATO-dakı daimi nümayəndələri, eləcə də ABŞ və Fransanın NATO-dakı daimi nümayəndələrinin müavinləri daxildir.

Görüşdə Azərbaycan və NATO əməkdaşlıq gündəliyinin əsas aspektləri, habelə regional və beynəlxalq təhlükəsizlik məsələləri, Azərbaycan ilə Ermənistan arasında sülh prosesinin cari vəziyyəti və perspektivləri müzakirə olunub.

İşğal tarixi, postmünaqişə dövründə bölgədə mövcud təhlükəsizlik vəziyyətindən bəhs edən nazir Ceyhun Bayramov Vaşinqton Sammiti çərçivəsində əldə olunmuş razılıqlar və sülh perspektivləri, bölgədə nəqliyyat dəhlizləri üzrə planlar barədə səfirlərə məlumat verib. Bunununla yanaşı, bölgədəki mina təhdidi diqqətə çatdırılıb.

***XQ***

# QHT-lər və "Qərbi Azərbaycana qayıdış"



**Noyabrın 6-da QHT-lərə Dövlət Dəstəyi Agentliyinin təşkilatçılığı ilə Bakı Konqres Mərkəzində "Qərbi Azərbaycana qayıdış" mövzusunda ictimai müzakirə keçirilib.**

Toplantının moderatoru, "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasının sədri, professor Fuad Məmmədov bildirib ki, AMEA-nın 80 illik yubileyinə həsr olunmuş yığıncaqda Prezident İlham Əliyevin proqram xarakterli çıxışı Azərbaycan QHT-ləri qarşısında da yeni çağırışlar və vəzifələr müəyyənləşdirir. "Azərbaycan QHT-ləri Qərbi Azərbaycan mövzusu istiqamətində fəaliyyətini daha da gücləndirməlidir. Azərbaycanlıların indiki Ermənistana sülh şəraitində dinc yolla qayıdışı təməl insan hüquqları məsələsidir. Prezident İlham Əliyevin vurğuladığı kimi, bu, Ermənistan xalqını və dövlətini qorxutmamalıdır", - deyə o əlavə edib.

QHT-lərə Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru Aygün Əliyeva Qərbi Azərbaycan mövzusunda QHT layihələrinin keyfiyyət və kəmiyyət göstəricilərinin getdikcə yüksəldiyini açıqlayaraq deyib: "Əgər 2022-ci ildə bu istiqamət üzrə Agentlik xətti ilə 24 layihə maliyyələşdirilmişdisə, 2025-ci ildə belə layihələrin sayı 51-ə çatıb. Bu, rekord göstəricidir".

Azərbaycan Milli QHT Forumu İdarə Heyətinin üzvü Zaur İbrahimli, "Azərbaycan Kartoqrafları" İctimai Birliyinin sədri Müqabil Bayramov, "Konstitusiya" Araşdırmalar Fondunun rəhbəri Əliməmməd Nuriyev, Mirzə Ələkbər Sabir Fondunun sədri Sevda Tahirli, Azərbaycan Gənc Müəllimlər Assosiasiyasının təmsilçisi Pərvinə Qədimova, "Çapar-Milli İrsin Tədqiqi Mərkəzi" İctimai Birliyinin sədri Dilqəm Əhməd çıxış edərək müzakirə olunan mövzunun müxtəlif aspektləri barədə fikirlərini bölüşüblər.

***XQ***

# Tbilisidə Zəfər Günü qeyd olunub



**Noyabrın 6-da Azərbaycanın Gürcüstandakı səfirliyinin təşkilatçılığı, Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə Tbilisidə Şota Rustaveli adına Milli Teatrda 8 Noyabr Zəfər Günü münasibətilə bayram şənliyi keçirilib.**

Bayram konsertini Azərbaycan və Gürcüstan parlamentlərinin deputatları, Qazaxıstanın və Türkmənistanın səfirləri, Türkiyə səfirliyinin əməkdaşları, hər iki ölkənin dövlət və hökumət rəsmiləri, SOCAR-ın Gürcüstan nümayəndəliyinin, AZEBİ-nin rəhbərliyi və üzvləri, icma üzvləri, ictimaiyyət nümayəndələri izləyiblər.

Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev dövlətimizin sülhsevər siyasəti, torpaqlarımızın işğaldan azad olunması üçün atılmış diplomatik addımlar barədə ətraflı məlumat verib. O, Gürcüstanda yaşayan soydaşlarımızın Azərbaycana göstərdiyi böyük maddi və mənəvi dəstəyi yüksək qiymətləndirərib.

Diasporla İş üzrə Dövlət Komitəsinin sədr müavini Vaqif Seyidbəyov Vətən müharibəsi zamanı xalqımızın və dünya azərbaycanlılarının birliyindən danışıb. Milli Məclisin deputatı Arzu Nağıyev savaş dövründə Gürcüstan dövlətinin hava məkanını bağlamasını yüksək qiymətləndirib.

Sonra mərasimi konsert proqramı ilə davam edib. Müğənni Zamiq Hüseynov vətənpərvərlik mövzusunda mahnılarla, Gürcüstanın Dövlət Rəqs Akademiyasının "Erisioni" dövlət ansamblı rəqs nömrələri ilə çıxış edib.

***XQ***

# Mərkəzi Bank Şirvanda görüş keçirib

**Maliyyə xidmətləri sahəsində vətəndaşların hüquqlarının qorunması, habelə onlara göstərilən xidmət səviyyəsinin yüksəldilməsi istiqamətində Azərbaycan Respublikasının Mərkəzi Bankı (AMB) Şirvan şəhərində vətəndaşlarla səyyar görüş keçirib.**

AMB-dən bildirilib ki, vətəndaşların müraciətləri əsasən rəsmiləşdirilmiş kredit müqavilələri üzrə mövcud faiz dərəcələrinin aşağı salınması, aylıq kredit ödəniş məbləğlərinin azadılması olmaqla, ümumilikdə kredit öhdəlikləri üzrə güzəşt istənilməsi ilə bağlı olub.

Müraciətlər üzrə görüşdə iştirak edən vətəndaşlara Mərkəzi Bankın qanunvericiliklə müəyyənləşdirilmiş səlahiyyətləri çərçivəsində məlumat verilib.

***XQ***

# Heydər Əliyev elmimizin və alimlərimizin böyük himayədarı idi

**Milli Elmlər Akademiyasının 80 illik yubileyində Prezident İlham Əliyevin iştirakı və nitqi dövlətimizin başçısının elmə, təhsilə və ziyalılara göstərdiyi dərin diqqət və hörmətin bariz göstəricisidir. Dövlət başçısı çıxışında ulu öndər Heydər Əliyevin dövlətçilik zəkası, uzaqgörən siyasəti və milli düşüncəyə əsaslanan yanaşması nəticəsində ölkədə elmin inkişafı üçün möhkəm ideoloji, maddi və institusional baza formalaşdığını vurğuladı.**





Ümummilli liderin elmə və alimlərə tarixi qayğı və diqqətinin bu gün də davam etdiyini, yaşadığını, yeni formalarla zənginləşdiyini diqqətə çatdıran Prezident qeyd etdi ki, ulu öndər Heydər Əliyev hər zaman Azərbaycan alimlərini dəstəkləmək üçün öz səylərini əsirgəmirdi.

Dövlət başçısının çıxışındakı məqamlar həmin dövrü gözlərim önündə canlandırdı, o unudulmaz hadisələrin şahidi kimi xatirələrimi bölüşmək istədim. Öncə onu deyim ki, Azərbaycan tarixində bir epoxa olan, xalqın tarixi müqəddəratında həlledici rol oynayan, adı tariximizə qızıl hərflərlə yazılan Heydər Əliyev milli-mənəvi dəyərlərimizin qorunmasına və təbliğinə xüsusi qayğı göstərirdi.

Yaradan ona elə bir fitri istedad vermişdi ki, o, hər sahəni mükəmməl bilirdi. Əvvəlcə bu sahələrdən birinə – folklora münasibətindən söz açmaq istəyirəm. Ulu öndərin folklor haqqında heyrətamiz bələdliklə mülahizələr yürütməsi, məsələnin kökünə nüfuz etməsi, onun fitri istedadından və milli-mənəvi dəyərlərimizə tükənməz məhəbbətindən qaynaqlanırdı.

Əminliklə deyə bilərik ki, şifahi və yazılı ədəbiyyatımızın başlanğıcı və tükənməz enerji mənbəyi “Kitabi-Dədə Qorqud” o dahi şəxsiyyətin sayəsində layiqli yerini tutdu. Yaşlı nəsil unutmayıb ki, keçən əsrin 40–50-ci illərində “Kitabi-Dədə Qorqud” yasaq edilmişdi. Həmid Araslı və Məmmədhüseyn Təhmasib akademik V.Bartoldun ruscaya çevirdiyi “Kniqa moeqo Deda Korkuda” kitabını 1950-ci ildə Bakıda Elmlər Akademiyası nəşriyyatında çap etdirdiklərinə, Əbüləzəl Dəmirçizadə uşaqlar üçün “Dədə Qorqud” mövzuları əsasında “Qaraca Çoban” pyesi yazdığına, Səməd Vurğun şair fəhmi ilə bu ölməz abidənin işıqlı gələcəyini görərək onu “Gələcəyin toy-bayramı” şeirində tərənnüm etdiyinə görə, başları çox bəlalar çəkdi. Əvvəlcə partiya yığıncağında kəskin tənqid olundular, 1951-ci ilin may ayında isə Yazıçılar İttifaqının iclasında “səhvlərini” etiraf etsələr də, az qala onları pantürkist damğası ilə həbs edəcəkdilər.

Ulu öndər “Kitabi-Dədə Qorqud”a yazdığı “Ön söz”də göstərir ki, o dövrdə elə bir iclas, elə bir qurultay, elə bir konfrans olmazdı ki, orada “Dədə Qorqud” tənqid olunmasın. Eposa qadağa damğası vurulmuşdu.

Eposun elmi-ədəbi fikir dövriyyəsinə daxil olmasında Heydər Əliyevin xidmətləri ölçüyəgəlməzdir. Tədqiqatçıların qeyd etdiyi kimi, Ulu öndərimiz hakimiyyətə yenidən qayıtdıqdan sonra milli düşüncənin bütün sahələrindən daha çox ədəbiyyatda coşqun “Kitabi-Dədə Qorqud” dövrü başladı. Xalq şairi Zəlimxan Yaqub deyirdi ki, “Manas”ın 1000 illik yubileyində Ulu öndərimiz də iştirak edirdi.

Təntənəli yığıncaqdan sonra bizə ayrılmış çadırlara yenicə gəlmişdik ki, dedilər, Heydər Əliyev hamımızı öz çadırına çağırır. Getdik. Onun ilk sözü bu oldu: “Kitabi-Dədə Qorqud”un başlanğıc cümləsi necədir? Şübhəmiz yox idi ki, Ulu öndər onu bizdən də yaxşı bilirdi. Bununla belə, dedik: “Rəsul Əleyhissəlamın zamanına yaqın Bayat boyundan Qorqud Ata derlər, bir ər qopdu”. Sonra məlum oldu ki, öndərimiz o söhbəti təsadüfi salmamışdı.

Bakıya qayıdandan sonra Heydər Əliyev “Kitabi-Dədə Qorqud” eposunun 1300 illiyinin beynəlxalq səviyyədə keçirilməsi barədə 20 aprel 1997-ci il tarixli fərman imzaladı. Dövlət səviyyəsində tədbirlər planı tutuldu. Alimlərin 3 illik fəaliyyətinin nəticəsində ikicildlik “Kitabi-Dədə Qorqud” ensiklopediyası meydana gəldi.

Dövlət başçısı bu möhtəşəm eposu “Ön söz”də yüksək dəyərləndirərək yazırdı: “Dünya qorqudşünaslığı “Kitabi-Dədə Qorqud”un istər etnik, mənşə, istər tarixi-coğrafi, ərazi, istərsə də dil və məfkurə baxımından Azərbaycan xalqına mənsub olması fikrini qəti şəkildə təsdiq edir. “Kitabi-Dədə Qorqud”un Azərbaycan tarixi üçün ən böyük, ən əsas və ən birinci xidməti bundan ibarətdir...”

Onu da deyim ki, “Kitabi-Dədə Qorqud”un 1300 illik yubileyinin ümumdünya miqyasında keçirilməsi barədə UNESCO-nun qərarı vardı. 2000-ci ildə keçirilən yubiley tədbirində Heydər Əliyev geniş məruzə ilə çıxış etdi. “Kitabi-Dədə Qorqud”un Azərbaycan xalqına məxsus olmasının təsdiqi Ulu öndərimizin ən böyük xidmətlərindən biri idi.

Unudulmaz şəxsiyyət Heydər Əliyevin əvəzsiz xidmətlərindən biri də Novruz bayramının dövlət səviyyəsində bayram edilməsinə rəvac verməsi idi. 1979-cu ildə İçərişəhərin Qoşa Qala Qapısı meydanında möhtəşəm Novruz bayramı şənlikləri keçirildi. Ulu öndərimiz dövlət rəsmiləri və cənab İlham Əliyevlə meydandan keçib gedirdi. Onlar da dayanıb səsləndirilən aşıq mahnısını axıra qədər dinlədilər.

Ümummilli lider Heydər Əliyev milli muğamı da, klassik musiqini də, aşıq musiqisini də çox sevirdi. Aşıq sənətini yüksək qiymətləndirirdi. Təsadüfi deyildir ki, “Aşıqlar Birliyi” və “Aşıq Pəri məclisi” onun xeyir-duası ilə yaranıb. Aşıq Ələsgərin, Aşıq Alının, Aşıq Şəmşirin yubileylərinin keçirilməsi barədə sərəncamlar imzalamışdı. Aşıq Ələsgərin 150 illiyinin Moskvada “Qurultaylar sarayı”nda keçirilməsi əlamətdar hadisə idi. Aşığın poeziyası Vladimir Qafarov tərəfindən rus dilinə tərcümə edilərək kitab halında çap olundu və rus oxucularına təqdim edildi.

Böyük rəhbər görkəmli şəxsiyyətlərin yubileylərinin keçirilməsini zəruri sayırdı. Xüsusi vurğulayırdı ki, yubileylərin keçirilməsi bir tərəfdən onların xalq qarşısında xidmətlərinə verilən qiymətdir, digər tərəfdən xalqın zənginliyini nümayiş etdirməkdir. Ümumxalq məhəbbəti qazanan, hamının intizarla gözlədiyi “Ozan” və “Bulaq” verilişləri də Heydər Əliyevin ölkəyə rəhbərliyi dövründə yaranmışdı. “Ozan” televiziya verilişinin Dövlət mükafatına təqdim edilməsi çox mətləblərdən xəbər verirdi.

Ulu öndərin folklorumuza olan dərin məhəbbətinin nəticəsi əvvəlcə “Folklor elm mərkəzi”nin (1994), sonralar isə analoqu olmayan “Folklor İnstitutu”nun yaradılması (2003) oldu. Folklor İnstitutunda “Dədə Qorqud” şöbəsi yarandı və “Dədə Qorqud” jurnalı nəşrə başladı. İndi institutda “Aşıq yaradıcılığı”, “Mərasim folkloru”, “Türk xalqları”, “Folklor və yazılı ədəbiyyat”, “Cənubi Azərbaycan folkloru” və başqa şöbələr fəaliyyət göstərir və öndərimizin həmişə diqqət mərkəzində olan milli-mənəvi dəyərlərimizin qorunması və təbliği yolunda müstəsna işlər görülür.

Ötən il dahi Füzulinin 530 illiyi ilə əlaqədar möhtərəm Prezidentimizin verdiyi sərəncam ulu öndərimiz Heydər Əliyevin kursunun əbədiliyinin göstəricisidir. İkinci xatirəm bununla bağlıdır. 1994-cü ildə Füzulinin 500 illik yubileyi ərəfəsində qərb dövlətləri İraq Respublikası nefti milliləşdirdiyinə görə başqa ərəb ölkələrinə görk olsun deyə onu cəzalandırmaq qərarına gəlmişdi. Ölkə elə blokadaya alınmışdı ki, İraq başqa ölkələrə hava-su kimi lazım olan neftini də sata bilmirdi. Ölkə ağır maliyyə çətinlikləri ilə üzləşmişdi. Bu səbəbdən bəzi ölkələrdə, eləcə də Azərbaycanda səfirliyini bağlamaq qərarına gəlmişdi...

Filarmoniyada yazıçıların qurultayının keçirildiyi vaxt mərasimin başlamasına az qalmış təəssüflə ürəyimdən keçirdim: “Bu qurultayımız Heydər Əliyevsiz keçirəcəyimiz yeganə qurultay olacaq”. Elə bu vaxt kimsə arxadan qışqırdı: “Heydər Əliyev gəlir!” Hamı ayağa qalxıb sürəkli alqışlarla həmişə yazıçıların dayağı olmuş bu görkəmli şəxsiyyəti layiq olduğu səviyyədə qarşıladı. Nəhayət Heydər Əliyev əlini qaldıraraq sakitləşməyi xahiş etdi. Yazıçılar Birliyinin sədri Anar Ulu öndəri Rəyasət Heyətinə dəvət etdi. Heydər Əliyev: “Anar, mən oradan zala çox baxmışam. Bu dəfə zaldan Rəyasət Heyətinə baxmaq istəyirəm” – deyib zalda əyləşdi.

Şair Məmməd Aslan başda olmaqla bir qrup dayanmadan qışqırdı: “Heydər Əliyev Rəyasət Heyətinə dəvət olunsun!” Anar müəllim dedi ki, Məmməd, sakit olun! Qərar Heydər Əliyevindir.

Qurultayın gedişində millət atası son aylar Füzulinin mavzoleyinin sökülməsi və qəbrin düzəldilməsi barədə mətbuatda yer alan söz-söhbətə də toxunuldu. Bəziləri tələb edirdi ki, Füzulinin nəşi Azərbaycana gətirilsin. Onlar dövləti fəaliyyətsizlikdə günahlandırırdı. Heydər Əliyev dedi ki, əvvəla, bu, çox çətin məsələdir. Məlumdur ki, Füzuli İraqda anadan olub, orada yaşayıb-yaradıb, orada da dünyasını dəyişib. O, İraq şairi kimi tanınır. Bu işə dövlətin qarışması münasib deyil. Siz yazıçılar, ziyalılar, alimlər müraciət edə bilərsiniz...

Müraciət forması üzərində qızğın mübahisələr başladı. Hər ağızdan bir avaz çıxırdı. Mübahisəyə Heydər Əliyev qarışmalı oldu: “Bu işi Teymur Əliyev (şair Teymur Elçin) yaxşı bilir. O buradadırmı?” Teymur Əliyev ədəb-ərkanla ayağa qalxıb: “Bəli, Heydər Əliyeviç, burdayam!”–dedi. Teymur müəllim elə bir müraciət forması irəli sürdü ki, kimsə etiraz etmədi. Qurultay bitəndə Heydər Əliyevi uzun sürən sürəkli alqışlarla yola saldıq. Mənə görə bu, ən yaxşı qədirşünaslıq əlaməti idi.

Vaxt keçdi. Çox hadisələr baş verdi. İraq səfirliyinin bağlanmasına görə də məsləhət görüldü ki, İraq Prezidentinə ziyalılar müraciət etsin. Səfirlik və ziyalılarımızla əlaqə uzun müddət İraqda işləmiş bir adam kimi mənə həvalə olundu. Müraciətimiz İraq Prezidentinin çox xoşuna gəlmişdi. İraq səfirliyi Azərbaycanda fəaliyyətini davam etdirdi.

Ulu öndər dəyirmanda un, tabaqda çörək, xəzinədə pul çox az olan bir vaxtda, 1994-cü ilin sentyabrında 128 nəfərdən ibarət nümayəndə heyətinin Füzulinin 500 illik yubileyində iştirak etmək üçün avtobuslarla İraqa getməyinə göstəriş verdi. İraq tərəfi blokada şəraitində olsa da, nümayəndə heyətini məmnuniyyətlə qəbul etdi. Bizə hər cür şərait yaradıldı. Noyabrın 2-də isə Ankaraya Füzulinin yubileyinə Heydər Əliyevin təyyarəsində getdik.

Hər dəfə ümummilli lider Heydər Əliyev haqqında düşünəndə iftixar hissi keçirirəm ki, mən də bu nadir tarixi şəxsiyyətin soydaşıyam. Ulu öndərin ölkəyə rəhbərliyinin hər iki dövründə onun titanik fəaliyyətini izləmək, adı və əməlləri Azərbaycan tarixinə qızıl hərflərlə yazılan bu dahi insanın xalqımız qarşısında, dövlətçiliyimizin dirçəldilməsi və möhkəmləndirilməsində misilsiz xidmətlərinin şahidi olmaq kimi xoşbəxtliyi mən də yaşamışam.

Möhtərəm Prezidentimiz İlham Əliyevin xüsusi sərəncamı ilə 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsinin də böyük əhəmiyyəti var idi. Sərəncam bizə imkan verdi ki, ağır vaxtlarda ölkəmizin taleyinə cavabdehlik missiyasını şərəflə, sədaqətlə yerinə yetirən müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, həyat yolu ölkəmizin çağdaş siyasi tarixi ilə ortaqlaşmış Heydər Əliyevin gördüyü möhtəşəm işlərin miqyasına bir daha nəzər salaq.

İlboyu davam edən yubiley ab-havasında ziyalılar, qələm sahibləri, elm adamları, Ulu öndərin sədaqətli silahdaşları, rəhbərliyi altında işləmiş ağsaqqallar, bir daha bu dahi şəxsiyyət haqqında qədirşünaslıq əlaməti olaraq söz demək, məqalələr, kitablar, monoqrafiyalar yazmaq imkanı əldə etdilər. Bir daha aydın oldu: Heydər Əliyev elə bir sahilsiz ümman, elə bir möhtəşəm abidədir ki, onun miqyası, çəkisi, önəmi zaman keçdikcə daha yaxından görünəcək, daha dərindən dərk ediləcək.

Azərbaycan Milli Elmlər Akademiyasında Ulu öndərin 100 illiyinə həsr olunmuş Elm günündə söylənənlər zamanın Heydər Əliyev dühasına qiymətinin yeni bir səhifəsi kimi yaddaşlarda qaldı. Çıxış edən akademiklərdən İsa Həbibbəyli, geoloq alim Akif Əlizadə, heykəltaraş Eldar Ömərov, Respublika Ağsaqqallar Şurasının sədri Eldar Quliyev, Milli Məclisin Mədəniyyət komitəsinin sədri Fazil Mustafa, Elm və Təhsil Nazirliyinin şöbə müdiri Turxan Süleyman Ulu öndərin gördüyü misilsiz işlərdən, Prezident İlham Əliyevin Ümummilli liderin kursunu sədaqətlə davam etdirməsinin uğurlu nəticələrindən məhəbbətlə danışdılar.

Toy-bayrama çevrilən Elm günündə bir çox alimlərimizin, xüsusən də akademiklərin “Heydər Əliyev – 100” medalı və başqa nominasiyalar üzrə təltif olunması mərasimə ikiqat təntənə gətirdi. Mən isə əsərlərinə ən çox istinad edilən alim kimi “İstinadda rekord” diplomu ilə təltif olundum. “Heydər Əliyev İli”ndə mükafat almağıma sevinirəm.

Bir xatirəmi də danışım. Az adam bilir ki, Ulu öndər mənim də taleyimdə müstəsna rol oynayıb. Dillər İnstitutunun ingilis-Azərbaycan dilləri fakültəsində IV kurs tələbəsi olarkən xaricdə tərcüməçi işləmək üçün sənəd hazırlamışdım. İkinci Dünya müharibəsi vaxtı atam neytral dövlət olan İsveçrəyə gedib çıxmışdı. O, əsir düşməmişdi, bununla belə, sovet quruluşunun belə hallara qarşı amansızlığını göz önünə gətirəndə şansımın az olduğunu düşünürdüm.

On iki il Ulu öndərin rəhbərliyi altında işləmiş general və gözəl yazıçı Yasif Nəsirli şahid idi ki, Heydər Əliyev mənim həmin sənədlərimi diqqətlə oxuyub imzaladı və dedi: “Gəncdir, qoy getsin, inkişaf etsin”.

Ümummilli liderin şəxsiyyətinə və gördüyü möhtəşəm işlərə dərin hörmət və sonsuz məhəbbətimi əvvəllər də, “Heydər Əliyev İli”ndə də etdiyim məruzələr, yazdığım çoxsaylı məqalələr və Ulu öndər epoxasına, İlham Əliyevin liderliyinə həsr etdiyim, akademik İsa Həbibbəylinin “Xilaskardan xilaskara” adlı ön sözü ilə çap olunan “Xilaskarlar” kitabımda göstərməyə çalışmışam. Mətbuatda yüksək qiymətləndirilən, Milli Kitabxanada təqdimatı keçirilən “Xilaskarlar” kitabım 2022-ci ildə Tehranda “Naqus” nəşriyyatında da çap edildi.

“Heydər Əliyev İli”ndə Ulu öndər haqqında Tovuz rayon ziyalıları və fəalları qarşısında, AMEA-nın Ədəbiyyat İnstitutunda, BDU-nun Ümummilli liderə həsr olunan yığıncağında, BDU-nun informasiya və sənət menecmenti fakültəsində, Azərbaycan Universitetində, Məhkəmə Ekspertiza Mərkəzində, Milli Kitabxanada, Yazıçılar Birliyində və başqa mötəbər müəssisələrdə məruzələrlə çıxış etmişəm. AMEA-da akademiyanın müxbir üzvü, professor Misir Mərdanovun “Heydər Əliyev: Xalqa həsr olunmuş ömür” kitabının təqdimatında da məruzə etmişəm.

“Heydər Əliyev İli”ndə Yazıçılar Birliyinin hazırladığı, Azərbaycanda və Türkiyədə çap olunan “Ədəbi ömrün yüz ili” və “Azərbaycan reallığında Heydər Əliyev epoxası” kitablarında məqalələrim çap olunub. Bundan əlavə, professor Misir Mərdanovun “Heydər Əliyev: Xalqa həsr olunmuş ömür” kitabı haqqında mətbuatda “İbrətamiz və bənzərsiz əsər” adlı məqaləm, “Heydər Əliyev və İlham Əliyev Nostradamusun görücülüyündə” adlı yazım işıq üzü görüb. Ümummilli lider haqqında yazılarımı indi də davam etdirirəm. “Ulu öndər və unudulmaz xatirələr” məqaləm çap olunub.

Ulu öndərlə bağlı xatirələrim çoxdur. Əsasən də doğma kəndim Düzqırıxlıda (Tovuz rayonu) keçən əsrin 70-ci illərində Ulu öndərin 3 dəfə (1975, 1977, 1980) respublika üzümçülərinin zona müşavirəsini keçirərkən baş verən maraqlı hadisələr barədə “Xilaskarlar” kitabımda ətraflı söhbət açmışam. Onu da deyim ki, Ulu öndər yeni bir üzüm sortunu bizim kənddə Xəlfəqulu oğlu Abbasın sahəsində əkmişdi.

Ümummilli lider Abbas kişinin bol məhsullu üzüm sahəsində olarkən demişdi: “Ağsaqqal, biz Bakıdan gəlmişik, nəyə ehtiyacın var, arzun nədir?” Abbas kişi demişdi: “Qadan alım, heç nəyə ehtiyacım yoxdur. Arzum isə odur ki, gedək qonağım ol, beş-altı toğlum var, birini kəsim. Siz gedəndən sonra qürrələnim ki, böyük bir adam qonağım olub”. Heydər Əliyev ürəkdən gülərək söyləmişdi: “Bizim böyük olduğumuzu haradan bildin?”. Cavab belə olmuşdu: “Qadan alım, bunu bilməyə nə var ki? Yaşım 70-dən yuxarıdır, ömrümdə bir kişinin başına bu qədər adam yığışdığını görməmişəm”. Ulu öndər yenə ürəkdən gülmüş və demişdi: “İndi tələsirik. Çalışaram, gələn dəfə qonağın olum”.

Kitabda əksini tapmayan ibrətamiz bir məsələdən də danışmaq istərdim. Ulu öndər yüksək vəzifədən kənarlaşandan sonra onun portretlərini hər yandan kənarlaşdırırdılar. Kiçik qardaşım Ələsgər müəllim Ulu öndərin portretlərini iki kənd orta məktəbindən, sovxoz və kənd soveti idarələrindən, xəstəxanadan, sənət məktəbindən, Heydər Əliyevin Respublika Üzümçülərinin Zona Müşavirəsini keçirdiyi klubdan yığaraq evinə gətirmişdi. Portretləri bir otağa yığmışdı. Özü də o otaqda yatırdı. Maraqlıdır ki, Heydər Əliyev xalqın istəyi ilə yenidən hakimiyyətə gələndə həmin portretlər əvvəlki yerini bəzədi. Onu da deyim ki, nəslimizdə Ulu öndərə məhəbbət sahilsiz ümmana bənzəyir. Ələsgər müəllimin qızı, mərhum deputat Qənirə Paşayeva belə bir mühitdə böyümüşdü.

Mənim də başıma heç vaxt unutmayacağım bir hadisə gəlib. BDU-nun tarix fakültəsində dərs deyirdim. Ağır vaxtlar idi. Ölkə çalxalanırdı. Milli-mənəvi dəyərlər tapdanırdı. Bir gün 2 gənc tələbəm – Müşfiq və Elnur sual verdilər: “Müəllim, ölkədəki vəziyyətdən nicat yolunu nədə görürsünüz?”. Mən fikirləşmədən dedim: “Ölkəni bu vəziyyətdən yalnız Heydər Əliyev çıxara bilər”. O vaxt Ulu öndər hələ Naxçıvanda idi. Bu qənaətimə görə məni təqib etdilər. Ünvanıma nalayiq sözlər yağdırdılar, düz bir ay dərsimi pozdular...

Möhtərəm Prezidentimiz İlham Əliyevin xüsusi sərəncamı ilə 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi alimlərimizin ilhamla, coşqunluqla yazıb-yaratmağına stimul oldu. Yubileyin səngiməyən dalğası Ulu öndərin anadan olmasının 102-ci ildönümü günlərinədək sonsuz sevgi-sayğılarla davam etdi.

Ümummilli lider Heydər Əliyevi xalqımıza bəxş etmiş tarixi günün bu il də coşqu və qədirbilənliklə qeyd edilməsi xalqımızın öz əbədi liderinə sevgi və ehtiramının növbəti ifadəsidir. Onun elm adamlarına, dilimizə göstərdiyi müstəsna diqqət və qayğı hər bir ziyalının yoluna işıq tutub və bu işıq hələ uzun illər xalqımızın, o cümlədən elm adamlarımızın yolunu aydınladacaq.

*Qəzənfər PAŞAYEV,*
*Əməkdar elm xadimi, professor*

*Təqvim yada salır*

# Neft Daşları – dünyada ilk polad neftçilər adası

*(əvvəli 1-ci səhifədə)*

Zaman keçdikcə insan zəkasının şah əsəri olan Neft Daşları "möcüzələr adası", "dünyanın səkkizinci möcüzəsi" kimi dəyər qazanır. Yeri gəlmişkən, Neft Daşları polad dirəklər üzərində salınmış ilk neft şəhəri kimi "Ginnesin Rekordlar Kitabı"na düşüb. Avropada ilk dəfə olaraq dərinliyi 3 min 183 metr, mailiyi 2 min 40 metr olan quyu isə qazma sürətinə görə rekord qazanıb.

Xatırladaq ki, "Neft daşları" yatağı Xəzər dənizində, Bakı şəhərindən 110 kilometr şərqdə, Pirallahı qəsəbəsindən 50 kilometr cənub-şərqdə yerləşir. Burada ilk kəşfiyyat quyusunun qazılmasına 1949-cu il iyunun 24-də başlanıb. İstismar müddətini başa vurmuş "Çvanov" gəmisinin qrunta batırılması yolu ilə yaradılmış süni buxtadan 942 metr dərinliyə, Qala lay dəstəsinə qazılan quyu noyabr ayının 7-də gündəlik 100 ton debitlə istismara saxil edilib. Beləliklə, Azərbaycanın möcüzə yaradan neftçiləri "Qara Daşlar"ın əsrlər boyu gizlətdiyi sirrin üstünü açmağa müvəffəq olublar.

1949-cu ilin soyuq, küləkli dekabr günlərində ilk quyunun buruğunu növbəti qazma sahəsinə keçirən neftçilər böyük çətinliklə üzləşirlər. İlk baxışdan quyunun qazılmasına hazırlıq işləri olduqca çətin görünsə də, peşəkar neftçilərimiz bunun da öhdəsindən gəlirlər. Tanınmış neft mütəxəssisləri Sabit Orucov, Ağaqurban Əliyev və məşhur qazmaçı Yusif Səfərovun təklifi ilə əlavə xərclərə və işçi qüvvəsinə yol vermədən əraziyə daha 6 köhnə gəmi gətirilərək burada süni ada yaradılır. Beləliklə, sonradan neftçilərin "Yeddi gəmi adası" adlandırdıqları ərazidə ikinci kəşfiyyat quyusunun qazılmasına başlanılır.

1950-ci ilin ilk yarısında bu quyunun da uğurla istismara daxil edilməsi ilə "Neft daşları" dəniz rayonunda karbohidrogen ehtiyatlarının mövcudluğu tam sübuta yetirilir. Bununla da yataqda kəşfiyyat-qazma və tikinti işləri geniş vüsət alır. 1951-ci il fevralın 18-də isə neftlə dolu ilk tanker sahilə yola salınır. Beləliklə, neftçilərin məskunlaşdığı 14 kvadratmetr sahəsi olan evcikdə, insan zəkasının məhsulu olan süni adada yaşayan və dəniz inşaatçıları tərəfindən quraşdırılmış qazma kəşfiyyat qurğusunda çalışan neftçilərin misilsiz şücaəti, fəhlələrin, ustaların, mühəndislərin və digər xidmət sahələri işçilərinin fədakar əməyi sayəsində fırtınalı dəniz insan iradəsinə təslim olur. Xəzərin qoynunda polad dirəklər üzərində salınmış gözoxşayan estakadalar Azərbaycan neftçiləri üçün əsl sınaq, hünər meydanına çevrilir. Neft sənayesi inşaatçılarının gərgin əməyi sayəsində burada 200 kilometrə yaxın estakada, 333 istehsalat meydançası tikilib, 100 kilometrlərlə neft, qaz və su kəmərləri çəkilib.

Burada bir-birinin ardınca qazılan quyular istismara verildikcə Azərbaycanda neft hasilatı kəskin artmağa başlayıb. "Neft daşları" yatağında ən böyük hasilat isə 1967-ci ildə qeydə alınıb. Həmin il burada 7,6 milyon ton neft çıxarılıb. Bütövlükdə isə, işlənmənin əvvəlindən indiyədək "Neft daşları" və yaxınlıqdakı "Palçıq pilpiləsi" yataqlarında 2300-dən çox quyu qazılıb. Hasilata başlandığı vaxtdan 2025-ci il noyabrın 1-dək bu yataqlardan 181,8 milyon ton neft və 14,2 milyard kubmetr qaz hasil edilib.

Ötən əsrin 70-ci illəri isə "Neft daşları" yatağının inkişafında "qızıl dövr" kimi xarakterizə olunur. Həmin dövrdə üç dəfə "möcüzələr adası"na səfər edən ümummilli lider Heydər Əliyev Neft Daşlarını Azərbaycan çoxmillətli zəhmət adamlarının əmək qəhrəmanlığına ucaldılmış möhtəşəm abidə kimi dəyərləndirib. Təsadüfi deyil ki, burada qazanılmış zəngin təcrübə sonralar "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının kəşf olunmasına imkan yaradıb. Müstəqillik illərində isə Azərbaycan



hökumətinin xarici neft şirkətləri ilə birlikdə istismara daxil etdiyi bu yataqlar Azərbaycanın gələcək iqtisadi inkişafı üçün etibarlı baza yaradıb.

Prezident İlham Əliyev də Neft Daşlarını Azərbaycan dövlətinin, xalqımızın ayrılmaz bir dəyəri, çox gözəl inkişaf nümunəsi kimi xarakterizə edib. Təsadüfi deyil ki, dövlətimizin başçısının 2019-cu il noyabr ayının 6-da "Neft daşları" yatağının istismara verilməsinin 70 illiyi münasibətilə Azərbaycan neftçilərinə ünvanladığı təbrikində deyilir: "Hazırda dünyada karbohidrogen hasilatının əsas hissəsi dəniz akvatoriyalarının payına düşür və dənizlərin dərinlikləri fəth olunmaqdadır. Fəxr edirik ki, həmin proseslərin mənbəyi bizim əfsanəvi Neft Daşlarıdır".

Neft Daşları hazırda Azərbaycanın digər neft yataqlarını birləşdirən strateji kommunikasiya və infrastruktur mərkəzi rolunu oynayır. Təkcə onu qeyd etmək kifayətdir ki, "Abşeron" platforması buradan idarə olunur. Bununla yanaşı, SOCAR-ın neft-qaz hasilatının, təqribən, 70 faizi sahilə məhz Neft Daşlarından ötürülür.

Azərbaycan dəniz neft sənayesinin flaqmanı sayılan "Neft daşları" yatağı işlənmənin son mərhələsində olmasına baxmayaraq, burada ehtiyatlar hələ tükənməyib. Mütəxəssislərin fikrincə, hazırda "Neft daşları" yatağı üzrə 210 milyon ton qalıq ehtiyatlar mövcuddur ki, bunun da 18-20 milyon tonunun çıxarılması mümkün hesab olunur. Bununla belə, gələcəkdə yeni texnologiyaların tətbiqi vasitəsilə qalıq ehtiyatların çıxarılma nisbətinin yüksələ biləcəyi də ehtimal olunur. Məhz buna görə də ölkə Prezidenti İlham Əliyev bir neçə il bundan qabaq "Neft daşları" yatağında illik hasilatın 1,2 milyon tona çatdırılmasını neftçilərin qarşısında mühüm bir vəzifə kimi qoyub. Dövlət başçısının tapşırığından irəli gələn məsələlərin həlli istiqamətində görülən işlərin nəticəsidir ki, qocaman "Neft daşları" yatağı indi özünün yeni yüksəliş dövrünü yaşayır. Artıq burada gün ərzində orta hesabla 3 min 300 ton neft çıxarılır ki, bu da son 34 ildə qazanılan ən yüksək göstəricidir.

Bu gün "möcüzələr adası"nda çalışan 4 minədək insanın normal yaşayışı və fəaliyyəti üçün hər şey var. Ən başlıcası isə, çətin dəniz şəraitində çalışan neftçilər getdikcə artmaqda olan dövlət qayğısını daha çox hiss edirlər. Bütün bunlar şərəfli peşə sahiblərində ölkənin, onun neft sənayesinin gələcək inkişafına inamı artırır, onları yeni-yeni nailiyyətlərə ruhlandırır.

# Astanada beynəlxalq statistika forumu

**Dünən Qazaxıstanın paytaxtı Astana şəhərində "Milli statistika sistemlərinin rəqəmsal transformasiyası" mövzusunda Beynəlxalq Forum öz işinə başlayıb. İki günlük toplantı çərçivəsində Qazaxıstanın dövlət statistika qurumunun 105 illik yubiley mərasimi də keçirilir. Toplantıda ölkəmizi Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov təmsil edir.**

Forum zamanı innovativ informasiya texnologiyalarının tətbiqi (süni intellekt, maşın öyrənməsi və s.), məlumatların idarə olunmasına yeni yanaşmalar, onların təhlükəsizliyi və məxfiliyinin təmin edilməsi də daxil olmaqla rəsmi statistikanın modernləşdirilməsi, eləcə də kadr potensialının möhkəmləndirilməsi və təkmilləşdirilməsi, texniki infrastrukturun və statistik proseslərin transformasiyasının zəruriliyi, artan çağırışların birgə həlli yolları və istifadəçi ehtiyaclarının ödənilməsi imkanlarına dair aktual məsələlərlə bağlı müzakirələr aparılır.

Beynəlxalq toplantı milli statistika sistemlərinin rəqəmsal transformasiyası, məlumatların keyfiyyəti və müasir dünyada onların artan keyfiyyəti, rəsmi statistikada irihəcmli məlumatlardan istifadə potensialı, dövlət idarəetməsində süni intellekt texnologiyalarından istifadə, istifadəçi və məlumat istehsalçıları ilə kommunikasiya mövzularında sessiyalardan ibarətdir.



Forumun ilk günü Dövlət Statistika Komitəsinin statistika işlərinin əlaqələndirilməsi və strateji planlaşdırma şöbəsinin müdiri Toğrul Ələsov təqdimatla çıxış edərək Azərbaycanda keyfiyyətin idarə olunması sisteminin tətbiqi, metaməlumatlar və şəffaflıq, keyfiyyətə nəzarət cədvəlləri, ev təsərrüfatları büdcələri tədqiqatında və istehlak qiymətləri indeksinin hesablanmasında ilkin məlumatların keyfiyyətinin yoxlanılması, inzibati məlumatlar və onların statistik məlumatların keyfiyyətində rolu sahəsində görülmüş işlər barədə tədbir iştirakçılarına geniş məlumat verib.



# İslam İnkişaf Bankı Qarabağ kanalına kredit ayıracaq

**Qarabağ suvarma kanalının tikintisi Azərbaycan hökuməti və İslam İnkişaf Bankının birgə maliyyələşdirməsi ilə həyata keçiriləcək. Bununla bağlı bankın 51-ci iclasında 5 illik kredit sazişinin imzalanması nəzərdə tutulur.**

Hazırda isə Qarabağ suvarma kanalı və onun kənd təsərrüfatına, ətraf mühitə, eləcə də sosial sahələrə təsirləri barədə İslam İnkişaf Bankının ünvanladığı sorğular cavablandırılır. Bu barədə Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyindən məlumat verilib.

Bildirilib ki, Qarabağ kanalının Mingəçevir su anbarının sahilində yerləşən baş suqəbuledici qurğusu vasitəsilə buradan götürülən su uzunluğu 1072 metr, diametri 4,9 metr olan tuneldən keçərək sözügedən kanala ötürülür. Qarabağ kanalının uzunluğu 172,4 kilometr, normal su sərfi saniyədə 113 kubmetrdir. Kanalın üzərində 119 ədəd müxtəlif təyinatlı hidrotexniki qurğu quraşdırılıb.

168 kilometr beton üzlüklü yeni kanalın isə mövcud kanala paralel çəkilməsi və onun suburaxma sərfiyyatının saniyədə 135 kubmetrə çatdırılması nəzərdə tutulur. Bundan əlavə, SCADA sistemi ilə təchiz olunacaq yeni kanal vasitəsilə daha 51 min 34 hektar sahənin əkin dövriyyəsinə cəlb edilməsi və nasos stansiyalarının yenilənməsi planlaşdırılır.

Xatırladaq ki, Qarabağ suvarma kanalının yenidən qurulması layihəsi ölkə Prezidentinin ötən il imzaladığı "Qarabağ suvarma kanalının yenidən qurulması ilə bağlı tədbirlər haqqında" sərəncam əsasında həyata keçirilir.

# Sahibkarlığa maliyyə dəstəyi

## *Bu məbləğ 7,3 milyard manata çatıb*

**2025-ci il oktyabr ayının 1-nə Azərbaycanda orta sahibkarlıq subyektlərinə verilən kreditlərin həcmi 2 milyard 250 milyon manat təşkil edib. Bu da cari il sentyabrın 1-i ilə müqayisədə 113,1 milyon manat və ya 5,3 faiz, ötən ilin eyni dövrünə nisbətən isə 500 milyon manat və ya 28,6 faiz çoxdur.**

Ötən müddətdə ölkədə mikro sahibkarlıq subyektlərinə isə 3 milyard 418 milyon manat kredit verilib ki, bu da sentyabr ayının 1-i ilə müqayisədə 71,6 milyon manat və ya 2,1 faiz, ötən ilin eyni dövrünə nisbətən isə 466,2 milyon manat və ya 15,8 faiz artım deməkdir.



Bundan əlavə, cari il oktyabr ayının 1-nə ölkə üzrə kiçik sahibkarlıq subyektlərinə verilən kreditlərin həcmi 1 milyard 620 milyon manat təşkil edib. Bu isə əvvəlki ayın 1-i ilə müqayisədə 46,4 milyon manat və ya 2,9 faiz, ötən ilin eyni dövrünə nisbətən isə 48 milyon manat və ya 3 faiz çoxdur.

Azərbaycan Mərkəzi Bankının məlumatına görə, bu il oktyabr ayının 1-nə Azərbaycan banklarının biznes kredit portfelinin həcmi 15 milyard 545 milyon manat təşkil edib ki, bu da əvvəlki ayla müqayisədə 452,8 milyon manat və ya 3 faiz, ötən ilin eyni dövrünə nisbətən isə 1,1 milyard manat və ya 7,9 faiz çoxdur.

**XQ**

# "Şirin su" zavodu 2028-ci ildə işə salınacaq

**Azərbaycanda dəniz suyunun duzsuzlaşdırılması zavodunun tam istismara verilməsi 2028-ci ilin 4-cü rübünə planlaşdırılıb. Bu barədə Səudiyyə Ərəbistanının "ACWA Power" şirkətinin rüblük hesabatında bildirilib.**

Qeyd edək ki, layihə Sumqayıt Kimya Sənaye Parkının ərazisində gündəlik gücü 300 min kubmetr olan dəniz suyunun duzsuzlaşdırılması zavodunun tikintisini nəzərdə tutur. Layihənin "ACWA Power" və Türkiyənin "IC İçtaş İnşaat" şirkətinin daxil olduğu konsorsium tərəfindən həyata keçirilməsi planlaşdırılır. Tikinti işlərinin isə 2,5 il müddətində başa çatdırılması nəzərdə tutulur.

"ACWA Power" şirkətinin sözügedən layihəyə yatırdığı investisiyanın məbləği 1,5 milyard Səudiyyə rialı təşkil edir ki, bu da təqribən 680 milyon manata və ya 407 milyon ABŞ dollarına bərabərdir. Sazişin şərtlərinə əsasən, layihənin icra müddəti 27,5 il təşkil edəcək. Həmin müddət bitdikdən sonra isə obyektin idarəçiliyi Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinə veriləcək.




Bu il sentyabr 30-na "ACWA Power" şirkətinin 240 MVt gücündə "Xızı-Abşeron" Külək Elektrik Stansiyasının (KES) tikintisinə yatırdığı investisiyanın məbləği 1,073 milyard Səudiyyə riyalı (486,39 milyon manata bərabər) təşkil edib.

***Səhifəni hazırladı:***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Milli Məclis komitələrinin birgə iclasında gələn ilin dövlət büdcəsi layihəsinin müzakirəsi

**Noyabrın 6-da Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya, Əmək və sosial siyasət, Səhiyyə, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitələrinin birgə iclası keçirilib.**



Milli Məclis sədrinin birinci müavini Əli Əhmədov tədbirdə "Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsinin birinci oxunuşda müzakirəyə çıxarıldığını deyib.

Sonra iclasda maliyyə naziri Sahil Babayev "Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" Qanun layihəsini barədə məlumat verib.

Nazir əsas makroiqtisadi göstəriciləri təqdim edərək bildirib ki, 2026-cı ildə ÜDM real ifadədə 2,9 faiz artaraq 134,1 milyard manat, o cümlədən qeyri-neft-qaz ÜDM-in 5,0 faiz artaraq 101,7 milyard manat təşkil edəcək. Xam neftin 1 barelinin orta illik ixrac qiyməti 65 ABŞ dollar, orta illik inflyasiya 4,8 faiz müəyyən edilib. 2026-cı il üçün dövlət borcunun proqnozunun ÜDM-də nisbəti 21,8 faiz olaraq qiymətləndirilir. Ölkənin strateji valyuta ehtiyatları 1 noyabr tarixinə 81,5 milyard ABŞ dolları həcmindədir. 2026-cı ildə Neft Fondunun gəlir və xərcləri balanslaşdırılıb və Neft Fondundan büdcəyə transfert 1 milyard ABŞ dolları həcmində azaldılıb. Ümumilikdə, dövlət büdcəsinin gəlirlərinin 57 faizi, icmal büdcənin gəlirlərinin 63 faizi qeyri-neft-qaz gəlirləri hesabına təmin edilib. İcmal büdcədə növbəti ildə qeyri-neft-qaz kəsirinin ÜDM-də nisbəti 19 faiz müəyyən edilib. Dövlət büdcəsinin cari xərclərinin 88 faizinin qeyri-neft-qaz gəlirləri hesabına qarşılanacağı planlaşdırılır.

Sonra Sahil Babayev büdcənin xərcləri ilə bağlı məlumat verib. Deyib ki, icmal büdcə xərcləri ÜDM-in 36 faizinə, qeyri-neft-qaz ÜDM-in 48 faizinə bərabər olacaq. Dövlət büdcəsinin 34 faizi investisiyayönümlü xərclərə yönəldilib. Ümumilikdə, icmal büdcənin xərcləri 48,8 milyard manat, dövlət büdcəsinin xərcləri isə 41,7 milyard manat olaraq proqnozlaşdırılır. Dövlət borcuna xidmətlə bağlı xərclər 2,5 milyard manat müəyyən edilib. Büdcənin müxtəlif istiqamətlər üzrə xərcləri barədə qeyd edilib ki, sosialyönlü xərclərə 17,1 milyard manat, təhsil sahəsində xərclər 5 milyard manat, sosial müdafiə və sosial təminat xərcləri 4.9 milyard manat, səhiyyə xərcləri dövlət büdcəsində 2 milyard manat, icmal səhiyyə xərcləri isə 3,7 milyard manat, ölkənin müdafiə və milli təhlükəsizliyi ilə bağlı xərcləri 8,7 milyard manat, iqtisadi fəaliyyət xərclərinə 7,9 milyard manat, kənd təsərrüfatı xərclərinə 1,2 milyard manat, ətraf mühitin və təbiətin mühafizəsi üzrə xərclər 420 milyon manat, beynəlxalq fəaliyyətlə bağlı xərclər 550 milyon manat məbləğində müəyyən edilib.

Büdcə gəlirləri ilə əlaqədar qeyd olunub ki, 2026-cı ildə icmal büdcənin gəlirləri 45,0 milyard manat, dövlət büdcəsinin gəlirləri isə 38,6 milyard manat təşkil edəcək. O cümlədən qeyri-neft-qaz sektoru üzrə gəlirlər 22,2 milyard manat, neft-qaz sektoru üzrə gəlirlər 16,4 milyard manat, Dövlət Vergi Xidmətindən daxilolmalar 16,9 milyard manat, Dövlət Gömrük Komitəsi vasitəsilə daxilolmalar 6,9 milyard manat, büdcə təşkilatlarının ödənişli xidmətləri üzrə gəlirlər 1 milyard 21 milyon manat, sair gəlirlər 531 milyon manat, Dövlət Neft Şirkətinin dividendlərindən isə 450 milyon manat gəlir proqnozlaşdırılır. Qeyd olunub ki, dövlət büdcəsi kəsirinin yuxarı həddi 3,1 milyard manat məbləğində qiymətləndirilir.

Nazir habelə bildirib ki, 2026-cı ilin icmal büdcəsində Dövlət Neft Fondunun gəlir və xərcləri 13 milyard manat məbləğində proqnozlaşdırılır. Naxçıvan Muxtar Respublikasının gəlir və xərcləri 483 milyon manat məbləğində müəyyən olunub.

İclasda çıxış edən iqtisadiyyat nazirinin müavini Anar Axundov deyib ki, 2025-ci ilin gözlənilən artım tempi nəzərə alınmaqla 2022-2025-ci illərdə orta illik hesabla ÜDM-in 3,3 faiz artması gözlənilir. ÜDM-in artımı tamamilə qeyri-neft-qaz sektorunun inkişafı hesabına təmin olunmaqla, bu sektor üzrə ÜDM-in orta illik artımının 6,1 faiz olacağı nəzərdə tutulur. Qeyri-neft-qaz sektorunda iqtisadi artımın 2,9 faiz təşkil etməsi nəticəsində ümumi iqtisadi artım 1,3 faiz olub. ÜDM-in növbəti ildə 2,9 faiz, 2026-2029-cu illərdə orta illik hesabla 3,5 faiz, qeyri-neft-qaz ÜDM-inin növbəti və ortamüddətli dövrdə isə orta illik hesabla 5 faiz ətrafında artacağı proqnozlaşdırılır.

Tədbirdə Hesablama Palatasının sədri Vüqar Gülməmmədov Azərbaycanın 2026-cı il üçün dövlət büdcəsi layihəsinə dair Palatanın rəyini açıqlayıb. O bildirib ki, rəy 2026-cı il üçün dövlət büdcəsinə dair Qanun layihəsinin və layihə ilə birlikdə hazırlanan və təqdim olunan aidiyyəti sənədlərin mövcud qanunvericilik aktlarına uyğunluğu, nəzərdə tutulmuş dövlət büdcəsinin gəlirləri və xərcləri, büdcə kəsirinin proqnoz göstəricilərinin düzgünlüyü və tamlığı, həmçinin bu göstəricilərin makroiqtisadi parametrlərə və ölkənin strateji sənədlərinə uyğunluğu barədə kənar dövlət maliyyə nəzarəti orqanının mövqeyini ifadə edir.

İclasda əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev çıxış edərək vurğulayıb ki, son 7 ildə ölkədə 5 sosial islahat zərfi icra edilib və bu islahatların illik maliyyə tutumu 7,6 milyard manat təşkil edib. Cari ildə 5-ci sosial islahat zərfi çərçivəsində minimum əməkhaqqı, minimum pensiya, habelə sosial müavinətlərin, Azərbaycan Prezidentinin təqaüdlərinin, tələbə təqaüdlərinin məbləğləri, hərbi qulluqçuların aylıq vəzifə maaşları artırılıb. Ümumilikdə 5-ci sosial islahat paketi 1,9 milyon vətəndaşımızı əhatə etməklə, illik əlavə maliyyə tutumu 885 milyon manat təşkil edib.

Bildirilib ki, növbəti ilin büdcəsində sosialyönlü xərclər 2025-ci illə müqayisədə 236 milyon manat çox olmaqla 17 milyard 146 milyon manat təşkil edəcək. Sosialyönlü xərclərin dövlət büdcəsində xüsusi çəkisi 41,1 faiz nəzərdə tutulur. 2026-cı ilin dövlət büdcəsində sosial müdafiə və sosial təminat xərclərinin 4 milyard 873 milyon manat həcmində olması proqnozlaşdırılır. Nazirliyin fəaliyyət istiqamətləri üzrə isə gələn il 4 milyard 537 milyon manatın ayrılması nəzərdə tutulur və bu vəsaitin 98 faizi əhaliyə ödənişlərə sərf ediləcək.

Sonra nazir Dövlət Sosial Müdafiə Fondunun büdcəsi barədə məlumatında bildirib ki, Fondun 2026-cı il üçün gəlirləri 8 milyard 323 milyon manat proqnozlaşdırılır. Fondun növbəti il üçün xərcləri isə 8 milyard 483 milyon manat həcmində nəzərdə tutulub və bunun 96,6 faizi və ya 8 milyard 196 milyon manatı əhaliyə ödənişlərin payına düşür. 2026-cı il üzrə əmək pensiyalarının maliyyələşdirilməsi üçün ayrılan vəsait 2025-ci ilin təsdiqlənmiş xərcləri ilə müqayisədə 782,4 milyon manat və ya 10,9 faiz artımla nəzərdə tutulub.

Daha sonra səhiyyə naziri Teymur Musayev çıxış edib. O vurğulayıb ki, səhiyyə sektoruna ayrılan büdcə vəsaitləri ildən-ilə artır, səhiyyə infrastrukturu yenilənir və müasir çağırışlara uyğunlaşdırılır.

Bildirilib ki, 2026-cı il dövlət büdcəsində səhiyyə bölməsi üzrə xərclər ümumi büdcə xərclərinin 4,9 faizini təşkil edir. O cümlədən 2026-cı il üçün Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə 274,5 milyon manat vəsait ayrılması nəzərdə tutulub.

Nazir bildirib ki, 2026-cı ildə beş dövlət proqramı çərçivəsində Səhiyyə Nazirliyinə 91,1 milyon manat vəsait ayrılması planlaşdırılır. Qeyd olunub ki, "2023–2027-ci illər üzrə uşaqlar arasında yoluxucu xəstəliklərin immunoprofilaktikasına dair Tədbirlər Proqramı" üzrə maliyyələşmə əvvəlki illə müqayisədə 6 milyon manat və ya 21,1 faiz artıb.

Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrinə əsasən, uşaqların ən azı 90 faizinin peyvəndlə əhatə olunması hər bir ölkənin əsas səhiyyə göstəricilərindən biri sayılır. 2026-cı ilin sonunda ölkəmizdə bu göstəricinin 95 faizə çatdırılması nəzərdə tutulur.

Sonda Qanun layihəsi Milli Məclisin plenar iclasında birinci oxunuşda müzakirəyə tövsiyə olunub.

***XQ***

*Xuntaçıların məhkəməsi*

# Təqsirləndirilən separatçıların qanlı əməlləri sübuta yetirilir

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə, müharibə və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası noyabrın 6-da davam etdirilib.**





Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclası dövlət ittihamını müdafiə edən prokurorların ittiham çıxışı ilə davam etdirilib, təqsirləndirilən şəxslərin ayrı-ayrılıqda cinayətkar birliyin tərkibindəki rollarını təsdiq edən sənədlərin və sübutların elan olunmasına başlanılıb.

Baş prokurorun böyük köməkçisi Vüsal Əliyev sənədlərin və sübutların təqsirləndirilən şəxs Harutyunyan Arayik Vladimiri (Vladimiroviç) ilə bağlı olan hissəsini diqqətə çatdırıb. Bildirilib ki, təqsirləndirilən Arayik Harutyunyanın 1991-ci ilin dekabr ayında cinayətkar birliyə qoşulmaqla 2023-cü il sentyabrın 20-dək olan müddət ərzində cinayətkar birliyin tərkibində müxtəlif funksiyaları icra etməklə cinayətkar birlik tərəfindən törədilmiş bütün cinayətlərdə bilavasitə və dolayı yolla iştirak etməsi məhkəmə iclasında tədqiq olunmuş sübutlarla təsdiqlənib.

Qeyd edilənlər onun sıravi iştirakçı olmadığını, Ermənistan ordusunun döyüş qabiliyyətinin təmin edilməsində, qanunsuz silahlı birləşmələrin fasiləsiz təchizatında və onların qanunsuz silahlı əməliyyatlar aparmaq imkanlarının saxlanılmasında birbaşa rol oynadığını sübut edir.

Qeyd olunub ki, məhkəmədə tədqiq edilmiş videomaterial təqsirləndirilən şəxsin təkcə vaxtilə Ermənistan silahlı qüvvələrinin işğalı altında olan Azərbaycanın suveren ərazilərinə səfər etmədiyini, həm də döyüş mövqelərinin yoxlanılması, oradakı qüvvələrin potensialının öyrənilməsi və hərbi əməliyyatların davamlılığının təmin olunmasına yönələn fəaliyyətlərdə bilavasitə iştirak etdiyini sübuta yetirir. Bu isə onun Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə qarşı aparılan hərbi təcavüzün informasiya, təşkilati və kadr təminatı istiqamətində mühüm rol oynadığını bir daha təsdiqləyir.

Bildirilib ki, A.Harutyunyan Azərbaycan xalqına, xüsusilə dinc əhaliyə qarşı çoxsaylı cinayətlərin, terror aktlarının törədilməsində iştirak etməklə yanaşı, qeyd edilən əməllərini sosial şəbəkələr vasitəsilə dünyaya çatdırmaqdan da çəkinməyib.

Məhkəmə istintaqı zamanı tədqiq edilmiş sübutlarla təsdiqlənib ki, 2023-cü ilədək Ermənistan tərəfindən davam edən təcavüzkar müharibə dövründə Arayik Harutyunyan Birinci Qarabağ müharibəsində 1991-ci ildən etibarən aktiv döyüş əməliyyatlarında iştirak etməklə və sonrakı dövrlərdə təcavüzkar müharibənin yenidən planlaşdırılması, hazırlanması və aparılması, etnik təmizləmə, insanların təqib edilməsi, əsir və girov götürülməklə işgəncəyə məruz qoyulması, müharibə qanunlarının və adətlərinin pozulması, qondarma qurumda bir sıra "vəzifələr"in funksiyalarını icra etməklə hakimiyyətin zorla ələ keçirilməsi, Vətən müharibəsi dövründə şəhərləri və mülki insanları dağıdıcı raket hücumlarına məruz qoymaqla Azərbaycan xalqına qarşı terror aktlarının həyata keçirilməsində və cinayətkar birliyin tərkibində müxtəlif funksiyaları həyata keçirməklə cinayətkar birlik tərəfindən törədilmiş soyqırımı, əhalini məhvetmə, köləlik, insanları zorakılıqla yoxa çıxarma, qəsdən adam öldürmə, qanunsuz sahibkarlıq və digər cinayət əməllərinin törədilməsində iştirak edib.

Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramov təqsirləndirilən şəxs Levon Mnatsakanyan barəsində məhkəmə istintaqında aparılmış araşdırma zamanı ona verilən ittiham üzrə zəruri xüsusatları diqqətə çatdırıb. Prokurorun sözlərinə görə, sübutlarla müəyyən edilib ki, L.Mnatsakanyan Ermənistan silahlı qüvvələrinin tərkibində Azərbaycana qarşı aparılan təcavüzkar müharibədə iştirak edib. Müxtəlif hərbi vəzifələrdə xidmət etməklə yanaşı, cinayətkar birliyin əsas üzvlərindən olub, eləcə də qondarma rejimin "ordu quruculuğu"nda mühüm rol oynayıb. O, nəinki Azərbaycanın suveren ərazilərinin işğal edilməsində, həm də həmin ərazilərin uzun illər işğal altında saxlanılmasına zəmin yaradaraq qondarma qurumun "ordusu"nun, yəni Ermənistan silahlı qüvvələrinin ən böyük hərbi birləşməsinin formalaşmasında iştirak edib.

Dövlət ittihamını müdafiə edən prokuror Fuad Musayev isə təqsirləndirilən şəxs Bako Sahakyan barəsində məhkəmə istintaqında aparılmış araşdırma zamanı ona verilən ittiham üzrə zəruri xüsusatları elan edib. Qeyd olunub ki, hazırda ittiham olunan şəxslər arasında B.Sahakyan yeganə hüquqşünas diplomlu şəxs olmasına baxmayaraq, onun Azərbaycan xalqına qarşı aparılmış etnik təmizləməni, təcavüzkar müharibəni, suveren ərazilərin işğalını və digər çoxsaylı cinayətkar əməlləri təkzib etməsi insani və əxlaqi dəyərlərin təhqiridir. Qeyd edilib ki, bu davranışlara özünə rəvac verən şəxsin ədalət, obyektivlik və mənəvi dəyərlərdən danışmağa haqqı yoxdur.

Vurğulanıb ki, Bako Sahakyanın Azərbaycana qarşı aparılmış təcavüzkar müharibəyə, etnik təmizləmə siyasətinə və çoxsaylı ağır cinayətlərin törədilməsinə birbaşa rəhbərlik etmiş Serj Sarkisyanın köməkçisi olması, mühüm tapşırıq və göstərişlər aldıqdan sonra qondarma qurumda "vəzifələr tutaraq" fəaliyyət göstərməsi onun 1988-ci ildən bəri formalaşmış cinayətkar ideologiyaya, eləcə də işğalçılıq siyasətinə sadiqliyinin bariz sübutudur.

Bu hallar məhkəmə istintaqı zamanı tədqiq edilmiş Bako Sahakyanın çoxsaylı müsahibələrində səsləndirdiyi fikirlərlə də öz təsdiqini tapıb.

Prokurorun sözlərinə görə, məhkəmə istintaqı zamanı tədqiq edilmiş sübutlarla təsdiq edilib ki, 1988-ci ildən başlamaqla 2023-cü ilədək davam edən təcavüzkar müharibə dövründə Bako Sahakyan Azərbaycana terror aktlarının həyata keçirilməsində və cinayətkar birliyin tərkibində müxtəlif funksiyaları həyata keçirməklə cinayətkar birlik tərəfindən törədilmiş soyqırımı, əhalini məhvetmə, köləlik, insanları zorakılıqla yoxa çıxarma, qəsdən adam öldürmə, qanunsuz sahibkarlıq və ittihamda təsvir edilən digər cinayət əməllərinin törədilməsində iştirak edib.

Dövlət ittihamını müdafiə edən prokuror Vüsal Abdullayev isə təqsirləndirilən şəxs David Manukyan barəsində məhkəmə istintaqında aparılmış araşdırma zamanı ona verilən ittiham üzrə zəruri xüsusatları diqqətə çatdırıb. Qeyd edilib ki, D.Manukyan Ermənistan silahlı qüvvələrində, o cümlədən həmin silahlı qüvvələrin ən böyük hərbi birləşməsində müxtəlif yüksək vəzifələr tutmaqla Azərbaycan ərazilərinin vaxtilə işğal altında saxlanılmasında əsas rollardan birini oynayıb. Birinci Qarabağ müharibəsinin əvvəlindən sonunadək David Manukyanın üzvü olduğu Şuşa batalyonu 1992-ci il sentyabrın 1-də "Daşnaksütyun" partiyasının əvvəllər yaradılmış könüllü birləşmələri əsasında formalaşdırılıb. 1991-1994-cü illərdə tabor Hadrut, Əsgəran, Şuşa, Ağdam, Füzuli, Cəbrayıl, Kəlbəcər, Zəngilan rayonlarının işğalında aktiv rol oynayıb.

Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimli təqsirləndirilən şəxs Arkadi Qukasyan barəsində məhkəmə istintaqının gedişində tədqiq olunan sübutlar əsasında ona qarşı irəli sürülmüş ittiham üzrə zəruri xüsusatları elan edib. Qeyd olunub ki, A.Qukasyanın cinayətkar fəaliyyətinin müddətini və xarakterini nəzərə alaraq, onun cinayətkar birliyə yaradılmasının ilk günlərindən qoşulması məlum olur. Bu səbəbdən təqsirləndirilən şəxsə 1988-ci ildən başlayaraq 2023-cü ilin sentyabr ayınadək Ermənistan tərəfindən Azərbaycana qarşı aparılmış təcavüzkar müharibə və işğal dövründə törədilmiş bütün cinayət hadisələri üzrə ittiham verilib.

Bildirilib ki, A.Qukasyan yalnız işğal siyasətini sözlə müdafiə etməyib, həm də konkret hərbi və siyasi rəhbərləri təşviq etməklə onların əməllərini "böyütməyə" səy göstərib. O, həm hüquqi, həm də siyasi sahədə işğal siyasətini təbliğ edib, dinc əhaliyə qarşı zorakılığı legitimləşdirib.

İttiham tərəfinin çıxışları zamanı məhkəmə zalındakı təqsirləndirilən şəxslərin ittiham olunduğu cinayətlər üzrə fotoşəkillər də nümayiş etdirilib.

Məhkəmə prosesi noyabrın 7-də davam etdiriləcək.

***XQ***




# Qarabağı cəhənnəmə çevirmiş düşmən 43 gündə diz çökdürülmüşdü

## *1 gün sonra isə Şuşanın fəthi Azərbaycan tarixinə Zəfər Günü kimi yazılacaqdı*

**Prezident İlham Əliyev 2003-cü ildə qarşıya qoyduğu və bəyan etdiyi strateji hədəfləri gerçəkləşdirmək üçün ötən müddətdə istər beynəlxalq miqyasda, istərsə də ölkə daxilində məqsədyönlü, ardıcıl, düşünülmüş siyasət həyata keçirir və "güclü dövlət" konsepsiyasını reallaşdırmaq istiqamətində önəmli layihələr gerçəkləşdirirdi. Bununla da dövlətimizin başçısı qurucu, birləşdirici, Azərbaycanın bütün istək və arzularını həyata keçirən, öz fəaliyyətində dövlətin maraqlarını ən ali məqsəd kimi önə çəkən, eləcə də bütün qüvvəsini bu istiqamətə yönəldən, xalqın birmənalı şəkildə dəstəklədiyi, etimad göstərdiyi lider kimi böyük nüfuz qazanırdı.**

Bütün bunlar Vətən müharibəsində Azərbaycanın tarixi qələbəsini şərtləndirdi, eyni zamanda, Prezident İlham Əliyevin praqmatik siyasətçi, hadisələri, prosesləri dəqiq qiymətləndirmək bacarığına malik olduğunu təsdiq etdi, ölkəmizin ərazi bütövlüyünü gerçəkləşdirən lider kimi adını əbədi olaraq tarixə yazdırdı, xalqımızın qəhrəmanlıq salnaməsini yaratdı və 44 günlük savaşın əsl qəhrəmanına çevrildi. Bir sözlə, Azərbaycanın Vətən müharibəsinin gedişində əldə etdiyi parlaq qələbələr, Silahlı Qüvvələrimizin uğurlu Zəfər yürüşü ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin qətiyyətli sərkərdə fəaliyyətinin, müdrik siyasətinin məntiqi nəticəsi idi.

Dövlətimizin başçısı prezidentlik fəaliyyəti dövründə ordumuzun güclənməsinə daim önəm verdi, ən müasir döyüş texnikasının alınmasını gerçəkləşdirdi. Əsgər və zabitlərimizin sosial şəraitinin yaxşılaşdırılmasını hər zaman diqqət mərkəzində saxladı. 44 günlük döyüşdə Silahlı Qüvvələrimizin möhtəşəm uğurlara imza atması, savaş meydanında öz üstünlüyünü dəfələrlə sübut etməsi məhz bütün bunların nəticəsi idi. Azərbaycanın əks-həmlə əməliyyatları ilə Vətən müharibəsinə başlaması da təsadüfi deyildi. Çünki Ermənistan 30 ilə yaxın bir dövrdə torpaqlarımızı işğal altında saxlamaqla bərabər, sülh prosesini də məqsədyönlü şəkildə pozmaqda davam edirdi. Düşmən ölkənin məqsədi işğal ilə bağlı status-kvonu qorumaq və həmin ərazilərin ilhaqına nail olmaq idi.

Vətən müharibəsinə qədər respublikamızın konstruktiv mövqeyinə zidd olaraq, Ermənistanın baş naziri bilərəkdən danışıqlar prosesinin format və mahiyyətini də sarsıdırdı. Məsələn, Nikol Paşinyan hələ baş nazir kürsüsünə əyləşməzdən əvvəl Ermənistan parlamentinə müraciətində Azərbaycanın işğal olunmuş ərazilərində qurulmuş qanunsuz rejimin danışıqlarda iştirak etməsi məsələsini qaldırmışdı. Bununla da o, danışıqların formatını şübhə altına almağa başlamış və müxtəlif tədbirlərdə bunu dəfələrlə təkrarlamışdı.

Nikol Paşinyan baş nazir seçildiyi günün səhəri isə həyat yoldaşı ilə birlikdə Azərbaycanın işğal edilən Dağlıq Qarabağ bölgəsinə səfəri çərçivəsində Xankəndidə Şuşa şəhərinin işğalının qeyd olunmasında iştirak etmiş, burada "düşmənin qarşısının alınması" mexanizminin təkmilləşdirilməsi məsələsi barədə fikirlərini bölüşmüş, Şuşada erməni dram muzeyini açmışdı. Sonradan Moskvada rus-erməni iş adamları ilə görüşən Ermənistanın baş naziri açıq şəkildə "Artsaxı gələcəkdə Ermənistanın bir hissəsi kimi qəbul etdiyini" söyləmişdi.

Vətən müharibəsindən əvvəl Ermənistanın digər rəsmi şəxsləri tərəfindən də daim təxribat xarakterli fikirlər səsləndirilirdi. İşğalçı dövlətin Milli Təhlükəsizlik Xidmətinin direktoru Artur Vanetsyan Xankəndi şəhərində keçirdiyi mətbuat konfransında deyirdi: "Məskunlaşdırma proqramı adlandırdığımız sənəd bundan sonra ölkəmizin təhlükəsizliyinin əsas təminatı olacaq. Bu proqramın həyata keçirilməsi ilə xalqımıza və dünyaya bir qarış torpaqdan imtina etmək niyyətində olmadığımıza dair açıq bir mesaj göndərəcək, o torpaqlarda soydaşlarımızın məskunlaşmalarının və ölkəmizi qurmalarının zəruriliyi bildiriləcək".

Ermənistanın ovaxtkı müdafiə naziri Davit Tonoyan isə Nyu-Yorkdakı erməni icması ilə görüşündə "sülh üçün ərazilər" yanaşmasının tətbiq olunmayacağını vurğulayaraq "sülh üçün ərazilər" adlı formatın yeni ifadə ilə – "yeni ərazilər üçün yeni müharibə" tezisi ilə əvəzləndiyini diqqətə çatdırır, Ermənistan ordusunda hücum bölmələrinin sayını artıracağını vurğulayırdı.

Yuxarıda sadalananlarla bərabər, Vətən müharibəsindən əvvəl Sərsəng su anbarı infrastrukturunun dəyişdirilməsinə yönələn layihə də elan edilmiş, eləcə də Ermənistanı Azərbaycanın işğal olunmuş əraziləri ilə birləşdirmək üçün üçüncü avtomobil yolunun inşası qərara alınmışdı. Eyni zamanda, Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın işğal olunan ərazilərində "Silahlı Qüvvələrin genişləndirilməsi: düşmənin təcavüzünə qarşı mübarizə" adlı genişmiqyaslı hərbi təlimlər keçirilmiş, qanunsuz "parlament" və "prezident" seçkiləri reallaşdırılmışdı. Yeri gəlmişkən, işğalçı ölkənin ordusu Azərbaycan – Ermənistan beynəlxalq sərhədində, Tovuz bölgəsi istiqamətində respublikamızın mövqelərinə hücum edərək 12 hərbçini və bir mülki şəxsi qətlə yetirmişdi.

Vətən müharibəsinin gedişində də Ermənistan insanlığa sığmayan əməllərindən əl çəkmirdi. Belə ki, düşmən ordusu beynəlxalq qanunlarla qadağan olunmuş silahlarla döyüş zonalarından çox uzaqda yerləşən şəhər və kəndlərimizin dinc sakinlərinə atəş açır, çox sayda insanı qətlə yetirirdi. Məqsəd bu yolla Azərbaycanı Ermənistandakı mülki obyektlərə zərbə endirməyə təhrik etmək və beləliklə, Rusiyanı bu münaqişəyə qoşmaq idi. İşğalçının terrora üstünlük verməsi, dinc insanları hədəfə alması həm də Azərbaycan xalqı arasında vahimə yaratmaq, əhalinin müharibəyə etirazını formalaşdırmaq və əməliyyatların qarşısını bu yolla almaq məqsədi daşıyırdı. Lakin bu bədnam niyyəti də gerçəkləşdirmək mümkün olmadı.

Bütün bunlar işğalçı ölkənin faşist xislətini bir daha dünyaya göstərirdi. Erməni həyasızlığı o həddə çatmışdı ki, şəhərlərə raket hücumları edilir, ardınca "biz etməmişik" kimi absurd bəyanatlar verilirdi. Düşmən bu bəyanatları "isbat" etmək üçün "partlayışı suriyalıların törətməsi, yaxud Azərbaycanın bilərəkdən etməsi" kimi müxtəlif dezinformasiyalar yayırdı. Həmçinin Azərbaycanla bağlı "ərəb muzdluları", "Pakistan əsgərləri", "Türkiyə xüsusi təyinatlıları", F-16 qırıcıları, "Xankəndidə doğum evinin", "Şuşada kilsənin" vurulması və digər feykləri yaymaqda davam edirdi.

Dövlətimizin başçısının qətiyyətli siyasəti Ermənistan və onun ədalətsiz havadarlarının acı məğlubiyyəti ilə nəticələndi, Azərbaycan uzun illər çəkən bu ədalətsiz siyasi-hərbi mübarizədən qalib çıxdı. Prezident İlham Əliyev müdrik siyasəti, qətiyyəti ilə status-kvonu dəyişdirdi, təmas xəttini darmadağın etdi. Haqq işində Azərbaycan xalqının birliyi, qalib Prezidentinə və qəhrəman Azərbaycan Ordusuna inamı bu tarixi qələbəni reallaşdırdı. Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunu bir daha təsdiq etdi. Bu haqq savaşı Ermənistanın baş naziri Nikol Paşinyanın ölkəmizə qarşı qaldırdığı əsassız iddialarla və hikkələrlə danışması fonunda bir daha onun və antidemokratik, qaniçən hökumətinin faşist ideologiyasına xidmət etdiyini bütün dünyaya göstərdi.

Prezident İlham Əliyev Vətən müharibəsi dövründə bir çox nüfuzlu xarici media nümayəndələrinə müsahibələr verərək Azərbaycanın haqlı mövqeyini, Ermənistanın isə yalanlarını dünya ictimaiyyətinin diqqətinə çatdırırdı. Həmin müsahibələrdə yer alan bir sıra təxribat xarakterli suallara məharətlə cavab verən ölkə rəhbəri bir daha özünün siyasi-diplomatik bacarığını nümayiş etdirirdi. Azərbaycan lideri çıxışlarında ölkəmizin haqq səsini beynəlxalq aləmə çatdırır, erməni yalanlarını ifşa edir, savaş günlərində Ermənistanın nəinki cəbhəyanı bölgədə olan şəhərlərimizi, kəndlərimizi hədəfə aldığını, eyni zamanda, döyüş bölgəsindən uzaqda yerləşən yaşayış məntəqələrimizi atəşə tutduğunu vurğulayırdı.

Bəzi xarici ölkələr, təşkilatlar, siyasi dairələr Azərbaycana deyirdilər ki, münaqişənin hərbi həlli yoxdur. Lakin Prezident İlham Əliyev "Dəmir yumruq" əməliyyatı ilə sübut etdi ki, münaqişənin hərbi həlli var. Nəticədə ölkəmiz BMT Təhlükəsizlik Şurasının münaqişə ilə bağlı məlum 4 qətnaməsini özü icra etdi. Ermənistanın Azərbaycan torpaqlarını 30 il işğal altında saxlaması bir daha göstərdi ki, beynəlxalq hüquq işləmir və ona riayət olunmur. Güc amili beynəlxalq münasibətlərdə ön sıraya çıxır. Azərbaycan isə öz gücünü məhz BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq, beynəlxalq hüququn normaları çərçivəsində istifadə etdi. Bu işğalçını "Sülhə məcburetmə" əməliyyatı idi.

Vətən müharibəsindən sonra Fransa, Niderland və Belçika kimi ölkələrin parlamentlərində Azərbaycanı və qardaş Türkiyəni hədəfə alan qərəzli qətnamə layihələri və digər təşəbbüslər irəli sürülərək qəbul olunurdu. Belə təşəbbüslərin müəllifləri əksər hallarda ultra-sağçı, ultra-millətçi və islamofob partiyaların və dairələrin nümayəndələri idi. Xatırladaq ki, Azərbaycan tərəfindən tarixi ədalətin bərpa olunması, beynəlxalq hüququn aliliyinin bərqərar edilməsi və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin icrasının reallaşdırılması istiqamətində əldə etdiyi uğurlarla heç cür barışmaq istəməyən bu qüvvələr parlamentlərdə mütəmadi olaraq mövzunu süni şəkildə şişirdir, öz hökumətlərinə müxtəlif təxribat xarakterli suallar ünvanlayır, müxtəlif təşəbbüslərlə çıxış edirdilər.

Prezident İlham Əliyev isə bu cür ədalətsiz qərarların qəbul edilməsini bu ölkələrin Azərbaycanla siyasi, iqtisadi və digər sahələrdə daha sıx əlaqələr qurmasına kömək etməyəcəyini vurğulayırdı. Dövlətimizin başçısı işğal olunmuş ərazilərdəki dini abidələrin və məscidlərin kütləvi surətdə dağıdılmasını Ermənistanın islamofob mahiyyətinin göstəricisi kimi qiymətləndirir, Azərbaycanın dostluq etməyə çalışdığı müsəlman ölkələri tərəfindən nəzərə alınmasını istəyirdi.

***Vaqif BAYRAMOV***
***XQ***

# Vətən müharibəsinin xronikası

**2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı. Vətən müharibəsi 30 illik işğala son qoyan şanlı Qələbə ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan möhtəşəm Zəfər Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı.**

## 7 noyabr

• Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev özünün rəsmi "Twitter" səhifəsində Azərbaycan Ordusunun Füzulinin Yuxarı Veysəlli, Yuxarı Seyidəhmədli, Qorqan, Üçüncü Mahmudlu, Qacar, Divanalılar, Cəbrayılın Yuxarı Məzrə, Yanarhac, Qubadlının Qəzyan, Balasoltanlı, Mərdanlı, Zəngilanın Beşdəli, Xocalının Qarabulaq, Moşxmaat, Xocavəndin Ataqut, Tsakuri kəndlərini işğaldan azad etdiyini bildirilib.

• Müdafiə Nazirliyinin məlumatına əsasən, döyüş əməliyyatları müxtəlif intensivlikdə cəbhənin Ağdərə, Ağdam və Xocavənd istiqamətlərində həyata keçirilib. Ağdərə istiqamətində Ermənistan silahlı qüvvələrinin 5-ci dağatıcı alayının müdafiə mövqelərinə artilleriya zərbələri endirilib. Həmçinin işğalçı ordunun 6-cı dağatıcı alayının birinci taborunun bölmələrinin şəxsi heyəti itkilərə məruz qalıb, D-30 artilleriya divizionunun 3-cü batareyasının topları sıradan çıxarılıb.



• Döyüşlərdə xeyli sayda şəxsi heyət və hərbi texnika itkisi verən düşmən geriyə çəkilməyə məcbur edilib. Bölmələrimiz tərəfindən Ermənistan ordusunun 178-ci əlahiddə kəşfiyyat taborundakı, eləcə də 022-ci xüsusi təyinatlı hərbi hissəsinin şəxsi heyəti məhv edilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən daha sonra bildirilib ki, döyüşlər başlayandan indiyədək canlı qüvvə sarıdan xeyli itkiyə məruz qalan düşmən xüsusi təyinatlılarını gücləndirmək məqsədilə könüllülərdən və yerli sakinlərdən də istifadəyə başlayıb. Buna baxmayaraq, son döyüşdə ağır itkilər verən xüsusi təyinatlılar mövqelərindən çəkilmək məcburiyyətində qalıblar.



Daxil olan məlumata görə, Ermənistandan işğal olunmuş ərazilərimizə gətirilən 178-ci əlahiddə kəşfiyyat taboru da döyüşlərdə ölü və yaralı olaraq şəxsi heyətinin yarısını itirib.

• Müdafiə Nazirliyi Cəbrayıl rayonunun işğaldan azad olunan kəndlərinin videogörüntülərini paylaşıb.

• Düşmənin Ağdamdan Xankəndi istiqamətində hərəkət edən 3 "KamAZ", 2 "Ural" və 2 PDM-dən ibarət hərbi kolonunun atəşə tutulması nəticəsində çoxlu sayda hərbi qulluqçusu məhv edilib.

• Tərtər rayonunun Səhləbad kəndində Ermənistan silahlı qüvvələri tərəfindən atılmış bir ədəd zenit raketi və 9N235 bombacığı aşkar edilib. ANAMA-nın əməkdaşı Şahin Allahverdiyev bildirib ki, 206 millimetrlik 9N33 raketi "OSA" zenit raket kompleksindən, 9N235 bombacığı isə 9M525 raket sistemindən atılıb. Partlamamış raket və bombacıq ANAMA-nın əməkdaşları tərəfindən partlatma yolu ilə zərərsizləşdirilib.

• Ermənistanın silahlı qüvvələri elan edilmiş humanitar atəşkəs rejiminin tələblərini kobud şəkildə pozmaqla dinc mülki əhalimizə qarşı cinayət əməllərini davam etdirib. Baş Prokurorluğun Mətbuat xidmətindən bildirilib ki, düşmən tərəfin silahlı birləşmələri tərəfindən Bərdə rayonu müxtəlif istiqamətlərdən intensiv raket və ağır artilleriyadan atəşə tutulub. Saat 16 radələrində Bərdə rayonu, Yeni Əyricə kəndində fərdi yaşayış evinə mərmi düşməsi nəticəsində 2004-cü il təvəllüdlü Şahmalı Rəhimov həlak olub, yaşayış evinə isə ciddi ziyan dəyib.

• Cəbhənin Ağdam istiqamətində gedən döyüşlərdə Ermənistan silahlı qüvvələrinin bölmələrinə ciddi ziyan vurulub. Müdafiə Nazirliyinin məlumatına görə, bu istiqamətdəki 37-ci atıcı diviziyanın 4-cü motoatıcı alayının müdafiə sahəsindəki minaatan batareyasına endirilən artilleriya zərbələri nəticəsində düşmən itki verərək mövqelərini tərk edib. Alayın gücləndirilməsi məqsədilə bura gətirilən və içərisində könüllülər olan avtobus qəzaya uğrayıb. Nəticədə 30 nəfərədək ehtiyatdan çağırılmış hərbi vəzifəlilərin xəsarət aldığı məlum olub. 62-ci artilleriya briqadasının 4-cü reaktiv divizionunun atəşə tutulması nəticəsində isə bir BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi sıradan çıxarılıb.

***Mustafa KAMAL***
***XQ***



# Xalqımızın milli qürur və şərəf mənbəyi





**Nəsimi Rayon İcra Hakimiyyəti və Müdafiə Nazirliyinin birgə təşkilatçılığı ilə Nizami Kino Mərkəzində Vətən müharibəsində tarixi Qələbənin 5-ci ildönümünə həsr edilmiş “Zəfər Bayrağı altında zəfərdən zəfərlərə!” adlı təntənəli mərasim keçirildi.**

İştirakçılar əvvəlcə hərbi orkestrin ifa etdiyi marşların sədaları altında Uşaq İnkişaf Mərkəzinin yetirmələrinin şanlı Zəfər yürüşünü, Qarabağda aparılan möhtəşəm quruculuğu əks etdirən rəsmlərdən və əl işlərindən ibarət sərgiyə baxdılar. Sonra Müzəffər Ali Baş Komandan İlham Əliyevin Vətən müharibəsi günlərində ölkə və xarici media vasitələrində çıxışlarının icmalından ibarət “8 Noyabr Zəfər Günü” adlı videoçarx nümayiş etdirildi.

Məclisdə çıxış edən Nəsimi Rayon İcra Hakimiyyəti başçısının səlahiyyətlərini icra edən Zahid Xəlilov son 2 əsrlik tariximizin ən böyük qələbəsi olan Qarabağ Zəfərinin ölkəmizin ərazi bütövlüyünü təmin etdiyini vurğuladı, bunulla dövlət suverenliyimizin işğaldan azad edilmiş əraziləri də əhatə etdiyini, xalqın şərəf və qürur duyğularının ucalara yüksəldiyini söylədi. O qeyd etdi ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış tarixi Zəfər 5 ildir ki, xalqımızı əmin-amanlığa qovuşdurub, Qarabağa əbədi dinclik və xoşbəxtlik gətirib.

Bildirildi ki, 30 illik məğlubiyyət və milli məyusluğa həyatları bahasına son qoymuş şəhidlərimizin ailələrinə və qazilərimizə bütün ölkəmizdə olduğu kimi, Nəsimi rayonunda da daim yüksək həssaslıqla yanaşılır, onların hünərləri ehtiramla yad edilir, problemləri, ilk növbədə, aradan qaldırılır. Qarabağın və Şərqi Zəngəzurun dirçəlişinə rayonun xidmət və istehsal qurumları öz töhfələrini verirlər.

Mərasimi müşayiət edən “Vətən, sənin şəhidlərin” elegiyası və bədii kompozisiyalar iştirakçılara yüksək vətənpərvərlik duyğuları yaşatdı. Məclisin sonunda “Müzəffər ordumuz” mahnısının sədaları altında şəhid ailələrinə xatirə hədiyyələri təqdim edildi.

***Tahir AYDINOĞLU***
***XQ***

# “Zəfərli Azərbaycan” məclisi



**Dünən Milli Azərbaycan Ədəbiyyatı Muzeyində Azərbaycan xalqının tarixi, əzəli torpaqları uğrunda qazandığı şanlı Qələbənin 5-ci ildönümünə həsr olunmuş musiqili-ədəbi məclis keçirilib.**

Mərasimi giriş sözü ilə açan muzeyin direktoru, Milli Məclisin deputatı, akademik Rafael Hüseynov qeyd edib ki, Zəfər bayramı, əslində, Azərbaycanın ləyaqət, yenidən dirçəliş bayramıdır. Bu bayram digər təntənələrdən ucada dayanır. Çünki bu Zəfər olmasaydı, başqa bayramların da mənası və əzizliyi azalardı, müstəqilliyimiz bütöv olmazdı. Bu qələbəni qazanmaqla ləyaqətimiz də, qürurumuz da bütövləşib. Xalqımız özünü daha yaxşı dərk etməyə başlayıb. Sərhədlərimizin dörd tərəfində bu gün Himnimiz daha gur səslənir.

Akademik daha sonra qeyd edib ki, Qarabağda və Şərqi Zəngəzurda həyata keçirilən nəhəng tikinti, quruculuq layihələri dünyanı heyran qoyub. Prezident, Ali Baş Komandan İlham Əliyevin minillərə sığan dövlətçilik tarixində ən böyük xidməti ondan ibarət oldu ki, Azərbaycan insanının o böyük ləyaqət hissi təzədən ona qaytarıldı. Düşmən tapdağından azad olmuş rayonların hər kəndində, qəsəbəsində Azərbaycanın üçrəngli bayrağı ucaldıldı.

Natiq əlavə edib ki, bu günlərdə Xankəndidə olarkən orada 25 min əhalinin yaşadığını öyrənib. Qısa müddətdə belə nəhəng işlərin görülməsi böyük əməyin nəticəsidir.

Məclisdə Azərbaycan Yazıçılar Birliyinin üzvü, şair-yazıçılar Qaşəm İsabəyli və Rafiq Yusifoğlu da tarixi günə bağlı ürək sözlərini bölüşüb, şeirlərini söyləyiblər.

“Zəfərli Azərbaycan” musiqili-ədəbi məclisi məktəblilərin vətənpərvərlik mövzusunda şeir qiraətləri, səhnəcik, mahnı və rəqsləri ilə davam edib.



***Qabil YUSİFOĞLU***
***XQ***

# “Tarix yaradan qəhrəmanlar”ın qeyrət dərsi



**Cəlil Məmmədquluzadənin və Abdulla Şaiqin ev-muzeylərinin birgə təşkilatçılığı ilə xalqımızın Tarixi Zəfərinin 5-ci ildönümünə həsr olunmuş “Tarix yaradan qəhrəmanlar” adlı toplantı keçirilib.**

Məclisi Cəlil Məmmədquluzadənin ev-muzeyinin direktoru Yegana Məmmədova açaraq 8 Noyabr zəfərinin ölkəmizin tarixindəki əhəmiyyətindən danışıb, bu qələbəni xalq-ordu birliyinin təntənəsi kimi dəyərləndirib. Abdulla Şaiqin ev-muzeyinin direktoru Ülkər Talıbzadə isə qeyd edib ki, zəfərimiz təkcə hərbi deyil, həm də mənəvi qələbədir.

Toplantıda çıxış edən Dövlət İdarəçilik Akademiyasının və Azərbaycan Turizm və Menecment Universitetinin professorları Firdövsiyyə Əhmədova və Minaxanım Əsədli bundan sonra da uşaq, yeniyetmə və gənclərin yüksək vətənpərvərlik ruhunda tərbiyyə olunmasının vacibliyini vurğulayıblar. Qarabağ qazisi Yusif Əhmədov 44 günlük şanlı savaşda döyüş dostlarının qeyri-adi şücaətlərindən söz açıb.

Sonra bərpaçı rəssam Dilarə Ələsgərovanın şəxsi vəsaiti hesabına hazırladığı Birinci və İkinci Qarabağ müharibələrində Vətən uğrunda canlarından keçmiş 10 şəhidin portretlərindən ibarət “Tarix yaradan qəhrəmanlar” memorial lövhəsi təqdim olunub.

Bədii hissədə istedadlı gənc xanəndə Yusif Cəfərbəyli müharibənin musiqi dastanına çevrilmiş “Xudayarın mahnısı”nı ifa edib. “Vətən” Yaradıcılıq Dərnəyinin rəhbəri Arzu Nuraliyeva şəhidlər haqqında nəşr etdirdiyi kitabı yazarkən keçirdiyi ülvi hisslərdən danışıb. Dərnəyin kiçik yaşlı üzvləri Uğur, Gülay, Nur və Kamil vətənpərvərlik kompozisiyası ilə çıxış ediblər.

***M.HACIXANLI***
***XQ***

# Qələbə ünvanlı sözümüz

**Sumqayıt Poeziya Evində Azərbaycan Yazıçılar Birliyinin yerli bölməsi və N.Nərimanov adına Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə Qarabağ zəfərinin 5 illiyinə həsr olunmuş “Sözümüzün zəfəri – Zəfərimizin sözü” adlı ədəbi-bədii məclis keçirilib.**



Mərasimi giriş sözü ilə açan Adil Səfərov Zəfər yürüşünün şanlı yoluna, qazanılmış uğurlara nəzər salıb. AYB Sumqayıt bölməsinin sədri Gülnarə Cəmaləddin qeyd edib ki, döyüş meydanında taktika və cəsarət necə vacibdirsə, yurd sevgisinin igidliyə çevrilməsində də bədii söz o qədər önəmlidir.

Məclisdə şairlərdən Rafiq Yusifoğlu, Ümid Abbas Nihani, Hikmət Fərzəli, Elvin İntiqamoğlu, Elşad Xaqan Davudoğlu və Zakir Zahir vətənpərvərlik ruhunda şeirlərini səsləndiriblər.

Musiqi və rəqs nömrələri məclisə təntənə gətirib. Hüseyn Səlimovun rəhbərlik etdiyi “Nice” rəqs qrupunun çıxışı, eləcə də Pənah Məmmədli və Hüseyn Məmmədovun ifasında səslənən mahnılar iştirakçıların zəfər duyğularını qanadlandırıb.

***Ə.ƏLİYEV***
***XQ***

# Çağdaş tariximizin öyünc günü



**Carbamid zavodunda 8 Noyabr Zəfər Gününə həsr olunmuş görüş keçirilib. Müəssisənin direktoru Kutay Durna Qarabağ müharibəsi iştirakçılarını, söz-sənət adamlarını salamlayıb və 44 günlük “Zəfər yürüşü”nün tarixi-mənəvi önəmi haqqında danışıb.**

Sonra hərbi-vətənpərvərlik mahnılarının populyar ifaçısı Şəmistan Əlizamanlı, müharibə veteranları Samir Əsgərov və İsmayıl Həkimli, Azərbaycan Yazıçılar Birliyi poeziya bölməsinin rəhbəri İbrahim İlyaslı və gənc şair Elvin Əlizadə kimyaçılar qarşısında çıxış ediblər. Natiqlər tarixi qələbənin Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, xalqımızın əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu sayəsində mümkün olduğunu vurğulayıblar. Mərasimdə mahnılar, şeirlər səsləndirilib. İlk dəfə ifa olunan “Cənab Ali Baş Komandan” marşı alqışlarla müşayiət olunub.

Sonda Qarabağ müharibəsi iştirakçılarına fəxri fərmanlar və hədiyyələr təqdim olunub. Şəhid valideynləri Tahir Məhərrəmov və Nəriman Əliyev ailələrinə göstərilən diqqətə görə minnətdarlıq ediblər.

***XQ***

# Azad Xankəndidə hərbi yürüş



**Noyabrın 6-da azad Xankəndimizdə hərb tariximizin qəhrəmanlıq salnamələrinin yazıldığı 44 günlük müharibədə qazandığımız şanlı qələbənin 5-ci ildönümü münasibətilə hərbi yürüş keçirildi.**

Şəhərin mərkəzində yerləşən Azərbaycan prospekti boyu növbəti dəfə Zəfər musiqiləri səsləndi, hərbi orkestrin müşayiəti ilə addımlayan hərbçilərimizin ayaq səsləri Qarabağın dağlarında əks-səda verərək ürəkləri riqqətə gətirdi. Azərbaycan Silahlı Qüvvələrinin hərbi orkestri tərəfindən səsləndirilən vətənpərvərlik marşları Zəfər yürüşünə bayram ab-havası bəxş etdi, Xankəndidə yaşayan, işləyən sakinlər, Qarabağ Universitetinin müəllim və tələbələri qürurla yürüşü izlədilər.

Qarabağ Universitetinin üzərində işğaldan azad edilən rayonların adları yazılmış köynəklər geyinmiş bir qrup tələbəsinin nümayiş etdirdikləri qısa kompozisiya da tədbirə xüsusi rəng qatdı. Tələbələr növbə ilə köynəklərində yazılmış şəhər və rayonlarımızın adlarını səsləndirərək özlərini azad Qarabağın gələcəyi kimi təqdim etdilər, təhsil ocağının önündən keçən hərbçiləri alqışlarla və coşqu dolu şüarlarla salamladılar.

Bu mənzərə Qarabağda həyatın bərpasının, gənclərimizin milli ruhda yetişməsinin, azadlığına qovuşmuş ərazilərdə təhsilin, mədəniyyətin yenidən dirçəlişinin və Xankəndinin gənclər şəhəri kimi formalaşmaqda olduğunun bariz nümunəsi kimi, həm yürüş iştirakçılarının, həm də şəhər sakinlərinin böyük rəğbətilə qarşılandı. Gənclərin birgə səsləndirdikləri “Biz azad Qarabağın tələbələriyik!” sözləri isə Zəfər Gününün sevincinə sevinc qatdı.

Şənlikdə müqəddəs üçrəngli bayraqlarımız dalğalandı, “Qarabağ Azərbaycandır!” nidası Vətən göylərinə ucaldı.

Zəfər yürüşü xalqımızın birliyini, ordumuzun gücünü və torpaqlarımızın azadlığı uğrunda qazanılan tarixi qələbənin əzəmətini bir daha nümayiş etdirdi.

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***

*Yurd yerlərimiz*

# Yardımlı dağları – tarixlər şahidi

**Qədim türk yaşayış məskənlərindən olan Yardımlı bir çox mənada öz ilkinliyini qoruyub saxlayan bölgələrimizdəndir. Adı ilkin olaraq bu torpaqlarda geniş yayılmış atəşpərəstliklə əlaqələndirilir və günəş, atəş mənasını verən "Yardam" kimi göstərilir. Zaman-zaman bu ad dəyişikliyə uğrayaraq "Yardımlı"ya çevrilib.**



Mərhum akademik Ziya Bünyadov "Azərbaycan VII–IX əsrlər" monoqrafiyasında Ərdəbilin şimalında da "Yardam" şəhərinin olduğunu qeyd edib. Bəzi tarixçilərin fikrincə isə "Yardımlı" coğrafi adının VIII əsrdə Ural və Volqa çayları arasındakı ərazidə yaşamış "Erdim" və ya "Ertem" qəbiləsinin adından yarandığı ehtimal olunur. Hər yönündən türklük boy göstərir.

Güneyli-quzeyli Azərbaycan düz mərkəzində qərar tutan Yardımlıda 100-ə yaxın tarix və mədəniyyət abidəsi qeydə alınıb ki, bunların 60-ı arxeoloji, 8-i memarlıq, 1-i bağ-park, monumental-xatirə, 23-ü isə dekorativ-tətbiqi sənət nümunələridir. Arxeoloji abidələrin (mağara, kurqan, nekropol, qədim yaşayış yeri) 51-i ölkə, 9-u isə yerli əhəmiyyətlidir. Alar, Bozayran, Yolocaq kəndləri bir növ qədim abidə məkanları sayılır. Karvan və ticarət yolları burada keçib.

Rəvayətə görə, Şah İsmayıl Xətai buradakı Şahnişin (2490 metr) yaylağına ova gələndə bir çobanın qızına aşiq olub. Xətai bu qızla şəriət qaydasınca evləndikdən sonra onun şərəfinə Demanda qala tikdirib. Xətai bu yerlərə tez-tez gələrmiş. Hətta orucluqda iftarını Demandakı Gözə bulağının suyu ilə açarmış. Həmin qalanın qalıqları indiyədək qalmaqdadır. Daha qədim tarixi olan Cüzünqala isə Babəkin yadigarıdır.

Əslində, Yardımlı bütövlükdə əlçatmaz bir qala olub. Tarixən igidlərin məskəni olub. Qaçaq hərəkatı üzündən sovet hakimiyyəti belə Yardımlıya 1 il gec gəlib. Bolşevik hökuməti Bakıda 1920-ci, Yardımlıda 1921-ci ildə qurulub. Azərbaycan Xalq Cümhuriyyətinin əskinasları burada bir-iki il artıq işlədilib. Kommunistlərin qaçaqlarla mübarizəsi isə 1928–1930-cu illərədək davam edib. Yerli camaat ruslara qarşı var gücü ilə müqavimət göstərib. Yalnız uzun mübarizədən sonra rus ordusunun 245-ci alayı xeyli itki verməklə ərazini ələ keçirə bilib.

Yardımlının Aları sərt təbiətli yüksək dağ kəndidir. Türkün qan yaddaşında qorunan bir dağ kultu var. Ətrafı başdan-başa kəklikotu ətri saçır. Bu otun bitdiyi yerlərdə kəkliklər çox olur. Alar toponimi eyniadlı türk tayfasının adıdır. Bu kəndin yaxınlığında, dəniz səviyyəsindən təxminən 2200 metr yüksəklikdə olan və Qız qalası kimi tanınan qaya zirvəsi qədimlərdə insanların sığınacaq yeri olub. Burada yerli atəşpərəstlər əvvəlcə ibadətgah, sonra isə qala bürcləri inşa etməklə möhkəm istehkam qurublar. Uzaqdan baxanda dağın başında papaq kimi görünən qalanın bir tərəfi dərin uçurumdur. Üç yandan sərt döngəli qaya cığırı ilə yuxarıya gedib çıxmaq olur. Buranı ziyarət etmək bir gün vaxt aparır.

Maraqlıdır ki, Qız qalasından 500–600 metr aralıda Oğlanqala da var. Hər iki qalaya gediş-gəlişi təmin edən yeraltı yol, tunel olub. Təhlükə olanda birindən digərinə xəbər vermək üçün ən üstdəki bürclərdə tonqal qalanıb. Ərus kəndi abır-ismət timsalı olan gəlinin adı ilə bağlıdır. Əfsanəyə görə, nişanlısına sədaqət göstərmiş xanımın şərəfinə o məskən belə adlandırılıb. Odurağaran toponimi də türk mənşəli olub, "Urdu xana məxsus yerlər", yaxud "Urdu xanın mühafizə edildiyi yer" mənasındadır.

Tarixin XII–XIV əsrlərinə aid edilən Abidərdə isə Arus–Lərzan–Ərsilə kəndləri arasında qərar tutmuş orta əsr abidəsidir. Ocaq, inanc yeridir və "Dərdlərə su verən" mənasını ifadə edir. Söylənənlərə görə, bir vaxtlar ziyarətçilər türbənin qırağında olan xırda daşları divara sürtərək dua-niyyət edirmişlər. Əgər bu zaman daş divara yapışsaydı, inanarmışlar ki, dua həyata keçir.

Rayonun qərb hissəsindəki Abasalı, Avaş, Köhnəqışlaq kimi bəzi yuxarı dağ kəndlərinin adamları xalq arasında "xəlsəlilər" kimi tanınır. Bu ad "xalis", "saf", təmiz mənasındadır. Yeri gəlmişkən, "xəlsəlilər" adını Güneydə - Ərdəbil və Ərşə mahallarında olan bir sıra kəndlərin sakinləri də daşıyırlar.

Yardımlının Təkdam şəlaləsi, Komanı yaylağı, Peştəsər dağındakı (2244 metr) şəlalə və turşsu çeşməsi, Abdallı bulağı da bir növ "aydınlıq" abidələridir. Yolları və digər infrastrukturu lazımınca qaydaya salınsa, buralar əsl turizm məkanına çevrilər...

Bir sözlə, Yardımlı qədim türk yurd yeri kimi misilsiz məkanlardan sayılır. Sahib Əliyev, Sabir Rüstəmxanlı, Musa Qasımlı, Bilal Alarlı, Mehdi Həsənov, Əli Mirzəlioğlu kimi söz-sənət adamları bu diyarın özəlliklərindən sevə-sevə söhbət açıb, maraqlı araşdırmalar təqdim ediblər. Uzun illər "Maarif" nəşriyyatında müxtəlif vəzifələrdə çalışmış, hazırda "Kövsər" nəşriyyatının baş redaktoru olan Hafiz Rüstəm özünün "Bakıdan Yardımlıya səyahət" poemasında bu barədə yaxşı deyib:

***Dağlara qoşulub dağ olur insan,***
***Elə bil, yenidən doğulur insan...***

***Ə.DOSTƏLİ***
***XQ***

# Dəmiri "danışdıran" misgər

**Onun emalatxanasında əl işlərinə tamaşa edirəm. Sakit tərzlə peşəsi ilə məşğuldur və zərb alətində musiqi ifa edirmiş kimi ətrafına məhəl qoymur. Metal parçası ilə "danışır" və ona yeni "həyat" verməyə çalışır. Misi cilalayır, istədiyi formaya salır, son "akkord"ları vurur.**



Misgər Nəzər Əliyev 1962-ci il iyunun 25-də Böyük Qafqazın cənub yamacında 1375 metr hündürlükdə yerləşən Lahıc qəsəbəsində anadan olub. Nəslinin 200 illik ənənəsini davam və inkişaf etdirir. Deyir ki, qəsəbəmiz XVIII–XIX əsrlərdə Azərbaycanın misgərlik və silah istehsalı mərkəzlərindən olub. Burada mürəkkəb və incə naxışlarla bəzədilən dolça, məcməyi, aşsüzən, kəfkir, kasa, cam, qazan, çıraq və sair məmulatlar Azərbaycanda və xarici ölkələrdə də tanınıb. Yerli ustaların yaratdıqları maddi–mədəniyyət nümunələri hazırda da dünyanın məşhur muzeylərinin ekspozisiyalarını bəzəməkdədir.

Aram-aram danışan usta "misgərlik krallığı" kimi tanınan qəsəbənin tarixinə toxunur: "Lahıcda olan mis emalatxanaları, "misgər bazarı" bir çox ölkələrdə tanınıb. Lakin XIX əsrin sonlarında ucuz rus fabrik məhsullarının gətirilməsi ilə emalatxanaların sayı azalsa da, artıq yenidən tarixi ənənə dirçəldilib. Dövlət dəstəyi nəticəsində ənənəvi emalatxana qurğuları və alətləri, mistökmə, döymə və oyma bəzəklər ənənəsi qorunub saxlanılır".

"Lahıcın misgərlik sənəti" 30 noyabr – 4 dekabr 2015-ci il tarixində Namibiyada keçirilmiş Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin 10-cu sessiyasında UNESCO-nun Qeyri-maddi mədəni irs üzrə Reprezentativ Siyahısına daxil edilib.

Əlini bir an belə işindən ayırmayan Nəzər kişi ilə söhbətdə öyrənirəm ki, misgərlik babalarından sonra onun atasına və əmilərinə keçib. O da ağlıkəsəndən bu sənətin içində olub, bu işə qəlbən bağlanıb. Ali təhsil aldıqdan sonra bir müddət müəllim işləsə də, yenidən ənənəvi sənətinə qayıdıb. İki oğlu ali təhsil alıb başqa sahədə çalışsa da, onlar da misgərliyi yaxşı bacarırlar.

– El şənliklərində ustalar arasında keçirilən yarışlarda mütəmadi olaraq mən də iştirak edirdim, – deyə o bildirir. – Yaxşı yadımdadır, 1996-cı ildə ümummilli lider Heydər Əliyevin iştirakı ilə keçirilən sərgidə 20 usta arasında qalib oldum və mükafat qazandım. Bakıda keçirilən COP29-da isə ilk gündən sona qədər iştirak etdim və misgərliklə bağlı ustad dərsi keçməklə bu sənətin incəliklərini geniş şəkildə təbliğ etdim. Bir sözlə, misgərlik sənətimlə dünyanı gəzirəm. Almaniya, Fransa, Rusiya, Avstriya, Gürcüstan, Qazaxıstan və digər ölkələrə səfər etmişəm, evimdə də xeyli qonaqlarım olub. Bakıda keçirilən tədbirlərin birində Prezident İlham Əliyevlə görüşdüm və onu evimizə qonaq dəvət etdim. Cənab Prezident dedi ki, mütləq sənin qonağın olacağam.

Dövlət başçısı Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Lahıc qəsəbəsinə təbii qazın verilməsi mərasimində iştirak etdikdən sonra əvvəlcə emalatxanama, sonra evimə gəldilər. Ailə üzvlərimizlə birlikdə xatirə şəkli çəkdirdik. Bu hisslər sözlə ifadə edilə bilməz. Bu, mənim və ailə üzvlərimin həyatında ən gözəl və ən unudulmaz hadisə oldu. Bu, həm də dövlət başçısının sənətə, sənətkara, kəndliyə və vətəndaşa verdiyi ən yüksək dəyərin göstəricisidir.

Söhbətimizin şirin yerində usta deyir ki, Birinci vitse-prezident Mehriban xanım qızları ilə birlikdə 2019-cu ildə qəsəbəmizə gələrkən də onun qonağı olub. Səmimi söhbətdən sonra ustad sənətkar bildirib ki, yaxınlıqda olan məscid 1791-ci ildə tikildiyindən təhlükəli vəziyyətə düşüb. Bunu eşidən kimi Mehriban xanım tapşırıq verib ki, məscid Heydər Əliyev Fondunun vəsaiti hesabına təmir olunsun. Göstəriş qısa vaxt ərzində həyata keçirilib və 2022-ci ildə məscidin təmirdən sonra açılışı olub.

Lahıc Dövlət Tarix-Mədəniyyət Qoruğunun direktoru, tanınmış misgər turizm sahəsində də peşəkarlığı və işgüzarlığı ilə seçilir. Prezident İlham Əliyevin 2 oktyabr 2023-cü il tarixli Sərəncamı ilə Nəzər Əliyev Azərbaycanda turizm sahəsində səmərəli fəaliyyətinə görə "Tərəqqi" medalı ilə təltif olunub.

***Mikayıl NƏRİMANOĞLU,***
***XQ-nin bölgə müxbiri***

# Lerik balı – can dərmanı



**Vizəzəmin kəndi uca dağların ətəyində yerləşir. Təbiət bu yerlərdən səxavətini əsirgəməyib. Zümrüd donlu meşələr, zümzüməli dağ çayı, sərin bulaqlar kəndin gözəlliyini, füsunkarlığını daha da artırır.**



Yerli əhali ata-babadan əkinçilik, heyvandarlıqla məşğul olur. Kəndin səfalı təbiəti, zəngin bitki örtüyü arıçılığın inkişafı üçün geniş imkanlar açır. Arıçılıqdan söz düşəndə kənddə Elşad Əmirovun adı birinci çəkilir. Elşadla bu günlərdə Lerikdə keçirilən "Ekofestival"da yaxından tanış olduq. "Nur balı" adı ilə istehsal etdiyi keyfiyyətli dağ balını sərgidə nümayiş etdirirdi.

Elşad ixtisasca aqronomdur. Uzun illər kənd təsərrüfatı sahəsində aqronom, briqadir, anbar müdiri və digər vəzifələrdə işləyib. Hazırda arıçılıqla bağlı ailə ənənələrini yaşadır. Söhbət zamanı deyir ki, ulu babası Ağayar və övladları, atası Ağaşirin məşhur arıçı kimi tanınıblar. Bu gün estafeti Elşad davam etdirir. 2016-cı ildə 12 arı ailəsi ilə ata-baba peşəsini inkişaf etdirməyə başlayıb. Beş il ərzində subsidiya alıb. Dövlət qayğısı sayəsində arı ailələrinin sayını 60-a çatdırıb. Arıların təbii bitkilərdən, çiçəklərdən şirə toplaması üçün 1 hektar sahədə albalı, gilas, alma və digər meyvə ağacları əkib. Hazırladığı ikitəbəqəli arı yeşikləri məhsulun keyfiyyətinə, arıların pöhrə verməsinə yaxşı təsir edir.

Elşadın şəxsi arıçılıq təsərrüfatında istehsal ilbəil artır. İlk vaxtlar məhsul götürməyib, arıların qidalanmasına, pöhrə verməsinə üstünlük verib. 2018-ci ildə təsərrüfatda 50 kiloqram məhsul istehsal olunub. Bu il 300 kiloqrama yaxın ekoloji cəhətdən təmiz, keyfiyyətli bal, arı südü, çiçək tozu, vərəmum istehsal edib.

On ilə yaxındır ki, Lerikdə Arıçılar Assosiasiyası fəaliyyət göstərir. **Assosiasiyanın sədri Ələkbər Salayev** bildirir ki, rayonun iqtisadiyyatında arıçılıq mühüm yer tutur.

– Sovet dönəmində rayonda ayrıca arıçılıq sovxozu olub, şəxsi təsərrüfatlarla yanaşı, kolxoz və sovxozların hər birində 150-200 arı ailəsi saxlanılırdı. Ənənə indi də yaşayır. Möhtərəm Prezidentimiz İlham Əliyev arıçılığın inkişafının vacibliyi və perspektivləri haqqında demişdir: "Arıçılığın da çox böyük ixrac potensialı var. Azərbaycan dünya miqyasında arıçılıq, bal istehsalı sahəsində önəmli yer tuta bilər".

Arıçılığa maraq böyükdür. Rayonda 900-ə yaxın fermer 14478 arı ailəsi saxlayır. Hər il orta hesabla 150 tona yaxın təmiz, keyfiyyətli bal istehsal olunur. Məhsul respublika bazarlarına, Bakı şəhərində bal məhsullarının sərgi-satış yarmarkalarına çıxarılır. Lerik brendli, ekoloji cəhətdən təmiz balı alıcılar həvəslə alırlar. Çox təəssüflə qeyd edim ki, bəzi rayonlar Lerik balı adı ilə öz keyfiyyətsiz məhsullarını satışa çıxarır, arıçılarımızın nüfuzuna xələl gətirirlər.

Dövlətimiz tərəfindən arıçılığın inkişafına davamlı şəkildə qayğı göstərilir. "Arıçılıq haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olunub. Hər il arıçılara subsidiya ödənilir. Ölkə başçısının arıçılığın inkişafına qayğısı, kənd təsərrüfatının bu gəlirli sahəsinə xüsusi önəm verməsi arıçıları hədsiz sevindirir. Özüm də arıçılıqla məşğul oluram. Şəxsi təsərrüfatımda 150 arı ailəsi saxlayıram. İstehsal etdiyim təbii, ekoloji cəhətdən təmiz bal və digər arıçılıq məhsulları ilə sərgi-satış yarmarkalarında iştirak edirəm.

Lerik həm də turizm diyarı kimi tanınır. Respublikamızın ayrı-ayrı bölgələrindən, Türkiyə, Rusiya, Belarus, Almaniya və digər xarici dövlətlərdən hər il rayona çoxlu sayda turistlər gəlir. İstirahət mərkəzlərində təmiz, keyfiyyətli bal və digər arıçılıq məhsullarının satışının təşkili Lerik brendli məhsulların xarici bazarlara çıxarılmasına təsir edəcək.

Arıçıların müəyyən çətinlikləri də mövcuddur. Yonca, xaşa bitkilərinin, cökə və akasiya ağaclarının əkilməsinə, yeni meşə zolaqlarının salınmasına ehtiyac var. Bələdiyyə, meşə fond torpaqlarında arıları yemləndirmək üçün çətinliklər öz həllini gözləyir.

Son vaxtlar akarapidoz və varratoz kimi xəstəliklər geniş yayılıb. Bu xəstəliklərin müalicəsində işlədilən dərmanlar çox vaxt keyfiyyətsiz olur, lazımi nəticə vermir. Xəstəlik üzündən arı ailələri məhv olur, – deyə həmsöhbətim Ələkbər Salayev söhbətini yekunlaşdırır.

Arıçılıq rentabelli sahə olmaqla yanaşı, həm də insanların sağlamlığına xidmət edir. Arı ailələrinin cins tərkibinin yaxşılaşdırılmasına və rayonlaşdırılmasında, xəstəliklərin vaxtında aşkar edilərək müalicə tədbirlərinin görülməsinə, arıçılığın yem bazasının gücləndirilməsinə, bal emalı və qablaşdırma sexlərinin açılmasına tələbat vardır. Fermerlərə lazımi köməklik göstərilsə, arı ailələrinin sayını çoxaltmaq, arıçılıq məhsullarının istehsalını və keyfiyyətini yüksəltmək mümkündür.

***Əlisəfa HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***



# Saatlıda pambıq festivalı

**Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzi və Saatlı Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Aqrar Biznes və Pambıq Festivalı keçirilib. Bu, cari il ərzində ölkənin regionlarında təşkil olunmuş sayca 15-ci məhsul festivalıdır.**

Festivalın əsas məqsədi pambıqçılıq sahəsində istehsal zəncirinin bütün mərhələlərində – toxumçuluqdan yığım və emala qədər əməkdaşlığın gücləndirilməsi, fermerlərin müasir texnologiyalarla tanış olması, ixracyönümlü istehsalın təşviqi, regionda aqrar sahibkarlığın inkişafına dəstək verilməsidir. Bununla yanaşı, festival kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən müəssisə və təşkilatlar arasında əlaqələrin genişləndirilməsi, yeni tərəfdaşlıqların yaradılması və yerli məhsulların tanıdılması baxımından da mühüm əhəmiyyət daşıyır.

Festival çərçivəsində, həmçinin mövsümün 14-cü və sonuncu toxum sərgi-satış yarmarkası keçirilib. Yarmarkada bölgənin torpaq-iqlim şəraitinə uyğunlaşdırılmış "Qobustan", "Əsgəran", "Mətin", "Maurizio", "Qadio" buğda sortları, eləcə də "Qarabağ 22", "Dəyanətli", "İosif", "Günəş" və "Finola" arpa sortları nümayiş etdirilib. Fermerlərə bu sortların məhsuldarlıq, xəstəliklərə davamlılıq və keyfiyyət göstəriciləri barədə ətraflı məlumat verilib.

**Aqrar İnnovasiya Mərkəzinin direktoru Anar Cəfərov** bildirib ki, ölkə üzrə keçirilən məhsul festivalları yalnız satış və sərgi məkanı deyil, eyni zamanda, innovativ ideyaların paylaşılması, yeni biznes modellərinin formalaşması üçün platforma rolunu oynayır. Onun sözlərinə görə, fermerlər və sahibkarlar bu festivallar vasitəsilə tədarükçülərlə, maliyyə qurumları və texnologiya şirkətləri ilə birbaşa təmas qurmaq imkanı əldə edirlər.

Xatırladaq ki, festival çərçivəsində Kənd Təsərrüfatı Nazirliyinin elmi-tədqiqat institutları, o cümlədən Bitki Mühafizəsi və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutu da yaxından iştirak edib. İnstitutun stendində pambıqçılıq sahəsində aparılan elmi-tədqiqat işləri, seleksiya istiqamətində əldə olunan nəticələr, yerli və perspektiv pambıq sortları, həmçinin onların becərilmə texnologiyaları barədə ziyarətçilərə ətraflı məlumat təqdim olunub. Bundan əlavə, pambıq bitkisində xəstəlik və zərərvericilərə qarşı mübarizə üsulları, bioloji və aqrotexniki tədbirlərin tətbiqi sahəsində əldə olunan yeniliklər də nümayiş etdirilib.

Festivalda müxtəlif kənd təsərrüfatı məhsul və texnologiyaları, həmçinin pambıqçılıqda geniş istifadə olunan kənd təsərrüfatı texnikaları və aqreqatlar geniş şəkildə sərgilənib.

Aqrar Biznes Festivalı çərçivəsində keçirilən "Aqrar sahədə dövlətin dəstək mexanizmləri" mövzusunda panel müzakirədə fermerlərə və sahibkarlara güzəştli kreditlər, subsidiyalar, dövlət proqramları və investisiya dəstəyi imkanları barədə məlumat verilib. Məhsul festivalı zəngin mədəni proqramla yekunlaşıb.

***M.QULİYEV***
***XQ***

*Hər daşın altında bir tarix yatır*

# Gəncənin yeraltı dünyası

## *Unudulmuş tunellərin harayı niyə eşidilmir?*

**Ola bilsin ki, mübahisə doğuracaq bu yazıya "Xalq qəzeti"nin 2013-cü il 28 fevral tarixli nömrəsində dərc olunmuş maraqlı bir xəbərlə başlamaq istəyirik:**

"Gəncədə yeraltı fayton yollarını bərpa etmək üçün ABŞ-dan robotlar gətiriləcək. Bu barədə Gəncə Regional Elm Mərkəzinin direktor müavini Samir Pişnamazzadə bildirib ki, ABŞ-ın Smitson İnstitutunun Milli Muzeyinin rəhbəri Pol Maykl Teylor Gəncəyə səfəri zamanı bu məsələ müzakirə olunub. Hazırda yolların bərpasında robotların iştirakı ilə bağlı layihə hazırlanır və Vaşinqtonda müzakirə ediləcək. Layihə qəbul edilərsə, bu ilin ortalarında bərpa işlərinə başlanıla bilər".

Xəbərdə o da qeyd edilirdi ki, Gəncədə yeraltı fayton yollarının muzey kimi bərpası planlaşdırılır. Şəhərdə aparılan tədqiqatlar nəticəsində bu yolların xəritəsi hazırlanmış, tarixi eksponatlar və inventarlar toplanmış, lakin işin təhlükəli xarakterinə görə prosesə robotların cəlb edilməsi nəzərdə tutulmuşdu.

Bəli, inanılmaz bir sensasiyalı xəbər! 12 il əvvəl rəsmi dövlət qəzetində dərc olunan bu yazını adi oxucu təəccüblə qarşılamışdı. Amma Gəncə sakinləri üçün bu, yeni xəbər deyildi. Onlar ata-babalarından bu yollar haqqında çox eşitmiş, bəziləri özləri də həmin yerlərə düşüb baxmış, hətta məktəb illərində müəllimlərinin müşayiəti ilə ekskursiyalarda o yolları gəzmişdilər.

Yəni "fayton yolları" məsələsi bir qədər mübahisəli olsa da, yeraltı yolların mövcudluğu gəncəlilər üçün heç də təəccüblü deyildi. Əksinə, arxeoloqların və etnoqrafların bu sahəni araşdırmağa gələcəyi günü səbirsizliklə gözləyirdilər.

Yerli sakinlərin xatirələrinə görə, hərbi hazırlıq müəllimləri onlara bu yolları göstərərək bildirirdilər ki, yeraltı keçidlər əsasən hərbi məqsədlərlə inşa olunub. Düşmən hücumları zamanı əhalinin təxliyəsi, həmçinin qəfil əks-hücumların təşkili üçün bu yollar strateji rol oynayıb. Bəzi yerlərdə isə ərzaq və silah anbarları da yerləşirmiş.

"Gəncə böyük hərflə" jurnalının 2009-cu il, 15-ci nömrəsində də bu tunellər barədə geniş məlumat verilib. Yazıda qeyd olunur ki, Gəncənin yeraltı yollarının ümumi uzunluğu 90 kilometrə qədərdir. Tunellərin orta hündürlüyü 3 metr, eni isə 2,5 metrdir. Tavanlar qırmızı kərpiclə tağ formasında hörülüb, bu da həm estetik, həm də dayanıqlılıq baxımından mühüm mühəndislik həllidir. Döşəmələr bəzi yerlərdə daş, bəzi hissələrdə isə qədim kərpiclərlə örtülüb.





Tunellərdə havalandırma sistemi də olub. Xüsusi borular hava dövranını təmin edirmiş. Bəzi yerlərdə bu yollar kəhrizlərlə kəsişdiyindən, orada içməli su da mövcud olub. Sovet dövründə keçidlərin bir çoxu bağlanıb, ventilyasiya borularının bəziləri tıxanıb.

Bütün bunlara baxmayaraq, Gəncənin qədim tarixində dərin iz qoymuş bu yeraltı tunellər barədə səslənən suallar hələ də cavabsız qalır. Halbuki bu unikal memarlıq nümunələri həm hərbi, həm də mühəndislik baxımından əvəzsiz irs hesab edilə bilər.

Tunellərin quruluşu həm möhkəmliyə, həm də təhlükəsizliyə hesablanıb. Qırmızı kərpiclə tikilən tağ formalı tavan təzyiqə və hətta zəlzələlərə belə dözümlü olub. Havalandırma boruları sayəsində tənəffüs mümkün idi və bəzi tədqiqatçılara görə, həmin borular bəzən rabitə məqsədilə də istifadə olunub.

### Dünənə açılan qapı

Tarixi mənbələrdən aydın olur ki, bu yollar vasitəsilə silahlı dəstələr düşmənin arxasına keçərək qəfil hücumlar təşkil edə bilirdilər. Tunellərin kəhrizlərlə kəsişməsi içməli su təminatını da mümkün etmişdi. Yəni bu keçidlər həm logistik, həm də hərbi cəhətdən şəhərin "gizli silahı" rolunu oynayıb.

Rus sərkərdəsi Aleksandr Suvorovun "Gəncə yaxşı möhkəmləndirilmiş şəhərdir. Burada 50 top, 3000 atlı və 500 piyada vardır" sözləri də bunu təsdiqləyir. Mərhum alim Fərrux Əhmədovun "Gəncənin tarix yaddaşı" kitabında qeyd edilir ki, şəhər öz müdafiəsini təmin etmək üçün bütün imkanlardan, o cümlədən yeraltı keçidlərdən istifadə edib.

Sovet dövründə tunellər daha da təkmilləşdirilərək zirzəmi və sığınacaq kimi istifadə olunub. Bəzi hissələrdə dəmir-beton konstruksiyalarla möhkəmləndirilməsi onların o dövrdə də ciddi strateji əhəmiyyət daşıdığını göstərir.

Gəncə yeraltı yolları ilə bağlı ilk ciddi sənədlərdən biri 1797-ci ildə Sankt-Peterburqda çap edilmiş "Plan kreposti Qyandji" adlı kitab-xəritədir. Onu rus hərbi mühəndisi İvan Qartinq tərtib etmişdir. Daha sonra, 1855-ci ildə bu plan təkmilləşdirilərək yenidən hazırlanmış və Rusiya Müdafiə Nazirliyinə təqdim olunmuşdur.

Sovet dövründə isə bu mövzu məxfi status daşıyıb. Həmin dövrdə yalnız Moskvadakı Mərkəzi Dövlət Hərbi Tarix Arxivində (fond 349, sıra 12, iş 6067) bu barədə məlumat tapmaq mümkün idi.

Müstəqillik dövründə isə bu dəyərli irsə qarşı laqeyd münasibət nəticəsində tunellərin çoxu dağıdılıb və ya torpaq altında qalıb. Bəzi yerlərdə kanalizasiya xətləri çəkilib, bəzilərinin girişi bina tikintisi zamanı doldurulub.





Ən acınacaqlısı isə odur ki, bu dağıntılar bəzən məlumatsızlıqdan deyil, şəxsi maraqlardan doğub. Bəzi şəxslər bu tunelləri məhv etməklə, hətta erməni narrativlərinə uyğun saxtalaşdırılmış məlumatlar yaymaqdan da çəkinməyiblər.

Gəncənin qədim tarixində dərin iz buraxmış yeraltı tunellər haqqında suallar hələ də cavabsızdır. Halbuki bu unikal memarlıq nümunələri həm hərbi, həm də mühəndislik baxımından əvəzsiz irs sayılmalıdır.

Sovet dövründə bu yolların bir çoxu daha da təkmilləşdirilərək müharibə vəziyyətində sığınacaq və anbar funksiyası daşıyıb. Bəzi yerlərdə tunellərin üzəri dəmir-betonla möhkəmləndirilib, bu da onların strateji əhəmiyyətinin bir daha sübutudur.

Araşdırmalara görə, yollar inşa edilərkən faytonların hərəkəti də nəzərə alınıb. Tunellərə giriş Gəncə xan sarayından başlayırmış. Sarayın yaxınlığında yerləşən Çökək hamam və Şah Abbas məscidi arasında keçən bu yol hər iki abidəyə də bağlı imiş.

Türkiyənin Amasiya şəhərindəki bir məscidin hasarında yerləşən kitabədə Gəncənin yeraltı yollarını inşa edən və sonradan vətənini tərk edərək Türkiyəyə köçmüş memar Mahmud oğlu Məhəmmədin adı qeyd olunur.

Görkəmli alim və memar Şeyx Bəhaəddin Amuli 1606-cı ildə Gəncədə aparılan yenidənqurma işlərinə rəhbərlik edərkən yeraltı yolların qorunmasına xüsusi diqqət göstərmişdi.

Sovet illərində isə bu keçidlərdən bəziləri bağlanıb, bəzilərindən həbsxana kimi istifadə olunub. Tarixi mənbələrə əsasən, tunellər döyüş zamanı həm müdafiə, həm də gizli hərbi-strateji məqsədlər üçün istifadə edilib. Düşmən hücumları zamanı əhalinin gizlədilməsi, ərzaq və silah ehtiyatlarının saxlanması bu yollar vasitəsilə mümkün olub.

Tədqiqatlar göstərir ki, üç əsas istiqamətdə tikilmiş bu yollar şəhərin demək olar bütün ərazilərini birləşdirib. Bəzi tədqiqatçılar, hətta burada ikimərtəbəli keçidlərin də mövcud olduğunu ehtimal edirlər.

2010-cu illərdə Gəncə Şəhər İcra Hakimiyyəti, Mədəniyyət Nazirliyi və AMEA birgə tədbirlər planı qəbul etmiş, bu tunellərin bərpa edilərək muzeyə çevrilməsi qərarlaşdırılmışdı. Lakin plan reallaşmadı.

### Zirzəmi yox, yeraltı muzey

2013-cü ilin fevralında ABŞ-ın Smitson İnstitutunun Milli Muzeyinin rəhbəri Pol Maykl Teylor Gəncəyə səfər etmiş, şəhər rəhbərliyi və AMEA Gəncə bölməsinin sədri Fuad Əliyevlə görüşmüşdü. Görüşdə yeraltı yolların bərpası, hətta bu işə robotların cəlb edilməsi müzakirə olunmuş, layihə belə hazırlanmışdı. Lakin plan həyata keçmədi.

2012-ci il iyunun 19-da AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun direktoru Maisə Rəhimovanın əmri və akademik Mahmud Kərimovun tapşırığı ilə yaradılmış komissiya Gəncəyə baxış keçirdi. Yekun rəy isə belə oldu: "Qeyd olunan ərazidə heç bir yeraltı yoldan söhbət gedə bilməz. Yeraltı yol kimi təqdim olunan qurğular əslində qədim binaların bir neçə mərtəbədən ibarət zirzəmiləridir". Vəssalam. Heç bir əsaslandırma, izah, arxeoloji dəlil olmadan bu nəticə rəsmi mövqe kimi qəbul edildi. Halbuki yüzlərlə şahid, saysız sübut və xalq yaddaşı bunu inkar edirdi.

### ...Sakinlər isə susmurlar

Gəncədə kiminlə söhbət etdiksə, dedilər şəhərə gələn o alimləri heç birimiz görməmişik, yerli adamlarla söhbət etdiklərini də eşitməmişik. Tədqiqat, araşdırma, elmi yanaşma, elmi təhlil, dəlil-sübut belə-mi olur məgər?! Təbii ki, suallara biz də cavab tapa bilmirik.

**Sevinc Vəliyeva:** "Bizim hərbi müəllimimiz (1974-cü ildə, 4 nömrəli məktəbdə) bizi o yollarda gəzdirib. Deyirdi ki, bu yerlər sığınacaq olub, əhali burada müəyyən müddət ərzində qalmaq üçün ərzaq, dərman və yataq dəstləri ilə təmin edilirmiş. Yadımdadır, məhkəmə binasının yaxınlığındakı taxta evin yanından aşağı düşüb xeyli getdik, sonra "Gəncə" mehmanxanasının yanından çıxdıq. Müəllimimiz deyirdi ki, bu yolun bir ucu İmamzadəyə, digəri isə Daşkəsən yoluna çıxır".

**Rövşən Ələkbərov:** "Mən Şahsevənlər məhəlləsində böyümüşəm. 1970-ci illərin əvvəlində M.Müşfiq küçəsində qazıntı aparırdılar. Uşaqlar oynayarkən birinin ayağının altı boşaldı və o, dərin quyuya düşdü. Onu çıxaranda gördük ki, divarlar çay daşından hörülüb. Evdən lampa gətirib aşağı düşdük, bir az irəlilədik, yol genişlənirdi. Qorxub geri qayıtdıq. Səhəri gün oranı ört-basdır etdilər. Sonradan bildim ki, bu küçənin köhnə adı Qala küçəsi olub. Fikirləşdim ki, bura yəqin şəhərin qala divarları ilə əlaqəli olub. Belə yolları bərpa edib abidə kimi saxlamaq yaxşı olmazmı? Axı bu bizim tariximizdir!".

**Altay Şükürov:** "Gəncə qədim şəhərdir, onun çox yeraltı yerləri olub. Əvvəllər bu keçidlər çox idi, indi az qalıb. Qədim evlərin bəzilərinin zirzəmilərində belə keçidlər var. Bu qədim yerləri qorumaq lazımdır, çünki onlar bizim tariximizdir".

Bir müddət məktəb direktoru işləmiş, hazırda isə fərdi sahibkarlıqla məşğul olan **Mahmud Mahmudzadə** isə Gəncənin tarixini öyrənən və bu işə könüllü qoşulmuş bir Gəncə sakinidir. O deyir:

– Gəncənin yeraltı yolları reallıqdır, nağıl deyil. Bu yolları öz gözlərimlə görmüşəm, xəritəsini çəkmişəm, istiqamətlərini müəyyənləşdirmişəm. Operator dostum Nazir Quliyevlə birlikdə həmin yerlərə düşdük, çəkiliş apardıq. Yol uzandıqca uzanırdı. Amma bir nöqtədən sonra nəfəs almaq çətinləşdi, çünki havalandırma sistemi torpaqla tıxanmışdı. Xüsusilə İmamzadə ətrafında saysız qollar var. Bəzi yerlər sanki min illik tarixi nəfəs alır. Amma Bakıdan gələn alimlər bir-iki zirzəmiyə baxıb "bunlar yol deyil, zirzəmidir" deyib çıxıb getdilər. Bu, alim cavabı deyil. Tarixə bu qədər səthi yanaşmaq olmaz".

**Gəncədə tanınmış televiziya operatoru Nazir Quliyev də orada olub:**

– Biz kamerayla endik. İlk dəqiqələrdə nəfəs almaq çətin idi. Amma gördüklərimiz zirzəmi deyildi! Divarların quruluşu, döşəmənin materialı, yolların birləşmə forması – hamısı planlı tikili idi. Bizim çəkdiklərimiz bunun sübutudur. Amma sonra eşitdik ki, "elə bir şey yoxdur" deyiblər, məəttəl qaldıq. Nə deyim, bu, sadəcə biganəlik deyil, həm də tarixə qarşı hörmətsizlikdir."



### Yer altından gələn haray

AMEA Gəncə bölməsinin sədri, akademik F.Əliyev və bir qrup gənc alimlə birlikdə tunellərin olduğu iddia edilən əraziləri gəzərkən bir daha hiss etdik və əmin olduq ki, bu vacib işi beləcə yarımçıq qoymaq ən azından tariximizə biganəlikdir. Qırmızı kərpicdən hörülmüş qədim binaların çoxu hələ də möhkəmdir, dayanıqlıdır, lakin bir çox girişlər torpaqla örtülüb, bəzilərinin dəmir qapısına iri qıfıllar vurulub. Yəni bu yollara indi, sadəcə, düşüb baxmaq mümkün deyil.

Sakinlər isə haqlı olaraq narazıdırlar: "Bizim tariximizi inkar edirlər. Biz bu yerləri uşaqlığımızdan bilirik. Gəlib bir-iki zirzəmi görüb "heç nə yoxdur" deməklə bu iş bitmir. Axı bizim yaddaş, bizim şahidlər, bizim tarix var!".

Bu narazılıq təkcə emosional deyil, həm də elmi baxımdan əsaslıdır. Alim bir fenomeni inkar etməzdən əvvəl onun bütün aspektlərini araşdırmalı, xalq yaddaşını da nəzərə almalıdır.

Sadəcə, bir neçə yerə baxaraq bütöv bir şəhər fenomeninə "nağıl" damğası vurmaq elmin xalqla bağını qırmaqdır. Bəlkə də Gəncənin bu qədər sirli və qədim olması kimlərisə narahat edir. Amma tarix müvəqqəti susa bilər, yox olmaz.

Bu gün Gəncə əhalisi haqlı olaraq tələb edir: "Gəlin bu məsələni araşdıraq! Gəlin müstəqil tədqiqat qrupu yaradaq! Tarixçilər, arxeoloqlar, alimlər yerində araşdırma aparsınlar!". Tariximizin üstünə bu qədər asanlıqla torpaq atmaq olmaz. Çünki bu tunellər xalqın yaddaşı, kimliyi və keçmişidir. Onları "zirzəmi" adlandırmaqla tariximizi inkar etmiş oluruq.

Əgər bir alim öz peşəsinə hörmət edirsə, onun qərarı müşahidəyə, sənədə, şahidə, elmi analizə söykənməlidir. Xalqın yaddaşını görməzdən gələn elmi rəy sadəcə tarixin üstünə çəkilmiş tozdur.

…İndi biz iki yolun qarşısındayıq: ya bu tarixi araşdıracaq, bərpa edib gələcək nəsillərə təqdim edəcəyik, ya da inkar edib sükutla torpağın altında basdıracağıq.

Tarix qısqanclığı sevmir. O, ədalət, səbir və vicdan istəyir. Ən çox da yeraltı şəhərin səssizliyini dinləyə bilən insanlar istəyir.

Gəlin Gəncənin səsini eşidək. Gəlin bu yolları qapatmayaq. Gəlin tariximizi danmayaq. Çünki tarixə susmaq gələcəyə kor olmaqdır.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

**Gəncə**

*Günün sualı*

# Yeniyetmələr niyə çılğınlaşırlar?

## *Yaxud sabaha hansı gənclik lə gedirik?*



**Son zamanlar ölkədə mübahisə zəminində baş verən kriminal hadisələrin sayında artım müşahidə olunur. Sosial şəbəkələrdə demək olar ki, hər gün qəsdən sağlamlığa zərərvurma hadisəsi barədə xəbər yayılır. Hətta elə gün olur 3-4 belə hadisə baş verir. Ən ağrılı məqam isə hadisəni törədənlərin yaş həddidir: 15, 16, 17...**

Əvvəl yumruq davasına çıxanlar indi soyuq silaha əl atırlar. Bəs yeniyetmələr arasında bu insidentlərin artım səbəbi nədir? Bunun qarşısının alınması üçün hansı addımlar atılmalıdır?

Dövlət Statistika Komitəsindən əldə etdiyimiz məlumatdan da görünür ki, son illər yeniyetmələrlə bağlı cinayət hadisələrində artım var. Belə ki, 2022-ci ildə 14-17 yaşda olan 258 yeniyetmə müxtəlif cinayət hadisələrinə görə məhkum olunub. 2023-cü ildə bu göstərici artaraq 310 nəfərə çatıb. 2024-cü ildə isə məhkum olunmuş yeniyetmələrin sayı 285 nəfər təşkil edib. Qeyd edək ki, cinayətlər arasında əsas yeri oğurluq, daha sonra isə qəsdən sağlamlığa ağır zərərvurma gəlir.

**Təhsil eksperti Kamran Əsədov son dövrlər yeniyetmələr və gənclər arasında zorakılıq, xüsusilə məktəblərdə bıçaqlanma və aqressiv davranış hallarının cəmiyyətin sosial strukturunda dərin deqradasiyanın göstəricisi olduğunu söylədi:**



– Təhlillər göstərir ki, bu hadisələrin kökündə bir tərəfdən ailə nəzarətinin zəifləməsi, digər tərəfdən sosial medianın mənfi təsirləri, həmçinin məktəbdə tərbiyə funksiyasının yetərincə dəyərləndirilməməsi dayanır. Cəmiyyətin dəyərlər sistemindəki dəyişikliklər, valideyn məsuliyyətinin olmaması və yeniyetmələrin sosial məkanda nəzarətsiz qalması problemi daha da dərinləşdirir.

Rəqəmlər də vəziyyətin ciddiliyini göstərir. Daxili İşlər Nazirliyinin 2024-cü ilə dair hesabatına əsasən, yeniyetmələrin törətdikləri cinayətlərin sayı son 3 ildə təxminən 28 faiz artıb. Bu hadisələrin 60 faizindən çoxu məhz məktəb və onun ətrafında baş verir. Bu fakt bir daha təsdiqləyir ki, təhsil ocaqları təkcə bilik verilən yer deyil, həm də sosial təhlükəsizlik və mənəvi tərbiyə məkanı olmalıdır. "Təhsil haqqında" Qanunun 4-cü maddəsində açıq şəkildə qeyd olunur ki, təhsilin əsas məqsədi şəxsiyyətin hərtərəfli inkişafıdır. Yəni təhsil yalnız akademik biliklə deyil, həm də əxlaqi və sosial dəyərlərin formalaşdırılması ilə əlaqələndirilir.

Elm və Təhsil Nazirliyi bu istiqamətdə son illərdə mühüm addımlar atır. "Məktəblinin dostu" layihəsi, "Valideyn məktəbi" təşəbbüsləri və məktəblərdə psixoloji xidmətin gücləndirilməsi cəhdləri təhsilin sosial aspektinin bərpası baxımından əhəmiyyətli yeniliklərdir.

Nazirliyin "Sağlam məktəb mühiti" konsepsiyası və inklüziv təhsilin genişləndirilməsi ilə bağlı proqramları da yeniyetmələrin emosional və sosial sabitliyinə müsbət təsir edir. Lakin problem yalnız təhsil sistemi çərçivəsində həll oluna bilməz. Əgər ailə və cəmiyyət bu səylərə paralel dəstək vermirsə, nəticə etibarilə məktəbin gördüyü işlərin təsiri zəif olur.

**Ekspert bildirdi ki, valideyn məsuliyyətinin zəifləməsi bu prosesin ən ağrılı tərəfidir:**

– Uşaqların bir çoxu valideyn nəzarətindən çıxıb sosial medianın "tərbiyəsinə" verilib. Ailələrdə emosional ünsiyyət kəsilib. Uşaqlar zamanın çoxunu valideynlər ilə deyil, telefonda keçirirlər. Bu da gənc nəsildə həm empatiya hissini zəiflədir, həm də aqressiv davranışları artırır. Valideynlərin əksəriyyəti övladının gündəlik sosial çevrəsini, izlədiyi kontenti, dost mühitini, emosional vəziyyətini nəzarətsiz buraxır. Halbuki "Valideyn məsuliyyəti haqqında" Qanunun 11-ci maddəsində göstərilir ki, valideyn uşağın tərbiyəsinə, psixoloji inkişafına və sosial davranışına görə birbaşa məsuliyyət daşıyır. Təəssüf ki, bu məsuliyyət çox vaxt yalnız kağız üzərində qalır.

Sosial şəbəkələrin təsiri isə vəziyyəti daha da gərginləşdirir. "TikTok" və "YouTube" kimi platformalarda zorakılığın, qarşıdurmanın, küçə mədəniyyətinin təbliği gənclər üçün davranış modeli yaradır. "Güc göstərmək", "qorxutmaq" və "məşhurlaşmaq" instinkti bir çox yeniyetmələrdə sosial status meyarına çevrilib. Məsələn, UNICEF-in 2023-cü il hesabatına əsasən, zorakı video və aqressiv məzmunlara baxan gənclərin 32 faizi real həyatda oxşar davranış nümayiş etdirirlər. Sosial şəbəkə şirkətləri isə bu cür kontentin yayılmasına qarşı kifayət qədər məsuliyyətli deyillər. Azərbaycan qanunvericiliyində kibertəhlükəsizlik sahəsində müəyyən tənzimləmələr edilsə də, uşaq və yeniyetmələrin sosial mediada təhlükəsizliyi hələ də təmin olunmayıb.

**Müsahibim qeyd etdi ki, dünya təcrübəsinə görə zorakılığın qarşısının alınmasında əsas mexanizm məktəbdə güclü sosial-psixoloji dəstək sisteminin olmasıdır:**

– Finlandiyada tətbiq olunan "KiVa" proqramı hər bir zorakılıq halını təhlil edir, şagirdlər və valideynlər arasında müzakirə mexanizmi yaradır. Bunun nəticəsində son 10 ildə məktəbdaxili aqressiya 40 faiz azalıb. Yaponiya məktəblərində hər gün "sosial davranış və etik dəyərlər" dərsi keçirilir, uşaqlara empatiya, məsuliyyət və dialoq mədəniyyəti aşılanır. Bu modellər sübut edir ki, aqressiyanı cəza ilə yox, maarifləndirmə və empatiya üzərində qurulan sosial mühitlə azaltmaq mümkündür.

Ölkəmizdə də bu istiqamətdə müsbət addımlar atılır. Elm və Təhsil Nazirliyinin həyata keçirdiyi yeni nizamnamələr, psixoloq vakansiyalarının artırılması, məktəblərdə təhlükəsizlik qaydalarının sərtləşdirilməsi artıq nəticə verir. Son iki ildə məktəblərdə zorakılıq hadisələrinin 15 faiz azalması işin səmərəliliyini göstərir. Lakin bu azalma dayanıqlı deyil, çünki ailə və ictimai nəzarət hələ də sistemli şəkildə formalaşmayıb.

Hesab edirəm ki, problemin aradan qaldırılması üçün təhsil sistemi, ailə və media siyasəti arasında koordinasiya vacibdir. Məktəbdə psixoloji xidmət real mexanizmə çevrilməli, ailələr məsuliyyətli valideynlik modelinə qayıtmalı, sosial şəbəkələrdə uşaq və yeniyetmələr üçün məzmun nəzarəti qanunla tənzimlənməlidir.

Elm və Təhsil Nazirliyi bu istiqamətdə mühüm addımlar atır. Lakin valideynlər övladlarının tərbiyəsində nəzarəti gücləndirməsələr, dövlətin bu səyləri nəticə verməyəcək, problemin qarşısını almaq qeyri-mümkün olacaq.

**Bakı Dövlət Universitetinin müəllimi, Psixologiya Elmi-Tədqiqat İnstitutunun elmi işçisi, uzman psixoloq Narınc Rüstəmova bu problemin səbəbini yeniyetməlik dövrü ilə əlaqələndirdi:**



– Yeniyetməlik kritik yaş dövrü hesab olunduğu üçün bu dönəmdə cinayət hadisələri, aqressiyasını idarə edə bilməmək, özünəqəsd halları daha çox olur. Bu yaş həddində valideynlər diqqətli olmalı və övladlarına təmkinlə, səbirlə yanaşmalıdırlar. Uşaqların aqressiv hərəkətlərinə şiddətlə və aqressiya ilə cavab vermək doğru yanaşma üsulu deyil.

Bəzən valideynlərin çoxu övladlarının kobud rəftarlarına "ərköyünlük" kimi, "böyüdükcə düzələcək, ağıllanacaq" tərzdə yanaşırlar. Bu isə çox vaxt arzuolunmaz hallara gətirib çıxarır. Təəssüf ki, bəzən ailələr bu reallığı qəbul etmirlər. Mövcud problemlərə zamanında müdaxilə edilmədikdə daha da dərinləşir.

Eyni zamanda qeyd etmək lazımdır ki, bu, uşağın şəxsiyyət kimi formalaşmasına da mənfi təsir edir. Təsadüfi deyil ki, cinayət hadisələri daha çox cinsi yetişkənlik dövründə, yetkinlik yaşına çatmayan uşaqlar və gənclər arasında müşahidə edilir. Cinayətdən əvvəli araşdırsaq, hadisəni törədən şəxsin ətrafındakı insanlara qarşı zorakılıq, aqressiya, fiziki cəhətdən özündən zəifləri əzmək, şiddət göstərmək və s. halların şahidi ola bilərik. Bu, daha erkən yaşlarda özünü büruzə verir. Belə ki, 6-7 yaşında uşağın heyvanlara zərər verməsi, ətrafdakılara qarşı aqressiv davranışlar sərgiləməsi valideynlər üçün artıq siqnal olmaldır. Bəzən bu halları xüsusilə analar atadan gizlətməyə çalışırlar və ya əksinə, atalar oğlan uşaqlarının belə davranışlarını "yaxşı" bir xüsusiyyət, "kişilik göstəricisi" hesab edirlər. Çox təəssüf ki, bəzi ailələrdə, hətta buna görə uşaqlar mükafatlandırılırlar da. Bu zaman davranışı ilə rəğbət görən uşaq daha çox diqqətə ehtiyac duyduğu üçün eyni hərəkətləri yenidən təkrarlamağa başlayır. Bu, öz növbəsində, onun təhsil həyatına da təsir edir.

**Psixoloq vurğuladı ki, problemin aradan qaldırılması istiqamətində valideynlə yanaşı, məktəb psixoloqlarının da təsiri son dərəcə önəmlidir:**

– Məktəb psixoloqu ilə valideyn birliyi şagirdlərin psixoloji və sosial inkişafının əsas təminatıdır. Psixoloq yeniyetmə ilə bərabər, valideynlərlə də daim ünsiyyətdə olmalıdır. Şagirdlə sərt və ya ciddi şəkildə deyil, sakit formada profilaktik söhbət edilməlidir. Zamanında müdaxilə edilərsə, belə halların qarşısını almaq olar. Söhbət uşaqlardan, yeniyetmələrdən və dolayısıyla gələcəyimizdən gedirsə, bu məsələlərə laqeyd yanaşılmamalı, vaxtında müdaxilə edilməlidir.

**Polad Həşimov adına 28 saylı orta məktəbin təlim-tərbiyə işləri üzrə müavini Cəmalə Məmmədli bəzi yeniyetmələrdə cinayətə meyilliliyin uşaqlıqda yaranan travma ilə əlaqəli olduğunu dedi:**

– Bu yaş dövründə uşaqlar daha çılğın olur, hisslərini idarə etməkdə çətinlik çəkirlər. Hər hansı bir söz onları özündən çıxarır və çox asanlıqla düzgün olmayan qərarlar verirlər. Onlar sanki özlərini böyümüş hesab edirlər.

Düşünürlər ki, verdikləri qərarların hamısı doğrudur. Problemin yaranmasına təkan verən əsas səbəblərdən biri də müasir texnologiyalar və sosial şəbəkələrdir. Bu gün yeniyetmələr bir-biri ilə əsasən sosial şə-



bəkələrdə tanış olurlar. Sonra sözləri üst-üstə düşməyəndə, çəp gələndə cinayətə əl atırlar. Travma ilə böyüyən uşaqlar adətən daha aqressiv olurlar. Bu da onlarda zorakılıq, təcavüz və ən əsası intihar hallarının baş verməsinə gətirib çıxarır.

**Mütəxəssis uşaqlardakı aqressiyanın qarşısını almaq üçün valideynlərə övladları ilə mütəmadi ünsiyyətdə olmağı tövsiyə etdi:**

– Məktəblilərin aqressiyasının qarşısının alınması sırf pedaqoq və psixoloq öhdəsinə buraxılacaq məsələ deyil. Valideynlər uşaqlarının dostları ilə maraqlanmalı, onların sosial şəbəkə hesabları, maraqları, əyləncələri haqqında məlumatlı olmalıdırlar. Müəllimlərlə daim əlaqə saxlamalı, "uşağı məktəbə göndərdim, vəssalam, işim bitdi" kimi qəbul etməməlidirlər. Uşaqlar həddi-buluğa çatana qədər valideyn, müəllim köməyinə ehtiyac duyurlar. Belə uşaqlara qarşı sərt cəzalar tətbiq etmək əvəzinə, onları cəmiyyətə qazandırmaq lazımdır.

**Psixoloq Vəfa Fazilova isə yeniyetmələrin aqressiyasının kökündə dərin emosional boşluğun dayandığını bildirdi:**



– Yeniyetməlik elə bir mərhələdir ki, bu dövrdə gənc öz kimliyini axtarır. Depressiya, anksiyete və özünə inamsızlıq kimi problemlər aqressiv davranışları artıran əsas səbəblərdəndir. Yeniyetmə ailədə anlayış, məktəbdə dəyərləndirmə, cəmiyyətdə qəbul görmədikdə onun içində qəzəb yaranır. Və bu qəzəb "məni gör" çağırışına çevrilir. Aqressiya çox vaxt güc yox, diqqət və dəyər aclığının səsidir. Əgər bu dövrdə gənc, özünü dəyərli hiss etmirsə, daxili güvənini itirirsə bu, onda aqressiv davranışlarla özünü göstərir. Yeniyetmələrin beynində prefrontal korteks (yəni düşüncə, qərar və özünə nəzarət mərkəzi) tam formalaşmadığı üçün onlar "emosional partlayışlara" və aqressiv davranışlara daha meyilli olurlar.

Uşaqlar ailədə necə davranış nümunəsi görürlərsə, onu modelləşdirirlər. Kiçik yaşlarda ailədə qışqırıq, təzyiq, laqeydliklə qarşılaşan uşaqlar elə düşünürlər ki, kim güclüdürsə, o haqlıdır. Beləcə, emosional ağrı "güc" maskası ilə örtülür. Valideyn gözləntiləri və sosial təzyiqlər də gəncdə daxili gərginlik yaradır.

**Psixoloq daha sonra qeyd etdi ki, son illərdə yeniyetmələr arasında fiziki zorakılıq, xəsarət yetirmə hallarının yaranmasına səbəb həm psixoloji, həm də sosial-mədəni faktorlarla əlaqəlidir:**

– Sosial şəbəkələr də burada həm katalizator, həm də model yaradan mexanizm kimi mühüm rol oynayır. Sosial şəbəkələrdə, videolarda və oyunlarda zorakılıq və aqressiya elementləri geniş yer tutur. Cizgi filmlərində belə bəzən şiddət səhnələri uşaqlarda aqressiv davranışlara səbəb olur. Bir çox yeniyetmə özünü ifadə edə bilmədikdə, sosial qəbul axtarışı onu kənar təsirlərə sürükləyir. Emosional dəstək və sevgi çatışmazlığı olan yeniyetmə özünü təsdiq etməyin yeganə yolunu kobud davranışlarda görür. Problemin həll yolu isə yeniyetmələrə və gənclərə tənə etmək, "sus" demək əvəzinə, onları dinləmək, emosional dəstək vermək, empatiya qurmaqla mümkündür.

Bütün bu sadalanan amillər göstərir ki, ölkəmizdə gənclərin layiqli vətəndaş kimi yetişməsi, onların sosial problemlərinin həlli, hüquqlarının etibarlı təminatı baxımından dövlət səviyyəsində bütün addımlar atılır. Lakin problemi həll etmək üçün bu, yetərli deyil. Son illərdə aparılan meta-analizlər və genişmiqyaslı araşdırmalar sübut edir ki, sosial şəbəkələr gənclərin psixologiyasına mənfi təsir göstərir.

Burada idealizə olunmuş həyat tərzinin təqdimatı, vizual filtrlərlə dəyişdirilmiş görüntülər yeniyetmələrdə depressiya, psixoloji stres hallarını artırır. Mütəxəssislər hesab edirlər ki, kütləvi informasiya vasitələrində kriminal, bayağı, qeyri-etik ifadələrlə dolu materialların yayımlanmasının qarşısı alınar, valideynlər övladlarının üzərində nəzarəti gücləndirərlərsə, problemi kökündən həll etmək mümkündür. Unutmamalıyıq ki, uşaqlar bizim gələcəyimizdir və biz bu gələcəyi layiqincə qorumalıyıq.

***Elenora HƏSƏNOVA***
***XQ***

*Sosial gündəm*

# Sosial xidmətdə rəqəmsallaşma

## *Növbəti hədəf süni intellektdən istifadəyə keçiddir*

**Rəqəmsal texnologiyaların sürətli inkişafı yüksək tərəqqi üçün yeni yollar açır. İndi dünya "Dördüncü Sənaye İnqilabı"na qədəm qoyur. Bu isə süni intellektdən geniş istifadə, istehsalın avtomatlaşdırılması, robotlaşma, iqtisadiyyatın bütün sahələrində rəqəmsal texnologiyaların tətbiqi deməkdir.**

Ümumilikdə, yeni sənaye inqilabı rəqəmsallaşma ilə bağlı bütün sahələrdə ən yeni, fərqli və daha əlverişli texnoloji infrastrukturdan istifadəyə gətirib çıxarıb. Azərbaycanda da daim sosial-iqtisadi sahədə, o cümlədən dövlət idarəetməsi sahəsində genişmiqyaslı islahatlar həyata keçirilir, innovativ layihələr, elektron xidmətlər təkmilləşdirilir və bütün sahələrdə rəqəmsallaşmış xidmətə keçid ön plana keçib.



Ölkəmizdə modern və çevik idarəetmənin təmin edilməsi ilə əhaliyə sosial xidmətlərin elektron platformalar üzərindən göstərilməsi istiqamətində əhəmiyyətli işlər görülüb. Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyinə həsr olunmuş yığıncaqda Prezident İlham Əliyev çıxışında süni intellekt və rəqəmsallaşma sahəsində görülən işləri vurğulayaraq bildirib ki, Azərbaycan bu texnoloji transformasiya prosesində geri qalmayacaq və davamlı islahatlar həyata keçiriləcək.

Müasir dövrdə əmək, məşğulluq, sosial müdafiə, əlillik və reabilitasiya sahəsində aparılan islahatların mühüm bir istiqaməti bu sahələrdə əhaliyə xidmətlərin müasir texnologiyalar üzərində, şəffaf və operativ, daha əlçatan, vətəndaş rahatlığı prinsipinə uyğun qurulmasıdır. Son illərdə bu istiqamətdə mühüm irəliləyişlər əldə olunub, bir çox yeni e-xidmətlər istifadəyə verilib. Rəqəmsallaşmanın geniş tətbiqi əhaliyə dövlət xidmətlərinin yüksək keyfiyyət və şəffaflıq səviyyəsinə çatdırılmasında, onlardan rahat istifadənin, əlçatanlığının və vətəndaş məmnunluğunun təmin edilməsində effektiv vasitələrdən biridir.

2019-cu ildən etibarən Azərbaycanda sosial ödənişlərin (pensiya, müavinət və təqaüd) proaktiv qaydada təyin edilməsi mexanizmi tətbiq olunur. Bu mexanizm vətəndaşların müraciətinə və sənəd təqdim etməsinə ehtiyac olmadan, elektron sistem vasitəsilə həyata keçirilir. Vətəndaşlara sosial müdafiə və sosial təminat, əmək, məşğulluq sahələrində dövlət xidmətlərinin elektronlaşdırılması təmin edilib, müvafiq informasiya sistemlərinin təkmilləşdirilməsi istiqamətində önəmli addımlar atılıb.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən təqdim olunan 150 xidmətin artıq 90 faizdən çoxu elektronlaşdırılıb, onlardan 52-si isə proaktiv qaydada həyata keçirilir. Qurumun "Mərkəzləşdirilmiş elektron informasiya sistemi 18 Altsistem və 4 reyestrdən ibarətdir. Bu sistem 80-dək qurumun informasiya bazaları ilə inteqrasiya edilib. Həmin qurumlardan sorğular da daxil olmaqla cari ilin 9 ayı ərzində nazirliyin e-sistemləri üzərindən sorğu, müraciət və xidmət sayı 369 milyon olub.

Bu ilin 9 ayında nazirliyin fəaliyyət sahələri üzrə əhaliyə təqdim olunan elektron xidmətlərə 19,3 milyon müraciət edilib. 2019-cu ildə istifadəyə verilmiş "E-sosial" portalı ölkənin sosial reyestridir və bu ilin 9 ayında bu portaldan 12,2 milyon dəfə istifadə olunub, 196 min təyinat isə e-infrastruktur üzərindən, proaktiv qaydada həyata keçirilib. Həmçinin 2022-ci ildən vahid elektron əmək münasibətləri platforması olan və rəqəmsal kadr uçotu sisteminə keçidi təmin edən "Əmək və Məşğulluq" altsistemi fəaliyyət göstərir.

"Azərbaycanda son illər ərzində sosial sahədə rəqəmsallaşma üzrə mühüm işlər görülüb. Dövlət sosial xidmətlərinin innovativ yanaşmalar, müasir texnologiyalar üzərində qurulması, sosial sahədə vətəndaşlara şəffaf, çevik, keyfiyyətli, əlçatan və vətəndaş məmnunluğuna uyğun xidmətlər sisteminin formalaşdırılması sosial islahatlar proqramının əsas hədəflərindən biridir. Bu istiqamətdə "ASAN xidmət" modeli, DOST konsepsiyası, sosial xidmətlərin geniş miqyasda elektronlaşdırılması proqramı həyata keçirilib". Bu fikirlər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin əmək nazirlərinin noyabrın 23-də Bakıda keçirilən V konfransının iştirakçılarına müraciətində yer alıb.

Müasir texnologiyaların yaratdığı yeni çağırışlar islahatların daha da təkmilləşdirilməsini zəruri edir. Bu çərçivəyə əsaslanan "ASAN xidmət" daim innovasiyalara inteqrasiyanı artırır, eyni zamanda, qabaqcıl ölkələrlə birgə təcrübələri bölüşür. Nazirliyin bütün istiqamətlərində süni intellekt əsaslı tətbiq qarşıya qoyulmuş məqsədlərdəndir. Süni intellekt təkcə yenilik deyil, vətəndaşlara əmək, məşğulluq və sosial sahədə təqdim edilən xidmətlərin elektronlaşdırılması mühüm istiqamətlərdən biridir. Reabilitasiya, əlillik, sosial-psixoloji sahələrdə də süni intellektdən geniş istifadə imkanları mövcuddur.

Hazırda vətəndaşların sağlamlığının qiymətləndirilməsi ilə əlilliyin müəyyənləşdirilməsi sahəsi üzrə süni intellekt həllərinin tətbiqi əsas məqsədlərdən biridir. Süni intellekt üzrə 2025-2027-ci illər üzrə strategiyada süni intellekt həllərinin yaradılması nəzərdə tutulur. Qarşıda duran məsələlərdən biri sosial ödənişlərin tam elektron qaydada həyata keçirilməsidir.

Ölkənin sosial reyestri olan e-sosial internet portalının təkmilləşdirilməsi və funksional imkanlarının artırılması, portalda ən son texnoloji həllərin tətbiqi istiqamətində də davamlı işlər görülür. Eyni zamanda, Azərbaycanın qlobal süni intellekt ekosistemində rolunu gücləndirmək məqsədilə "2025–2028-ci illəri əhatə edən Süni İntellekt Strategiyası" təsdiq edilib. Ölkəmizdə süni intellekt sahəsində inkişaf prosesi xeyli sürətlənib və bu proses sosial sahəni də artıq əhatə edir.

Sosial sahənin bütün fəaliyyət istiqamətlərində süni intellekt həllərinin tətbiqi strateji hədəflərdən birinə çevrilib və 3 illik Yol Xəritəsi əsasında bu sahədə işlər davam edir. Nazirliyin "Əlillik" altsistemində artıq süni intellekt əsaslı funksionallıq istifadəyə verilib. Bu da əlilliyin qiymətləndirilməsi üçün tibbi göndərişlərdə artıq süni intellekt əsaslı funksionallıq əsasında mətn analizini həyata keçirməyə imkan yaradıb. Şəxsi və sui-istifadələrə səbəb ola bilən həssas məlumatlar avtomatik aşkar edilməklə tənzimlənir.

DOST Agentliyinin təşkilatçılığı ilə bu günlərdə keçirilmiş "SocGov 2025: Süni intellekt - insan və transformasiya üçün" adlı beynəlxalq konfransda əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev süni intellekt texnologiyalarının tətbiqi istiqamətində Nazirliyin Strategiyası çərçivəsində hazırlanmış 3 illik Yol Xəritəsinə uyğun şəkildə işlərin aparıldığını qeyd edib. O, "Əlillik" altsistemində tətbiq edilən süni intellekt əsaslı funksionallıq vasitəsilə tibbi göndərişlərdə mətn analizinin həyata keçirildiyini, bu altsistemdə süni intellekt əsaslı məsləhət mexanizminin də hazırlanmaqda olduğunu bildirib.

Bu mexanizmin qərarvermə prosesini sürətləndirməklə, obyektivlik və şəffaflığı daha da artıracağını, süni intellekt həllərinin məşğulluq və reabilitasiya sahələrində də tətbiqinin nəzərdə tutulduğunu, Nazirliyin bütün fəaliyyət sahələrində bu həllərin tətbiqinin strateji hədəflərdən olduğunu vurğulayıb. "Əlillik" altsistemində süni intellekt əsaslı məsləhət mexanizmi də hazırlanır. Bu mexanizm nəticəsində həm qərarvermə prosesi sürətlənəcək, həm də obyektivlik və şəffaflıq səviyyəsi daha da artacaq.

Süni intellekt həllərinin fərdi məşğulluq proqramlarının, reabilitasiya və abilitasiya proqramlarının hazırlanmasında da tətbiqi nəzərdə tutulur. Ümumilikdə, nazirliyin bütün fəaliyyət istiqamətlərində vətəndaş məmnunluğunun və xidmət keyfiyyətinin yüksəldilməsi məqsədilə süni intellekt əsaslı həllərin tətbiqi qarşıya qoyulmuş strateji hədəflərdəndir.

***Mustafa KAMAL***
***XQ***

# Qırğız heyəti AHİK təlimlərində

**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının Əmək və Sosial Münasibətlər Akademiyasında Qırğızıstan həmkarlar ittifaqları nümayəndələri üçün təlimlər təşkil edilib.**

Proqramının açılışında AHİK sədrinin müavini Musa Mirzəyev Azərbaycan və Qırğızıstan arasında dostluq münasibətlərindən və iki ölkənin həmkarlar ittifaqları arasında əlaqələrin inkişafından danışıb, təşkil olunan təlimlərin əhəmiyyətini vurğulayıb. Qırğızıstan Həmkarlar İttifaqları Federasiyasının sədri Muradil Cumadilde azərbaycanlı həmkarları ilə təcrübə mübadiləsinin, təlimlərin aktuallığını və faydalı olduğunu qeyd edib.

İxtisasartırma və Kadrların İnkişafı Mərkəzində başlayan təlimlər "Süni intellektin müxtəlif sahələrdə tətbiqinin mövcud vəziyyətinin təhlili, əmək və sosial sahədə dəyişikliklərdə rolu", "Sosial dialoq vasitəsilə süni intellekt siyasətinin formalaşdırılması", "Gələcək perspektivlər - süni intellekt və əmək sferası", "Təhlükəsiz və sağlam iş mühiti - əmək hüququnun əsas prinsipi. Mövcud problemlər və onların həlli yolları" mövzularını əhatə edib, interaktiv müzakirələr aparılıb, suallar cavablandırılıb.

***Qabil ƏLİYEV***
***XQ***

Xalq qəzeti

XQ

xalqqazeti.az

№ 238 (30932) 7 noyabr 2025-ci il, cümə

## İDMAN

### Cəlil Əliyevin Dünya rekordu

**Azərbaycanın stronqmen millisinin üzvləri Macarıstanın Lokitelek şəhərində keçirilən Dünya çempionatında uğurlu çıxış ediblər.**



Azərbaycan Stronqmen Federasiyasından verilən məlumata görə, yarışda ölkəmizi üç idmançı təmsil edib. Yeniyetmələr arasında Tural Mirzəliyev (67.5 kiloqram) dünya çempionu tituluna sahib olub. O, mütləq çempionluq uğrunda mübarizədə isə üçüncü yeri tutub.

Açıq yaş qrupunda çıxış edən Sadiq Musayev gümüş medala layiq görülüb.

Ağır çəkidə mübarizə aparan digər idmançımız Cəlil Əliyev isə açıq yaş qrupunda dünya çempionu adını qazanmaqla yanaşı, yeni dünya rekorduna da imza atıb.

### Basketbolçularımızın Avropa qələbələri

**Azərbaycanın basketbol klubu "Neftçi" FIBA Avropa Kubokunda IV turunda qələbə qazanıb. I qrupda mübarizə aparan "ağ-qaralar" Bakı İdman Sarayında baş tutan qarşılaşmada Polşanın "Trefl" komandasını 92:87 hesabı ilə üstələyib.**



Azərbaycanın digər təmsilçisi "Abşeron Lions" basketbol komandası da növbəti oyununu keçirib. Estoniyada "Kalev"in qonağı olan basketbolçularımız 101:71 hesablı qələbə qazanıb.

### Cüdoçularımızın 1 qızıl və 4 bürüncü

**Fransanın paytaxtı Parisdə keçirilən cüdo üzrə veteranlar arasında dünya çempionatında milli komandamız daha iki medal əldə edib.**



M5 yaş kateqoriyasında Mövlud Mirəliyev bütün rəqiblərinə qalib gələrək qızıl medal qazanıb. 100 kiloqram çəki dərəcəsində qüvvəsini sınayan usta cüdoçumuz finalda braziliyalı Joao Santuşu məğlub edərək üçüncü dəfə dünya çempionu olub.

M6 yaş kateqoriyasında mübarizə aparan Azər Əsgərov (100 kq) isə bürünc mükafata yiyələnib. Təmsilçimiz üçüncü yer uğrunda görüşdə fransalı Tyerri Lefevrə qalib gəlib.

Hazırda aktivində 1 qızıl və 4 bürünc medal olan yığmamız 65 ölkə arasında komanda sıralamasında 12-ci pillədə qərarlaşıb.

Qeyd edək ki, daha əvvəl Qurban Məmmədli (M2, +100 kq), Vüqar Babayev (M3, 66 kq) və Zaur Bağırov (M4, +100 kq) mundialın bürünc medalını qazanıblar.

*Qabil YUSİFOĞLU*
*XQ*

*✓ 2014-cü ildə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsi tərəfindən müddətdən artıq həqiqi hərbi qulluqçu, çavuş Əliyev Vüsal Alı oğlunun adına verilmiş hərbi vəsiqə itdiyi üçün etibarsız sayılır.*

*✓ 2015-ci il oktyabrın 23-də Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən Baxışova Veronika Leonidovnanın adına verilmiş 268 nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.*

*Sağlamlıq*

# Nar – Günəş ziyası, su saflığı

**Payızın son nəfəsində bazarların, bağların, həyətlərin rənginə rəng qatan bir möcüzə var – nar. O, elə bil torpağın sinəsindən süzülüb gələn bir qan damlasıdır. Günəşin alovunu, torpağın bərəkətini, suyun şəffaflığını özündə cəmləyən bu meyvə Azərbaycan torpağının simvoluna çevrilib. Xalq arasında "cənnət meyvəsi" adlandırılan, bir çoxlarının sevdiyi və faydalarını saymaqla bitməyən bu nemət hər bir təbii məhsul kimi, həmişə və hər kəs üçün eyni dərəcədə faydalı deyil. Onun tərkibindəki turşular, şəkərlər və aktiv maddələr bəzi hallarda sağlamlığa mənfi təsir göstərə bilər. Məhz bu baxımdan araşdırma apardıq, mütəxəssis məsləhətlərini toplayaraq oxuculara təqdim edirik.**



Həkimlər deyirlər ki, nar qanın tərkibini təmizləyir, orqanizmdə dəmirin mənimsənilməsini artırır. Zəif qan dövranı, yorğunluq, halsızlıq yaşayan insanlara nar şirəsi təbii dərman kimidir. Onun antioksidant təsiri bədəni gənc saxlayır, dərini təravətləndirir, ürək-damar sistemini möhkəmləndirir. Eyni zamanda, immuniteti gücləndirir, soyuqdəyməyə qarşı bədəni müdafiə edir. Bəzi alimlər nar dənələrini "təbii antibiotik" adlandırır. Nar dənələri B, C vitaminləri, kalium, maqnezium, manqan, yod, dəmir və digər elementlər, həzmə kömək edən faydalı turşularla zəngindir. Qədim təbabətdə narın qabığı da dəyərli sayılıb – ondan həm dərman, həm boya, həm də gözəllik vasitəsi kimi istifadə olunub.

Ancaq hər nemətin olduğu kimi, narın da həddi var. Çox miqdarda nar şirəsi qəbul etmək mədə turşuluğunu artıra, diş minasını zədələyə bilər. Şəkər xəstələri üçün də ehtiyatlı istifadə tövsiyə olunur, çünki meyvənin tərkibində təbii şəkərlər mövcuddur. Yəni təbiətin verdiyi nemətdən zövq almağın sirri – ölçüdədir. Bəs min bir dərdin dərmanı olan nar kimlər üçün elə dərdin özünə çevrilə bilər?

Həkimlər xüsusilə kimyaterapiya xəstələrinə xəbərdarlıq edərək bildirirlər ki, narın tərkibində çoxlu zəngin vitamin və minerallar var. Bu minerallar xərçəng dərmanlarına qarşı əks–təsir göstərə bilir. Bu səbəbdən xərçəng xəstələrinə dərman qəbul edərkən nar yemələri tövsiyə edilmir. Nar çox faydalı meyvə olsa da, həkimlər hamilə qadınların gün ərzində çox nar yeməyini məsləhət görmür. Gündə 1 ədəd nar yeməyin isə heç bir ziyanı yoxdur. Narın həzm sistemində sürətləndirici təsiri olduğu üçün bağırsaq əməliyyatı keçirənlərə nar istifadəsi tövsiyə edilmir. Tez həzm olunsa da, bəzi insanlarda qaz və şişkinliyə səbəb ola bilər. Bu cür problemi olan insanlar diqqətli olmalıdır. Hər gün çox nar və ya nar şirəsi qəbul edən insanların qəbizlik riski daha yüksəkdir. Bu səbəblə çox nar istehlak etmək məsləhət görülmür.

Qan təzyiqi aşağı və allergiyası olan insanlar da diqqətli olmalıdır. Nardan çox istifadə etmək qan təzyiqinin ciddi şəkildə aşağı düşməsinə səbəb ola bilər. Qırmızı rəngli meyvələrə qarşı allergiyası olanlar nar yeməzdən əvvəl test etdirmələri məsləhət görülür. Belə ki, nardan çox istifadə etdikdə allergik reaksiyalar qaçılmaz olur. Bu allergiyanın çox rastlanan simptomları qaşınma, şişlik, boğazda qıcıqlanma, mədə ağrısıdır. Daha ağır vəziyyətlərdə isə nəfəs darlığı, boğazın şişməsi və hətta anafilaktik şok baş verə bilər.

Bəzi insanlar narı duzlayıb yeməyi də xoşlayır. Düzgün miqdarda və balansla istifadə edildikdə narı duzlayıb yemək ləzzətli bir alternativ ola bilər, amma sağlamlıqla bağlı hər hansı probleminiz varsa, bu vərdişi ehtiyatla tətbiq etmək daha yaxşıdır. Böyrək və ürək problemləri olanlar duz qəbulunu məhdudlaşdırmalıdır. Bu səbəbdən narı duzlayıb yemək onlar üçün məsləhət deyil.

Həkimlərin narın qabığından istifadə edənlərə də tövsiyələri var. Bu meyvənin qabığının bir sıra faydalı xüsusiyyətlərinin olduğu bildirilsə də, o, özündə az miqdarda zəhərli maddələr ehtiva edir. Nar qabığından "faydalıdır" deyib necə gəldi istifadə edənlər, ilk növbədə, həkimlə məsləhətləşməli olduğunuzu unutmayın.

*Nurəngiz ADİLQIZI*
*XQ*

## AZƏRBAYCAN RESPUBLİKASININ RƏQƏMSAL İNKİŞAF VƏ NƏQLİYYAT NAZİRLİYİNİN KOLLEGİYASI

**QƏRAR**

**№ 3-27/3-7-13/2025**

**Bakı şəhəri 27 oktyabr 2025-ci il**

**Azərbaycan Respublikasının ümumistifadəli telekommunikasiya şəbəkəsində nömrə resurslarının ayrılması və istifadəsi üzrə tariflərin tənzimlənməsi haqqında**

"Rəqəmsal inkişaf və nəqliyyat sahəsində tariflərin və xidmət haqlarının tənzimlənməsinin təkmilləşdirilməsi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 2 sentyabr tarixli 2315 nömrəli Fərmanının icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 12 sentyabr tarixli 767s nömrəli Sərəncamının 3-cü hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamə"nin 3.0.7-ci yarımbəndini və 5.11-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyası

**qərara alır:**

**1.** "Azərbaycan Respublikasının ümumistifadəli telekommunikasiya şəbəkəsində nömrə resurslarının ayrılması və istifadəsi üzrə tariflər" təsdiq edilsin (əlavə olunur).

**2.** Hüquq şöbəsi bu Qərarın qəbul edildiyi gündən 3 (üç) gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim olunmasını təmin etsin.

**3**. Bu Qərar Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinin elektron variantında dərc edildiyi gündən qüvvəyə minir və 2028-ci il 1 yanvar tarixinə kimi qüvvədədir.

**Kollegiyanın sədri,**
**rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev**

**Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının 2025-ci il 27 oktyabr tarixli 3-27/3-7-13/2025 nömrəli qərarı ilə təsdiq edilmişdir.**

**Azərbaycan Respublikasının ümumistifadəli telekommunikasiya şəbəkəsində nömrə resurslarının ayrılması və istifadəsi üzrə tariflər**

| № | Nömrə resurslarının adı | Tarif (manat) (ƏDV daxil olmaqla) | |
|---|---|---|---|
| | | Birdəfəlik | İllik |
| I | II | III | IV |
| 1 | Sabit telefon telekommunikasiya şəbəkəsi üçün nömrə resursunun ayrılması (1 nömrə üçün) | | |
| 1.1. | Bakı şəhərində | 0,80 | 0,10 |
| 1.2. | digər inzibati ərazi vahidlərində | 0,20 | 0,02 |
| 2. | Sabit telefon telekommunikasiya şəbəkəsi üçün 2 və ya 3 rəqəmli coğrafi zona kodunun ayrılması | 20 000,00 | 1 000,00 |
| 3. | Sellülar (mobil) telefon telekommunikasiya şəbəkəsi üçün 2 və ya 3 rəqəmli coğrafi kodun ayrılması | 240 000,00 | 20 000,00 |
| 4. | Sellülar (mobil) telefon telekommunikasiya şəbəkəsi üçün qeyri-coğrafi nömrə resursunun ayrılması (2 rəqəmli koddan sonra gələn 1 milyonluq nömrə resursunun hər bir nömrəsi üçün) | - | 0,008 |
| 5. | Sabit telefon telekommunikasiya şəbəkəsi və sellülar (mobil) telefon telekommunikasiya şəbəkəsi üçün 3 (üç), 4 (dörd) və 5 (beş) rəqəmli qeyri-coğrafi nömrə resursunun ayrılması | 2 800,00 | 840,00 |
| 6. | Beynəlxalq nöqtə (point) kodunun ayrılması | 2 940,00 | 245 |
| 7. | Milli nöqtə (point) kodunun ayrılması | 980,00 | 300,00 |
| 8. | Sellülar (mobil) telefon telekommunikasiya şəbəkə kodunun ayrılması (MNC) | 1 960,00 | 240,00 |
| 9. | Data şəbəkə identifikasiya kodunun ayrılması (DNIC) | 1 560,00 | 200,00 |

## HAVA

### Yağmursuz bir payız günü...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə və səhər bəzi yerlərdə az çiskinli olacağı ehtimalı var. Cənub-şərq küləyi əsəcək.**

Havanın temperaturu gecə 9-13, gündüz 17-20 dərəcə isti olacaq. Atmosfer təzyiqi 767 millimetr civə sütunu, nisbi rütubət 70-75 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 7-12, gündüz 18-23, dağlarda gecə 0-5, gündüz 7-12 dərəcə isti olacaq.

*Q.ƏLİYEV*
*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Samir Nuriyev və struktur bölmələrinin rəhbərləri Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayevə atası

**YUSİF MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Respublika Gigiyena və Epidemiologiya Mərkəzi" PHŞ-nin baş direktoru Sara Həsənova və kollektivi Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayevə atası

**YUSİF MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Bakı Şəhəri Herontoloji Mərkəzi" PHŞ-nin kollektivi Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayevə atası

**YUSİF MUSAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Milli Hematologiya və Transfuziologiya Mərkəzinin icraçı direktoru Sərdar Əsədov və mərkəzin kollektivi səhiyyə naziri Teymur Musayevə atası

**YUSİF MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**DİREKTOR – BAŞ REDAKTOR**

**ƏFLATUN AMAŞOV**

**T E L E F O N L A R:**
**Reklam və elanlar: 493-82-21**
**Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29**
**Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com**
**Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az**
**+994 (51) 280-16-44**

**"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.**

**Ü N V A N I M I Z:**
**AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.**
**Şəhadətnamə 022273**

**İNDEKS 0282**
**TİRAJ 3481**
**SİFARİŞ 2211**
**QİYMƏTİ 60 qəpik**

**Növbətçi redaktor**
**Tahir AYDINOĞLU**
**Çapa imzalanmışdır 00:00**